Xalqın qəzeti!

# Xalq qəzeti

№ 130 (30246) 21 iyun 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

Azərbaycanda idman çox yüksək səviyyədədir, çox yüksək sürətlə inkişaf edir. İdmançılarımız müxtəlif yarışlarda– dünya və Avropa çempionatlarında, olimpiya oyunlarında yüksək nəticə göstərərək, Vətənimizi ləyaqətlə təmsil edirlər.

# 49 il əvvəl bu gün



*1974-cü il iyunun 21-də Heydər Əliyevin təşəbbüsü ilə keçirilmiş Azərbaycan partiya fəalları yığıncağı bədən tərbiyəsi və idmanın problemlərinə həsr olunmuşdu*

**Böyük əks-səda doğurmuş həmin yığıncaqdan bizi 49 illik bir məsafə ayırır. O zaman respublikaya rəhbərlik edən Heydər Əliyevin təşəbbüsü ilə keçirilmiş toplantı bütünlüklə bədən tərbiyəsi – idmanın problemlərinə həsr edilmişdi.**

Bu gün geriyə boylanıb, o uzaq illəri xatırlayanda cəsarətlə deyə bilərik ki, Azərbaycanda bədən tərbiyəsi – idmanın sonrakı və indiki nailiyyətlərinin təməli 74-cü il iyun ayının 21-də qoyulmuşdur. O isti yay günü açıq və prinsipial söhbət nəticəsində qəbul edilmiş qərarlar, bütövlükdə, idmana daimi qayğı indi 100 illik yubileyini qeyd etdiyimiz Ulu öndərin yorulmaz və qətiyyətli fəaliyyətində xüsusi yer tutur.

Ümummilli lider fəallar yığıncağında idmanımızın bütün sahələrini əhatə edən nitqində respublikada bədən tərbiyəsi və idmanın inkişafı işində yaranmış vəziyyəti hərtərəfli təhlil etmiş, irəliləyişimizə mane olan nöqsan və çatışmazlıqları göstərmiş, sağlamlıq və gümrahlıq məşğələlərinin məişətimizə daha möhkəm daxil edilməsi, kutləviliyin artırılması, böyük idmanda isə yüksək nailiyyətlər qazanılması yolları üzərində ətraflı dayanmışdı.

*(ardı 5-ci səhifədə)*

# Azərbaycanın kosmik sənayenin inkişafında da böyük potensialı var

*Bu da bədxahlarımızın yuxusunu ərşə çəkir*



**Hələ yüz illər əvvəl müdriklər deyirdilər ki, istənilən müharibə dövlətin yeritdiyi siyasətin silah vasitəsilə davam etdirilməsidir. Biz son otuz ildə bu həqiqətin şahidləri olduq. Ermənistan dövləti silahla öz işğalçılıq siyasətini davam etdirdi, Azərbaycan isə həmin vasitə ilə ərazilərinin düşmən tapdağından azad edilməsinə nail oldu.**

Müdriklərin başqa bir fikrində isə deyilir ki, müharibə edən tərəfdə ən böyük sərkərdədən ucqar əyalətdəki çəkməçiyə qədər hamı iştirak etməsə və cəmiyyət həyatının bütün sahələri qələbə naminə fəaliyyət göstərməsə, heç bir uğurdan danışmaq olmaz. 44 günlük İkinci Qarabağ müharibəsi uluların həmin tarixi deyimini də növbəti dəfə təsdiqlədi. Azərbaycanda hamı Qələbə naminə birləşdi və cəmiyyət həyatının bütün sahələrinin inkişaf etdirilməsi məhz bu məqsədə xidmət etdi.

*(ardı 3-cü səhifədə)*

## Məğlubların “yüksək döyüş hazırlığı”



Səhifə ⇨ 3

## Türk Dövlətləri Təşkilatı qardaş xalqları daha da yaxınlaşdırır



Səhifə ⇨ 10

## AŞPA Ermənistanın qərəzini körükləyir




Səhifə ⇨ 4

## Azərbaycanda Şərq muğamı təntənəsi



Səhifə ⇨ 9

## Azərbaycan qlobal enerji dialoqlarında fəal rol oynayır




Səhifə ⇨ 7

## Paşinyanın “günah keçisi”



Səhifə ⇨ 6

## Qərbi Azərbaycan: Zəngəzur xəyanəti



Səhifə ⇨ 8

## Şərqi Zəngəzurun iqtisadi potensialı hərəkətə gətirilir



Səhifə ⇨ 7

## Vardanyan “kartı” yenidən dövriyyədə



Səhifə ⇨ 6

## Rusiya neft hasilatını niyə azaltmır?

Səhifə ⇨ 10

# Azərbaycan və Avstriya arasında əməkdaşlığın böyük potensialı var

**Milli Məclisin Sədri Sahibə Qafarova Avstriya Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Milli Şurasının Sədri Volfqanq Sobotka ilə görüşüb. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən redaksiyamıza verilən məlumata görə, əvvəlcə tərəflər arasında təkbətək görüş keçirilib, ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərin inkişafı ilə bağlı fikir mübadiləsi aparılıb. Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdirilib.**



V.Sobotka Milli Məclis Sədrinin bu səfərini parlamentlər arasında əlaqələrin inkişafı ilə bağlı qarşılıqlı niyyətin mühüm göstəricisi adlandırıb. O, parlamentlər səviyyəsində əlaqələrin əhəmiyyətini qeyd edərək , ölkələrimiz arasında münasibətlərin hazırkı səviyyəsindən məmnunluğunu bildirib. Deyib ki, Azərbaycan və Avstriya arasında əməkdaşlığın böyük potensialı var. Xüsusilə, iqtisadi əlaqələr daha da gücləndirilə bilər. V.Sobotka vurğulayıb ki, Azərbaycan Avropa üçün mühüm iqtisadi tərəfdaş, etibarlı enerji təchizatçısıdır. O, həmçinin Avstriyanın BMT Təhlükəsizlik Şurasının qeyri – daimi üzvlüyünə namizədliyinə göstərdiyi dəstəyə görə Azərbaycana təşəkkür edib.

Sahibə Qafarova Milli Məclisin Sədri səviyyəsində Avstriyaya ilk rəsmi səfəri olduğunu qeyd edərək, bunun ölkələrimiz və parlamentlərimiz arasında əməkdaşlığın daha da inkişafına və genişlənməsinə töhfə verəcəyinə ümidvar olduğunu bildirib. Azərbaycan və Avstriyanın dost və tərəfdaş ölkələr olduğunu deyən S.Qafarova qeyd edib ki, ötən il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 ili tamam olub. Azərbaycan və Avstriya arasında imzalanmış sənədlərin əhəmiyyətini qeyd edən S.Qafarova, bu çərçivədə, 2013-cü ilin mayında imzalanmış "Azərbaycan Respublikası və Avstriya Respublikası arasında dostluq münasibətləri və tərəfdaşlığa dair Birgə Bəyannamə"nin ölkələrimiz arasında əlaqələrin genişlənməsi üçün böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da müzakirələr aparılıb.

***Ə.BƏDƏLOV,***
***"Xalq qəzeti"***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri.**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Şimali Makedoniya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizi ürəkdən təbrik etməkdən, ölkənizin firavanlığı üçün ən səmimi arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək əmin olduğumu bildirirəm ki, qarşıdakı dövrdə siyasi və iqtisadi müstəvidə münasibətlərin möhkəmləndirilməsi, habelə qarşılıqlı maraq doğuran bir sıra sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün Şimali Makedoniya Respublikası ilə Azərbaycan Respublikası arasında ikitərəfli əlaqələri daha da inkişaf etdirəcəyik.

İcazə verin, yaxın gələcəkdə Sizinlə fikir mübadiləsi aparmaq üçün ikitərəfli görüşün keçirilməsində maraqlı olduğumu ifadə edim.

Zati-alinizə ən yüksək ehtiramımı çatdırır, gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

***Stevo PENDAROVSKİ,***
***Şimali Makedoniya Respublikasının Prezidenti***

# Məqsədimiz Asiya ilə Avropa arasında yeni əlaqə marşrutu yaratmaqdır



**Bu gün Mərkəzi Asiyadan, Xəzər dənizindən və daha sonra Qafqazdan keçən nəqliyyat marşrutlarının əhəmiyyəti daha da artıb. Azərbaycan nəqliyyat infrastrukturunun şaxələndirilməsinə və modernləşdirilməsinə diqqət yetirir, Avropa ilə Asiya arasında ticarət və logistikanı gücləndirmək üçün bir sıra nəqliyyat infrastrukturu layihələri təşviq olunur.**

Bu fikirləri Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov Birləşmiş Krallığa işgüzar səfəri çərçivəsində Xəzər Siyasət Mərkəzi tərəfindən təşkil edilmiş Xəzər Bağlantı Konfransında çıxışı zamanı deyib.

Nazir, həmçinin Azərbaycanın Bakı–Tbilisi–Qars dəmir yolu və Trans–Qafqaz fiber-optik kabel layihələri kimi bir sıra digər regional əlaqələndirmə layihələrinin reallaşdırılmasında fəal təşəbbüskar və etibarlı tərəfdaş olduğunu diqqətə çatdırıb.

Ceyhun Bayramov Azərbaycanın Xəzər dənizinin öz hissəsində böyük dəniz küləyi potensialından, bu xüsusda elektrik enerjisinin Avropaya potensial ixrac yollarından da danışıb. O, Asiya ilə Avropa arasında yeni əlaqə marşrutu yaratmaq məqsədi daşıyan rəqəmsal dəhliz olan "Rəqəmsal İpək Yolu"nun yaradılmasını nəzərdə tutan "Azerbaijan Digital Hub" layihəsini qeyd edib.

***"Xalq qəzeti"***

# Asiya İnkişaf Bankı ilə yeni əməkdaşlıq imkanları

**Dünən iqtisadiyyat naziri Mikayıl Cabbarov Asiya İnkişaf Bankında (AİB) Azərbaycanın daxil olduğu ölkələr qrupu üzrə icraçı direktor xanım Reyçl Tomsonla görüşüb.**



Görüşdə Azərbaycanın beynəlxalq maliyyə qurumları, o cümlədən, Asiya İnkişaf Bankı ilə tərəfdaşlığa önəm verdiyi, Bankın ölkəmizə maliyyə-texniki dəstəyinin yüksək qiymətləndirildiyi diqqətə çatdırılıb. Qeyd edilib ki, AİB enerji, ətraf mühit, infrastruktur, tranzit-logistika, rəqəmsal inkişaf, dövlət-özəl sektor tərəfdaşlığı və digər istiqamətlər üzrə icra olunan layihələr çərçivəsində ölkəmizə dəstək göstərir.

Asiya İnkişaf Bankında Azərbaycanın daxil olduğu ölkələr qrupu üzrə icraçı direktor xanım Reyçl Tomson təmsil etdiyi qurumun ölkəmizlə əlaqələrinin genişlənməsində marağını ifadə edib, birgə təşəbbüs və layihələrin Azərbaycanda dayanıqlı inkişafın təmin olunmasına töhfə verəcəyini qeyd edib.

***"Xalq qəzeti"***

# Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Müşahidə Şurasının növbəti iclası keçirilib

**Bu gün Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Müşahidə Şurasının növbəti iclası keçirilib.**



Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyevin sədrliyi ilə keçirilən iclasda Xidmətin 2022-ci il üzrə fəaliyyətinə dair illik və maliyyə hesabatlarının, qurumun fəaliyyətindəki şəffaflığın daha da artırılması, Xidmətin əməkdaşlarına rüşvətxorluğa qarşı mübarizənin gücləndirilməsi məqsədilə Korrupsiyaya qarşı mübarizə siyasətinin təsdiqi müzakirə edilib. Həmçinin Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru Növrəs Cəfərovun ötən 6 ay ərzində Xidmət tərəfindən görülmüş işlərlə bağlı hesabatı dinlənilib.

İclasın yekununda Xidmətin 2022-ci ildə fəaliyyətinə dair illik və maliyyə hesabatlarının, həmçinin Korrupsiyaya qarşı mübarizə siyasətinin təsdiqi barədə müvafiq qərarlar qəbul olunub.

# Ümumdünya Gömrük Təşkilatının Siyasi Komissiyasının 88-ci sessiyası

**Brüsseldə, Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Baş qərargahında ÜGT Siyasi Komissiyasının 88-ci sessiyası işə başlayıb. Sessiyada Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edir.**

Sessiyada COVID-19 layihəsi üzrə yekun hesabat, Özəl Sektor Məşvərət Qrupunun iclasına dair hesabat, elektron ticarətlə bağlı yeniliklər, "yaşıl gömrük", həssas sərhədlər və digər məsələlər müzakirə olunur.

ÜGT Gömrük Əməkdaşlıq Şurasının sədri Şeyx Əhməd bin Hamad Əl Xəlifə gündəlikdəki "yaşıl gömrük" mövzusunda müzakirələr zamanı Azərbaycan gömrüyünün bu istiqamətdə verə biləcəyi töhfələri xüsusi vurğulayıb.

ÜGT Baş katibi Kunio Mikuriya Azərbaycan gömrük xidmətinin təşəbbüsü və təşkilatçılığı ilə "Orta Dəhliz boyu tranzit gömrük prosedurunun sadələşdirilməsi layihəsi" çərçivəsində Bakıda region ölkələrinin gömrük xidmətləri rəhbərlərinin iştirakı ilə aparılan müzakirələrin məlumat mübadiləsi və əməkdaşlığın gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını bildirib.

***"Xalq qəzeti"***

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2023-cü ilin iyul ayında vətəndaşların qəbulu

## CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | 3,17 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | 4 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | 4 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi**<br>Qasımov Azər Məhəmməd oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | 6 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | 7,14,21 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | 7 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | 11,24 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | 12,25 |
| **Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi**<br>Əhədov Xalid Nurəddin oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri**<br>Əliyev Məhərrəm Abış oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | 18 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | 18 |
| **Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | 19 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi**<br>Məmmədov Məsim Əhməd oğlu | 20 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | 21 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 26 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 27 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | 28 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | 31 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

# Azərbaycanın kosmik sənayenin inkişafında da böyük potensialı var

(əvvəli 1-ci səhifədə)

Xatırladaq ki, bu məsələyə yenidən qayıtmağımızın səbəbi İrəvan hakimiyyətinə müxalif mövqedə dayanan erməni fəallarının sosial şəbəkədə dilə gətirdiyi reallıqlar səbəb oldu. Onlar açıq şəkildə etiraf edirlər ki, bütün dünya Ermənistanı müdafiə etsə də ( erməni təxəyyülünə görə, dünya Fransa, İran və Rusiyadan ibarətdir), Azərbaycan regionda istədiyini edir: “Bunun isə əsas səbəbi Bakının müharibəyə hərtərəfli hazırlaşmasıdır”.

Maraqlıdır ki, Ermənistan İkncі Qarabağ müharibəsində rüsvaycasına məğlub olandan sonra da işğalçı ölkənin ziyalıları İrəvan rəhbərliyinə çoxsaylı suallar ünvanladılar. Paşinyan iqtidarına müxalif mövqedə dayanan alimlərdən biri (adını unutsam da, soyadı Surenyan idi) deyirdi ki, İlham Əliyev öz ölkəsini inkişaf etdirərək kosmosa rabitə peyki göndərəndə Ermənistan rəhbərləri harada idilər? Bu sualı verən şəxs özü cavab verirdi ki, onlar xalqın hesabına var-dövlət toplayırdılar: “İndi Azərbaycan Ordusu kosmosdakı rabitə-müşahidə peykləri sayəsində nəinki bizim tankımızın, topumuzun, hətta kənd təsərrüfatı texnikamızın da yerini bilir”. Bu, o zaman idi ki, dövlət başçımız İkinci Qarabağ müharibəsində kosmosdakı peyklərimizin xidmətlərini açıq şəkildə etiraf etmişdi.

Yeri gəlmişkən, “Azərkosmos”un rəsmisi bu günlərdə mətbuata verdiyi müsahibədə demişdi ki, biz hələ 2019-cu ildə işğal altında olan torpaqlarımızda Ermənistan tərəfindən aparılan qeyri-qanuni fəaliyyətə dair BMT səviyyəsində qəbul edilən bir hesabat, qəsdən törədilən meşə yanğınları, faydalı yataqların istismarı, məskunlaşmalarla bağlı peyk təsvirlərindən sənədlər hazırlamışdıq. Həmin hesabatlarla Ermənistan rəhbərliyinin bizim ərazilərimizdəki qeyri-qanuni fəaliyyəti beynəlxalq səviyyədə göstərə bilmişdik. Müharibə dövründə isə xüsusi işçi qrupu yaradılmışdı. Qrup gecə-gündüz işləyirdi. Bu da təxribatların qarşısının alınmasına kömək göstərirdi. Peyk bizim səmadan baxan gözümüz idi. 44 günlük müharibədə hər gün təsvirlər çəkilirdi. Hazırda isə həmin təcrübədən böyük qayıdış çərçivəsində görülən işlərin intensivləşdirilməsində istifadə edilir.

Dövlət başçımız işğaldan azad edilmiş ərazilərimizin bərpasından danışarkən xatırladıb ki, bundan sonra bütün məsələləri texnologiyalar həll edəcək: “Biz həm texnologiyaları gətirib Azərbaycanda tətbiq etməliyik, həm də elə güclü kadr potensialı yaranmalıdır ki, biz özümüz bu texnologiyaların müəllifləri olaq”. Bəli, Azərbaycan kosmik dövlətə çevrilib. Cənab Prezidentin dediyi kimi, bunu bir neçə il bundan əvvəl təsəvvür etmək belə çətin idi.

Mütəxəssislərin fikrincə, kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması, ilk növbədə, informasiya mübadiləsinin xarici ölkələrdən asılılığının aradan qaldırılmasında və informasiya təhlükəsizliyinin təmin edilməsində həlledici rol oynayır. Eyni zamanda, ölkədə yeni iqtisadi sahələrin, həmçinin bu sahələr üzrə insan ehtiyatlarının və intellektual potensialın inkişaf etdirilməsi, tam təchizatlı maddi-texniki bazanın yaradılması, elm tutumlu yeni layihələrin həyata keçirilməsi və nəticə etibarilə innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması istiqamətində aparılan işlər arasında strateji əhəmiyyəti ilə seçilir.



Yeri gəlmişkən, Azərbaycan Prezidentinin 74-cü Beynəlxalq Astronavtika Konqresinin 2023-cü ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında sərəncamında qeyd edilir ki, ölkəmizdə müasir texnologiyaların geniş tətbiqi, rəqəmsal inkişaf və kosmik sənaye quruculuğu sahəsində mühüm nailiyyətlər əldə edilmişdir. Ötən illərdə hərtərəfli dövlət dəstəyi ilə ölkədə kosmik sənaye üzrə müasir infrastruktur yaradılmış, informasiya təhlükəsizliyinin vacib komponenti olan telekommunikasiya peykləri orbitə buraxılmış, xarici dövlətlərin peyklərindən asılılıq aradan qaldırılmış və peyk xidmətlərinin ixracına başlanılmışdır. Mövcud peyk şəbəkəsi ölkəmizin suverenliyinin qorunması ilə yanaşı, onun sosial-iqtisadi inkişafına da mühüm dəstək verir. Uğurlu peyk layihələri sayəsində Azərbaycan dünya kosmik ailəsinin bir üzvünə çevrilərək beynəlxalq kosmik icmada böyük nüfuz qazanmışdır.

Daha maraqlı məqamlardan biri də odur ki, Bakı Konqresi “Qlobal çağırışlar və imkanlar: kosmosa şans verək” mövzusunda keçiriləcək. Yəni dünya alimləri kosmosa növbəti şansı məhz Bakıdan verəcəklər. Bu fakt alimlərimizin kosmik sahədən olan şirkət və təşkilatlarla daha sıx əlaqələrin qurması, ölkəmizə kosmik texnologiyaların transferi prosesinin sürətləndirilməsi, insan kapitalının inkişafı, eləcə də, ölkəmizin beynəlxalq arenada etibarlı tərəfdaş nüfuzunun daha da möhkəmlənməsi baxımından əhəmiyyətli olacaq.

Onu da əlavə edək ki, Beynəlxalq Astronavtika Federasiyası İkinci dünya müharibəsindən sonra – 1951-ci ildə “Soyuq müharibə” dövründə kosmos sahəsində elm adamlarının arasında dialoqun yenidən qurulması məqsədilə yaradılıb. Federasiya sülh məqsədləri ilə kosmik tədqiqat və fəaliyyətin təşviq edilməsi, cəmiyyətin bu sahədə maariflənməsi və biliklərinin zənginləşdirilməsi məqsədilə üzv qurumlar arasında qlobal şəbəkə yaradır. Federasiya hər il konfrans, texniki sessiyalar, quruma üzv ölkələrin nazirləri və parlament üzvlərinin beynəlxalq iclası kimi nüfuzlu tədbirlər təşkil edir. Hazırda federasiyanın 110 ölkədən 460-dan çox üzvü var.

Hər halda, Azərbaycanın kosmosdakı fəaliyyəti həm İkinci Qarabağ müharibəsi günlərində, həm də işğaldan azad edilmiş ərazilərimizdəki bərpa-quruculuq prosesində mühüm əhəmiyyət kəsb etmişdir. Bu fakt onu da sübut edir ki, biz suda, quruda, havada və hətta, kosmosda da qüdrətliyik.

***İttifaq MİRZƏBƏYLİ, “Xalq qəzeti”***

# “Markusun əzabları”, yaxud “sirli missiya”

**Avropa İttifaqının (Aİ) Ermənistandakı Mülki monitorinq missiyasının rəhbəri Markus Ritter erməni “Youtube” kanalına müsahibə verib. Missiyanın mövcud durumu, fəaliyyəti və gələcək planları barədə məlumat verən Ritter Azərbaycan–Ermənistan əlaqələrinin inkişafı üçün mümkün yollar haqqında da fikir bildirib.**

## “Silahlı şəxslərin təhlükəsizliyi” nağılı

Markus Ritterin müsahibəsində bir neçə məqam xüsusilə diqqət çəkir. Bunlardan biri onun bir neçə dəfə missiyanın “müstəsna mülki xarakter” daşımasını dilə gətirməsidir. Onun bu ifadəni dəfələrlə təkrarlaması, bu cümləyə məxsusi olaraq diqqət çəkməyə çalışması onu göstərir ki, Ritter missiyanın mülki xarakter daşımadığı ilə bağlı media və ictimai rəydə səslənən fikirlərdən narahatdır. Görünür Markus da başa düşür ki, insanlar yarısı silahlı şəxslərdən ibarət olan 103 nəfərlik missiyanı “mülki missiya” adlandırmaqda çətinlik çəkir, bunun həqiqətən də qeyri-hərbi məqsəd daşıdığına inana bilmirlər. Məhz buna görə də Markus missiyanın statusu ilə bağlı bu ifadəni dönə-dönə səsləndirməklə ictimai rəyi istədiyi səmtə yönləndirməyə cəhd edir. Halbuki, hər iki nəfərdən birinin silah daşıdığı, tərkibinin əsasən keçmiş hərbçilərdən təşkil edildiyi bu missiyanı “mülki missiya” kimi qələmə vermək doğrudan da, çətindir. Və bu çətinliyi ortadan qaldırmaq üçün yalnız onun sözlərinə istinad etmək kifayət deyil.

*(ardı 6-cı səhifədə)*

# Azərbaycan XİN Nikol Paşinyanın iddialarına cavab verib

**İyunun 20-də Ermənistanın baş naziri Nikol Paşinyanın parlamentdə çıxışında 44 günlük müharibə zamanı və ümumilikdə işğal dövründə aparılmış bir sıra danışıqları təhrif etməklə yanaşı, bir daha göstərib ki, Ermənistan çağırışlara baxmayaraq, Azərbaycan ərazilərini danışıqlar yolu ilə işğaldan azad etməkdən imtina edib.**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Nikol Paşinyanın parlamentdə çıxışı zamanı səsləndirdiyi iddialara cavabında bildirilib.

Qeyd olunub ki, Ermənistan baş nazirinin müharibə zamanı hər bir danışıqdan və humanitar atəşkəsdən dərhal sonra müharibə zonasından kənar mülki əhalinin sıx yaşadığı Azərbaycan şəhərlərini raket atəşinə tutmasını və mülki əhalini qətlə yetirməsini danması Ermənistan tərəfinin faktları necə təhrif etdiyini bir daha nümayiş etdirir.

Vurğulanıb ki, Azərbaycanın guya 2011-ci ildən silahlanmanı və təxribatları artırmaqla vəziyyəti gərginləşdirdiyi barədə iddialara gəldikdə, Azərbaycan əraziləri işğal olunan andan etibarən BMT Təhlükəsizlik Şurasının və bir sıra digər beynəlxalq təşkilatların qərar və qətnamələri əsasında danışıqlar yolu ilə ərazilərinin geri qaytarılmasına səy göstərib. Bütün bunlara baxmayaraq, baş nazir Paşinyan tərəfindən şəxsən 2018–2019-cu illərdə nümayiş etdirilən təhrikçi ritorika da daxil olmaqla, uzun illər ərzində Ermənistan tərəfindən törədilən təcavüz aktının və təxribatların sülhə töhfə vermədiyi və 2020-ci ildə müharibə ilə nəticələndiyi hər kəsə məlumdur.

Diqqətə çatdırılıb ki, Ermənistan tərəfinin tarixi səhvlərindən dərs çıxarması və postmünaqişə dövründə sülh prosesinin uğurla nəticələnməsi işinə maneçilik törətmək səylərindən əl çəkməsi zəruridir.

*“Xalq qəzeti”*

# Məğlubların “yüksək döyüş hazırlığı”

## Hay mediası ordunun bir nömrəli hazırlıq vəziyyətinə gətirilməsi, zirehli texnikanın sərhədə doğru irəliləməsi, avropalı müşahidəçilərin bölgədən uzaqlaşdırılması barədə xəbərləri tirajlamaqla məşğuldur

**Müharibə ritorikasını dövriyyəyə buraxmaqda İrəvanın məqsədi nədir? Fransadan, Hindistandan aldığı silahların hesabına gücləndiyini dünyaya göstərmək? Yoxsa, Azərbaycana qarşı gücünü nümayiş etdirmək xəyalına düşüb? Bəlkə, bütün bunlar, sadəcə olaraq, ucuz diplomatik gedişlər, daha çox daxilə hesablanmış təbliğat maşınının növbəti “informasiya taktikasıdır”? Sonuncu sual-ehtimalın reallığa daha yaxın olduğunu düşünməyə və qəbul etməyə dəyər.**



Özünü həm yerli ictimaiyyətin, həm də xaricdəki tərəfdarlarının gözündə “reabilitasiya” etməyə çalışan İrəvanın son vaxtlar hərbi-diplomatik cəbhədə fəallaşması heç də təsadüfi deyil. “Ermənistan ordusunun sərhədə cəmləşməsi və 1 nömrəli hazırlıq səviyyəsi elan edilməsi barədə yayılan informasiya doğrudur”. Bu məlumatı “Sisakan” quldur dəstəsinin döyüşçüsü Aşot Avaqyan Hayastan mediasına açıqlamasında təsdiq edib. Onun sözlərinə görə, iyunun 16-da günün ikinci yarısında sərhəd zolağındakı hərbi qüvvələr ən yüksək döyüş hazırlığı vəziyyətinə gətirilib: “Hazırda gərginlik əsasən Laçın, Kəlbəcər və Naxçıvan istiqamətlərindədir. Peykdən baxsanız görərsiniz ki, Naxçıvan sərhədində hərbi maşınlar düzülüb. Laçından Bazarçaya, Cermuxa qədər düşmənin də həmin ərazilərdə cəmləşməsi müşahidə olunur”.

Artur Vardanyan adlı partiya funksioneri isə Avropa İttifaqının mülki missiyasının Zəngəzur və Göyçə vilayətlərinə gedən müşahidəçilərin bölgədə vəziyyətin gərginləşməsi ilə əlaqədar oradan təxliyə edildiklərini bildirib. Onun sözlərinə görə, Azərbaycanla bütün təmas xətləri boyunca bir nömrəli hazırlıq elan edilib. Bu məsələyə az sonra qayıdacağıq. İndi isə hayların sosial şəbəkə oyunlarına baş çəkək.

### Qəhrəmanlığı yalnız videoçarxlarda edə bilərsiniz

Oxucularımıza xatırladaq ki, iyunun 16-da hayların sosial şəbəkə istifadəçilərinə rastlaşdıqları hərbi maşın karvanlarının fotoşəkillərini çəkməmək, onları şəxsi hesablarda yaymamaq barədə çağırış edilib. Hətta bu xəbərdarlıqla bağlı şəbəkəçilərə videoçarx da təqdim edilib. Həmin videoçarxda diqqəti cəlb edən epizod Azərbaycan hərbçilərinə qarşı “raket hücumu”nun öz əksini tapmasıdır. Əslində, ermənilərin bununla nəyə işarə vurduqları, hansı duruma hazırlaşdıqları naməlum qalır. Ondan bir neçə gün əvvəl isə Ermənistan qoşunlarının Azərbaycanla şərti sərhədə doğru irəlilədiyini göstərən videogörüntülər yayılmışdı.

“Qarabağı necə itirəcəyimizi gözləmək nöqteyi-nəzərindən vaxt nisbi anlayışdır. Yaxınlaşan fəlakəti dayandırmaq üçün olduqca az zamanımız qalıb”. Bu sözləri isə Ermənistanın Alternativ Layihələr Qrupunun üzvü Vahe Hovannisyan deyib. “Əgər biz 1 milyon 200 min ermənінin yaşayacağı, amma Türkiyə iqtisadiyyatına xidmət edəcək bir vilayətə çevrilməyə razıyıqsa, bunun üçün 5-10 il kifayət edir. Amma bir aydan sonra nələrin baş verəcəyindən, hökumətin hansı addımları atacağından, nələrə razılaşacağından xəbərsizik. Axı biz nələrisə dəyişməliyik, çünki sonra gec olacaq”, – deyə bildirib. V.Hovannisyan avantürist çağırışlarına onu da əlavə edib ki, ermənilərin öz dövlətlərini qorumaq, Qarabağı “əldə saxlamaq” üçün, demək olar ki, vaxtları daralıb: “Belə görünür ki, yeni müharibədən qaçmaq üçün heç bir şansımız qalmayıb”.

### Papikyanın təsadüfi sayılmayan Paris səfəri

Hər tərəfdən görünən odur ki, şərti sərhədin əksər hissəsində Ermənistan silahlı birləşmələrinin cəmləşməsi, yerdəyişməsi intensiv hal almaqdadır. Bununla paralel olaraq Qarabağdakı Hayastan ordusunun tör-töküntüsü, separatçı ünsürlər xeyli fəallaşıblar. Aydın məsələdir ki, bütün bunlar təsadüfi sayıla bilməz. Və bu arada Ermənistanın müdafiə naziri Suren Papikyanın Fransaya səfər etməsi də qətiyən təsadüf deyil. İrəvana müasir silahlar vəd edən Fransanın gizli-aşkar vasitələrlə bunu reallaşdırmağa çalışdığı da sirr deyil. Fransa silahlı qüvvələr naziri Sebastyen Lekornyünün dəvəti ilə Parisə işgüzar səfərə gedən Ermənistan müdafiə naziri Suren Papikyan Senatın xarici işlər, müdafiə və silahlı qüvvələr komissiyasının sədri Kristian Kambo ilə görüşüb. Səfərlə bağlı Hayastan Müdafiə Nazirliyinin mətbuat xidmətinin məlumatında deyilir ki, Papikyanla Kambonun görüşündə tərəflər iki ölkənin müdafiə sahəsində əməkdaşlığına, eləcə də regional təhlükəsizliyə dair məsələlər müzakirə olunub. Görüşün detalları açıqlanmasa da, müzakirə mövzusunun Ermənistana hərbi-texniki yardımın göstərilməsi məsələsinin olduğu şəksizdir. İşgüzar səfərin “dekorativ fabulası” S.Papikyanın Parisin “Le-Burje” sarayında “Paris aviasiya sərgisi”nin açılış mərasimində iştirak etməsi də ssenaridə düşünülüb. “Armenpress”in Ermənistan müdafiə nazirliyinə istinadla yaydığı məlumata görə, Papikyanın Fransa hərbi-sənaye müəssisələrinin sərgi pavilyonlarını ziyarəti və şirkət rəhbərləri ilə görüşləri planlaşdırılıb. Səfərin əsl məqsədini pərdələməkdən ötrü “mədəni-kütləvi tədbirlərin” önə çəkilməsini anlamaq çətin deyil.

### Avrodeputatların hesabat yanğısı

Bu arada Arpopa Parlamentinin təhlükəsizlik və müdafiə məsələləri üzrə altkomitəsinin nümayəndə heyəti İrəvana səfər edib. Deputatların bu səfərindən məqsəd Hayastanda təhlükəsizlik vəziyyətinin, Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşması prosesinin qiymətləndirilməsi, həmçinin cari ilin fevral ayından Avropa İttifaqının Ermənistanda dislokasiya olunmuş mülki missiyasının fəaliyyəti ilə tanış olmaq və bununla bağlı hesabat hazırlamaqdır. Səfərin gedişində avrodeputatlar Hayastanın hökumət və parlament nümayəndələri, eləcə də Aİ-yə üzv ölkələrin İrəvandakı səfirləri ilə görüşlər planlaşdırılıb.

İrəvan orduda 1 nömrəli hazırlıq vəziyyəti elan edib. Hətta Avropa İttifaqının mülki müşahidə missiyasını “təhlükəli” hesab etdikləri şərti sərhəd zolağından kənarlaşdırıblar. Bir növ müdafiəyə hazırlığı imitasiya edən haylar yalandan dünyaya car çəkirlər ki, Azərbaycan Ermənistana təcavüzə hazırlıq görür. Bakı ən yüksək səviyyədə, həm də dəfələrlə başqa ölkənin torpağında gözünün olmadığını bəyan edib. “Xain xoflu olar”, – deyiblər. Əsrlər boyu özgəsinin malında, torpağında, mədəniyyətində nəfsi olan hayların bəsirət gözlərini açmaq missiyası, deyəsən, bizim boynumuza düşüb. Çətin missiyadır, amma yerinə yetirilməsi mümkündür.

### Keçmiş “bəlkə ilə də” qayıtmayacaq...

Yuxarıda cavabsız buraxdığımız məsələyə qayıdaraq demək istəyirik ki, Azərbaycan Müdafiə Nazirliyində plana uyğun şəkildə toplantı keçirilib. Nazir Zakir Həsənov ordu komandirlərinə müvafiq tapşırıqları verib. Əgər Azərbaycanın suveren ərazisində silahlı separatçılar, Ermənistan silahlı qüvvələrinin tör-töküntüsü hələ də qalmaqda davam edirsə, Bakı bu şəraitə müvafiq olaraq zəruri tədbirləri görməlidir və bunu edir. Son bir həftə ərzində həm şərti sərhəddə, Laçın yolundakı nəzarət-buraxılış məntəqəsində, həm də Naxçıvan, Şuşa, Gədəbəy, Kəlbəcər istiqamətlərində ordumuzun mövqelərini atəşə tutan Ermənistan silahlı birləşmələrinə layiqli cavab verilməklə yanaşı, qarşı tərəfin növbəti hərbi təxribatlarına mütləq hazır olmalıyıq. Dediyi sözə, verdiyi vədə əməl etməyən, daşnak-revanşistlərin girovuna çevrilmiş rəsmi İrəvanla başqa nə cür davranmalıyıq? Qarabağ daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıyan hakimiyyətin ikibaşlı oyunlarına daha dözməyəcəyik. İrəvandakı “müharibə partiyası”nın, onun xaricdəki havadarlarının ölkəmizə qarşı başladıqları qara piar kampaniyasının isə heç bir faydası olmayacaq.

Belə bir el məsəlimiz var: “Ac toyuq yuxusunda darı görər”. Artıq yuxu ilə reallığın fərqinə varmağın, keçmişdə qalanları “bəlkə də qaytardılar” xülyası ilə arzulamağın sonu çatıb. Birdəfəlik qulaqlarında sırğa etsinlər: özlərinin “döyüş ruhlarını” yalnız kompüter oyunlarında qaldırmağa qadir olan hayların Azərbaycana qarşı Üçüncü Qarabağ müharibəsinə başlamağa nə cürətləri, nə də gücləri çatar.

***İmran BƏDİRXANLI, “Xalq qəzeti”***

**Ekspert rəyi**



**Fikrət SADIXOV, politoloq**

– Hazırda rəsmi İrəvanın əsas məqsədi öz iqtidarını gözlənilən bir sıra risklərdən sığortalamaqdır. İlk növbədə, daxildəki radikal-şovinist qüvvələr tərəfindən edilən hücumlardan qorunmaqdır. Çünki o qüvvələr hakimiyətə irad tuturlar ki, müharibəni uduzmusunuz, nəinki işğal olunan torpaqları, hətta Qarabağı da əldən verirsiniz. Əslində, bu, başadüşülən məsələdir. Paşinyan iqtidarı müəyyən müddət üçün özünü sığortalamağı bacarar. Amma bu, uzunmüddətli proses ola bilməz. Onun nə demək istədiyini anlamaq olmur. Yəni, Azərbaycana qarşı silahdan istifadə edəcək? Yenidən torpaqlarımızı işğal etmək xəyalına düşüb? Buna kim imkan verəcək: Azərbaycan, Türkiyə, Pakistan, yoxsa İsrail? Əgər o, bu sadə həqiqəti başa düşmürsə, bütün vasitələrdən istifadə etməklə onu başa sala bilərik. Amma o, bunu anlayaraq, qəsdən edirsə, onda bunun adı informasiya müharibəsidir. Özlərinin təbliğat maşınını işə salıblar. Onlar bununla xalqın narazı kəsimini, konkret olaraq, revanşist qüvvələri sakitləşdirmək məqsədini güdürlər. Sübut eləməyə çalışırlar ki, hər an həm özlərini müdafiə etməyə, həm də Azərbaycana hücuma hazırdırlar və bu “hazırlıq işlərini” hamı müşahidə etməlidir. Əlbəttə, bütün bunlar gülünc addımlardır və düşünürəm ki, Paşinyanın növbəti təbliğat oyunundan başqa heç nə deyil.

# AŞPA Ermənistanın qərəzini körükləyir

## Qurumun Azərbaycanın Laçın yolu ətrafında müzakirə açmaq barədə qərarı avantürizm üçün yeni illüziyalar doğurur

**Məlum olduğu kimi, Avropa Şurasının Parlament Assambleyasının (AŞPA) yay sessiyasının gündəliyinə Laçın dəhlizi ilə bağlı məsələ salınıb. İyunun 19-dan 23-dək keçiriləcək sessiyada "Laçın dəhlizi vasitəsilə azad və təhlükəsiz girişin təmin edilməsi" mövzusundakı müzakirə AŞPA-nın təcili prosedur qaydası üzrə iyunun 22-də təşkil olunacaq.**

"Bu həftə gündəliyimizə Ermənistan və Azərbaycan arasında gərginliyin yüksək olaraq qaldığı Laçın dəhlizindəki olduqca narahatedici vəziyyətlə bağlı təcili müzakirələr daxildir. Nəticədə, bu dəhlizin əlçatanlığından asılı olan insanlar son dərəcə ağır təzyiq altındadırlar". Bunu AŞPA prezidenti Tini Koks sessiyanın açılışında qeyd edib.

Əslində, mövzunun assambleyada müzakirəyə çıxarılması ilə bağlı təklifi AŞPA-nın Miqrasiya, qaçqınlar və köçkünlər üzrə komitəsi verib. Komitə bu ilin martında daha əvvəl Azərbaycan–Ermənistan münaqişəsinin humanitar fəsadlarına dair hesabatın müəllifi olan irlandiyalı deputat Pol Qavanı "Laçın dəhlizinin blokadasının humanitar nəticələrinin aradan qaldırılması" mövzusunda məruzəçi təyin edib. Komitənin may ayında baş tutmuş toplantısında hesabatın adı "Laçın dəhlizi vasitəsilə azad və təhlükəsiz girişin təmin edilməsi"nə dəyişdirilib və yay sessiyasında assambleyanın müzakirəsinə çıxarılması üçün təklif irəli sürülüb.

***

AŞPA dəfələrlə ölkəmizə qərəzli münasibəti ilə seçilib. Qurumun mahiyyətcə İrəvanın qaldırdığı avantürizmi müzakirəyə çıxarmaq niyyəti onun çoxdankı erməniपərəstlik şakərindən irəli gələn məqamdır. Hər bir halda, təzadlı vəziyyət yaranır. Çünki AŞPA-dakı erməni nümayəndə heyəti Azərbaycanın Laçın yolunun başlanğıcında – Həkəri körpüsündə sərhəd buraxılış məntəqəsi qurmasını ölkəmizin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatı pozması kimi əsaslandırıb. O bəyanatı ki, beynəlxalq hüquq baxımından istinad mənbəyi kimi götürülməsi absurddur. AŞPA-nın buna getməsi isə ikiqat absurddur. Nəzərə alaq ki, qurumun elan etdiyi konkret prinsiplər var. Həmin prinsiplərdə başlıca xətti dövlətlərin ərazi bütövlüyü amili təşkil etməkdədir.

Üçtərəfli bəyanat isə ikitərəfli öhdəliklərlə əlaqədardır. AŞPA-dakılar obyektiv davranmaq istəsəydilər, ilk növbədə, öhdəliklərə məhəl qoymayan tərəfin İrəvanın özünün olduğunu nəzərə alıb, erməni nümayəndələrin təklifini ümumiyyətlə gündəliyə çıxarmazdılar. Digər tərəfdən, qurum onu da nəzərə almalıdır ki, hazırda Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsindəki aktiv Qərb formatı var və bu format üçtərəfli Bəyanat məntiqindən uzaq nizamlama xətti gerçəkləşdirməkdədir. Əlbəttə, bu gerçəkləşdirmədə həmin sənədin Rusiya tərəfindən ərsəyə gəlməsi amili rol oynayır. Eyni zamanda, hər kəsə o da yaxşı məlumdur ki, üçtərəfli Bəyanat böyük ölçüdə atəşkəs sənədidir.

***

Bəli, AŞPA Ermənistanın illüziyalara qapılmasına şərait yaratmaqdadır. Qurum hər dəfə ilk baxışdan mənasız sayılan məsələləri gündəliyə gətirərək, erməni avantürizminə qol-qanad verir. Baxın, İrəvanda Laçın yolu mövzusunun gündəliyə salınması az qala, toy-bayram kimi qəbul edilir. Halbuki, sevinməyə heç bir əsas yoxdur. Birincisi, müzakirənin Ermənistanın xeyrinə nəticələnməyəcəyi ehtimalı da var. İkincisi, lap tutalım, AŞPA Azərbaycan əleyhinə qətnamə çıxardı. Nə olacaq? Axı, ölkəmiz beynəlxalq hüquq baxımından öz ərazisindədir, başqa dövlətin ərazisini işğal etməyib.

İşğaldan söz düşmüşkən, Ermənistan otuz ilə yaxın müddətdə həm də AŞPA-nın Azərbaycan torpaqlarındakı işğalın dayandırılması ilə bağlı qətnamələrinə və çağırışlarına əhəmiyyətsiz yanaşmış tərəfdir. Daha bir təzad da odur ki, hazırda qurum Laçın dəhlizi, yəni suveren Azərbaycan ərazisi ilə bağlı məsələni gündəliyə gətirməklə, əslində, özünün vaxtilə nümayiş etdirdiyi mövqeyə, qəbul etdiyi sənədlərə qarşı çıxmaqdadır.

***

Qeyd edək ki, AŞPA çərçivəsində




Laçın yolu ilə bağlı məsələ ötən altı ay ərzində iki dəfə gündəmə gətirilib. Bunlardan biri 2022-ci ilin dekabrında olub. O vaxt qurumun Hüquq komitəsinin iclasında Ermənistan parlamentinin deputatı Vladimir Vardanyan Azərbaycanın ünvanına əsassız ittihamlar irəli sürmüşdü. Vardanyan Azərbaycanın ekoloji sahə üzrə ixtisaslaşmış qeyri-hökumət təşkilatlarının Rusiya sülhməramlılarının müvəqqəti nəzarəti altında olan ərazilərdə faydalı qazıntı yataqlarının qanunsuz istismarı əleyhinə Şuşa–Xankəndi yolunda etiraz aksiyasının, guya, rəsmi Bakının Laçın yolunu bağlamaqla, Xankəndidəki ermənilərin Ermənistanla əlaqəsini kəsmək, erməniləri o ərazilərdən çıxarmaq məqsədinə xidmət etdiyini bildirmişdi. Hətta o, bir az da irəli gedərək, ölkəmizi erməni əhaliyə qarşı "soyqırımı" təhlükəsi yaratmaqda günahlandırmağa, Ukraynadakı proseslərlə paralellər aparmağa cəhd göstərmişdi.

Həmin vaxt iclasda iştirak edən Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Kamal Cəfərov çıxışında Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının, Avrasiya və Gömrük İttifaqlarının üzvü olan Ermənistanın nümayəndəsinin Ukrayna ilə paralellər aparmaq cəhdini ikiüzlülük adlandırmışdı. Deputat K.Cəfərov əsl həqiqətləri dilə gətirərək bildirmişdi ki, Azərbaycanın aidiyyati qurumları "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarına yerində baxış, qanunsuz istismarın dayandırılması, müxtəlif istiqamətlər üzrə, o cümlədən, ətraf mühitə dəyən zərərin monitorinqinin həyata keçirilməsi ilə bağlı həmin ərazidə müvəqqəti fəaliyyət göstərən rus sülhməramlılarına bildiriş verib. Daha sonra monitorinq günü həmin ərazidə cinayətkar-oliqarx Ruben Vardanyan (o zaman separatçı rejimdə "dövlət naziri" – red.) bir qrup erməni ilə təxribat törədib və monitorinqə mane olub. Rus sülhməramlıları bu təxribatın qarşısını ala bilməyib, yaxud almaq istəməyiblər.

Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin digər üzvü Erkin Qədirli isə çıxışında vurğulamışdı ki, Laçın yolu yeganə yol deyil, ondan daha geniş və sürətli yeni tikilmiş magistral yol var. Bu yolu Azərbaycan tərəfi tikib, ancaq ermənilər həmin yoldan istifadə etməkdən imtina edirlər. Onu da bildirək ki, erməni deputat V.Vardanyan qaldırdığı məsələ ilə bağlı AŞPA-nın Hüquq komitəsində qətnamə layihəsinin hazırlanmasını istəsə də, bunun prosedur qaydalarına zidd olduğu bildirilmiş və təklif rədd edilmişdi.

***

AŞPA-nın Azərbaycanla Ermənistan arasındakı münaqişəli duruma reaksiyası baxımından bir məqamı da diqqətə çatdırmağı vacib sayırıq. Bu ilin aprelində qurumun Azərbaycanın və Ermənistanın monitorinqi üzrə həmməruzəçiləri Yan Liddell-Qreyncer (Böyük Britanitya), Liz Kristoffersen (Norveç), Kimmo Kilyunen (Finlandiya), Boriana Oberq (İsveç) məhz Laçın yolundakı vəziyyətlə bağlı bəyanatla çıxış etmişdilər. Onlar Avropa İnsan Hüquqları Məhkəməsinin və Beynəlxalq Məhkəmənin Azərbaycan "Laçın yolu ilə hər iki istiqamətdə adamların, nəqliyyat vasitələrinin və yüklərin maneəsiz hərəkətinin təmin edilməsi üçün öz sərəncamında olan bütün tədbirləri görməlidir" qərarına istinad edərək, Laçın yolu boyunca hərəkət sərbəstliyini bərpa etməyə çağırmışdılar: "Biz Azərbaycan və Ermənistanı yüksək səviyyəli danışıqların təşkili ilə bağlı Avropa İttifaqının səylərini daha da çətinləşdirə biləcək istənilən birtərəfli addımlardan çəkinməyə çağırırıq. Biz sərhəd məsələləri üzrə danışıqları aktivləşdirməyə və bütün mübahisələrin sülh yolu ilə nizamlanmasına çağırırıq".

Göründüyü kimi, AŞPA-da Azərbaycana qarşı Laçın yolu müstəvisindəki qərəzli davranışlar davamlıdır. Yeri gəlmişkən, Avropa qurumları müstəvisində bu sayaq yolverilməz münasibətin kulminasiya nöqtəsi bu il yanvarın 18-də yaşanmışdı. Həmin gün Avropa Parlamentinin plenar iclasında "Dağlıq Qarabağda blokadanın humanitar nəticələri" mövzusunda müzakirə keçirilmiş və daha sonra qətnamə qəbul olunmuşdu. Qətnamədə Azərbaycandan Qarabağı Ermənistanla birləşdirən Laçın dəhlizini dərhal açmaq, Ermənistanla Qarabağ arasında nəqliyyat, energetika və kommunikasiya əlaqələrini pozmaqdan çəkinmək tələbi yer almışdı. Sənəddə Rusiya sülhməramlı kontingentinin fəaliyyətsizliyi tənqid olunmuş, BMT və ATƏT-ə faktların təsbiti, tərəfləri Helsinki Yekun Aktının prinsipləri əsasında sülh danışıqlarının bərpasına səsləmək üçün ora missiya göndərmək müraciəti öz əksini tapmışdı. Bundan "ilhamlanan" erməni tərəfi Laçın yolu məsələsini AŞPA-nın gündəliyinə çıxarmağa girişmişdilər. Belə ki, AŞPA Laçın yolunun blokadasının humanitar nəticələri ilə bağlı məsələni müzakirə etmək qərarına hələ o zamandan gəlmişdi. Biz prosesin hansı ardıcıllıqla getdiyini yuxarıda sadaladıq.

***Ə.RÜSTƏMOV, "Xalq qəzeti"***

# Qarabağdakı separatçı rejim amnistiya şansından üz döndərir

## *Nersisyanın sərsəmləməsinə sözardı*

**"Biz öz doğma torpağımızdayıq və bu gün ermənilərin yaşadıqları Qarabağ bölgəsi bizim əzəli, hüquqi torpağımızdır. Sadəcə olaraq, biz hesab edirik ki, onlar özləri başa düşəcəklər, özləri gəlib Azərbaycan Bayrağı altında yaşamağa addım atacaqlar. Biz bunu gözləyirik. Ona görə hər hansı bir başqa addım atmırıq və hesab edirəm ki, iki il yarım ərzində baş vermiş hadisələr artıq onları da oyatmalıdır, bu yuxudan, bu xülyadan ayıltmalıdır". Bu fikirləri Prezident İlham Əliyev bu il mayın 28-də Laçında öz dogma yurd-yuvasına qayıtmış əhali ilə görüşündə bildirdi.**



Dövlətimizin başçısının mövqeyinə görə, eyni zamanda Azərbaycan–Ermənistan sülh danışıqlarının gündəmdə olduğu hazırkı dövrə nəzərən, Qarabağdakı separatçı rejimin "dövlət naziri" oyuncaq postunu tutan Qurgen Nersisyanın Ermənistanın İctimai televiziyasına müsahibəsi maraq doğurmaya bilməz. Əlbəttə, marağı şərtləndirən Qarabağ ermənilərinin mövcud duruma obyektiv və rasional yanaşmasını görmək istəyidir. Yəni, gözləntimiz budur ki, rejimdəkilər də oyansınlar. Bəri başdan deyək ki, oyandıqlarına dair hansısa nişanə yoxdur. Deməli, gözləntimiz özünü doğrultmur.

Beləliklə, Nersisyan bildirir ki, qondarma hakimiyyət "Artsax-Azərbaycan təmaslarına qarşı deyil". Tamamilə qəbuledilməz mahiyyət daşıyan yalnız bu ifadə ilə əlaqədar üç məqamı vurğulamaq yerinə düşər. Birincisi, separatçıların əslində Qarabağ ermənilərini buxovda saxlamaları. Təxminən belə: biz etiraz etmirik, kim istəyirsə, gedib Azərbaycanla danışıq aparsın. Nersisyan belə demək mümkünsə, diplomatik destruktivliyə baş vurur. İkincisi, onun deyimində Qarabağ ermənilərini ayrıca tərəf kimi göstərmək cəhdi aşkardır. Üçüncüsü, Nersisyan Bakı ilə deyil, Azərbaycanla dialoq məntiqini qabardır ki, bu da onun Qarabağı nəinki ayrıca tərəf, hətta ayrıca dövlət quruluşu kimi görmək niyyətindən irəli gələn nüansdır.

Nersisyan bildirir ki, "Artsax xalqı"-nın hüquqlarından danışarkən, xalqın öz müqəddəratını təyinetmə hüququnu nəzərdə tutmayan insanlar, hakimiyyət orqanları və ya beynəlxalq aktorlarla razılaşmır. Buradan da belə çıxır ki, o, bir qədər əvvəl haqqında söz açdığı təması "Artsax dövləti"nin Azərbaycanla əlaqəsi kimi görürmüş. Ortada belə səfeh yanaşma var. Görünür, problem "dövlət naziri" oyuncaq postundadır. Nersisyan özündən əvvəl bu "vəzifə"ni tutmuş Ruben Vardanyandan heç nə ilə fərqlənmir. Halbuki, o, iş başına keçməzdən əvvəl belə fikirlər dolaşırdı ki, Qarabağ ermənilərini, necə deyərlər, qəflət yuxusundan oyatmağa gəlib. Ancaq məlum olur ki, Qurgen özü dərin yuxudadır. Bu gedişlə onu oyatmaq üçün Azərbaycan əsgərinin çəkməsinə ehtiyac duyulacaqdır. Digər oyatma üsulları fayda verənə oxşamır.

Nersisyanın həyasızlığına bax ki, az əvvəl haqqında söz açdığımız dialoqdan danışarkən, şərt də qoymağı yaddan çıxarmır. Bildirir ki, danışıqlar zamanı tərəflər hüquqlarını beynəlxalq normalara uyğun həyata keçirmək imkanı verən beynəlxalq mexanizmlərlə təmin edilməli və qorunmalıdırlar, zəmanətlər isə inandırıcı və etibarlı olmalıdır.

Göründüyü kimi, Nersisyan da erməni avantürizminin psixi xəstəlik daşıyıcılarının təmsilçilərindən biridir. Deməli, beynəlxalq ictimaiyyət yığışıb Qarabağ erməniləri üçün ayrıca mexanizm tapmalıdır?! Bəlkə, dünya işini-gücünü atıb dövlətin öz tərkibindəki qeyri millətdən olan əhali ilə münasibətinə dair xüsusi layihə işləsin?! Hər halda, mövcud istiqamətdə yanaşmalar və öhdəliklər var. Həmin öhdəliklər Azərbaycana şamil olunduğu kimi, ABŞ-a da aiddir, digərlərinə də. Amma görünür, Nersisyan separatçı xislətinə uyğun şəkildə özündən Amerika kəşf etmək xülyasına düşüb. Düşsün, görək, nə vaxtadək düşəcək…

Əslində, Nersisyanın "Qarabağ ermənilərinin müqəddəratı" məsələsini dilə gətirib fikir bildirməsi absurddur. Belə çıxır ki, onun nəzərində tutduğu Azərbaycanla dialoqun mövzusu məhz müqəddəratın təyini olmalıdır. Hər halda, separatçıların həyasızlıq fantaziyaları bitib-tükənmək bilmir və Nersisyan da bu baxımdan enerji sərf edənlərdəndir. Qarabağ erməniləri müqəddarat istəyəcək, Azərbaycan da onlarla danışıq aparacaq?! Yaxud Qarabağ erməniləri müqəddarat illüziyasına qapılacaq, Bakı isə onlara yardım göstərəcək ki, bu illüziya üçün dizlərindən təpər tapsınlar?!

Q.Nersisyan onu da bildirir ki, müasir beynəlxalq münasibətlərdə 120 min insanın aclığı, işgəncəyə məruz qalması, sonra da onlara ac qalmaq və əziyyət çəkməmək üçün danışıqlara getməli olduğunun bildirilməsi, vəhşilik və terrorizm kimi qiymətləndirilməlidir. Əlbəttə, "dövlət naziri" haqqında danışdığı və təfərrüatlarını şişirtdiyi durumu yaradan tərəfin özünün də təmsil olunduğu qurama hakimiyyətin olduğunu bildirə bilməz. Problem bundadır ki, istər Nersisyan, istərsə də başqa avantüristlər məsələnin qoyuluşundakı müxtəlifliyi bütün dünyanın qəbul etdiyinin fərqində olmayacaq qədər iflic durumdadırlar. Mövcud anlamda onun Qarabağ ermənilərinin blokadada yaşamalarına, Azərbaycanın onlara güc tətbiq etdiyinə dair fikirləri yalnız manipulyasiyadır. Erməni əhalinin qaz və enerji təchizatından, lazımi tibbi yardım almaq imkanından məhrum duruma düşməsi ilə bağlı səsləndirdikləri də, həmçinin.

Ancaq Nersisyan bir məqamda haqlıdır. O bildirir ki, Qarabağ ermənilərinin hüquqlarının müdafiəsi indiki kimi görünürsə, o zaman etibarlı və inandırıcı təhlükəsizlik təminatları yoxdur. Həqiqətən də, "dövlət naziri"nin dediyi kimi, bu gün bölgənin erməni əhalisi təhlükəsizlik mühitinə malik deyil. Çünki Qurgenin də tərkibində yer aldığı separatçı rejim mövcuddur.

Əlbəttə, Q.Nersisyanın fikirlərinə önəm verməyib üzərindən keçmək olardı. Nəhayət, o da digər separatçıların vaxtilə işlətdikləri fikirləri bir qədər fərqli formada dilə gətirməkdən başqa nə isə etmir. Məsələ bundadır ki, o, bu amplusında faktiki olaraq, Azərbaycan–Ermənistan danışıqlarının hazırkı axarını təhdid edən ünsürdür.

Digər tərəfdən, Azərbaycanın Qarabağ erməniləri ilə bağlı baxışı kifayət qədər aydındır. O da aydındır ki, Bakı öz baxışına zidd heç bir təmayülü qəbul etməyəcəkdir. İndiki halda ölkəmizin Prezident İlham Əliyevin şəxsində Qarabağ ermənilərinə, eləcə də separatçı rejimin təmsilçilərinə verə biləcəyi bir şey var ki, o da şansdır. Dövlətimizin başçısı Laçında yerli əhali ilə görüşündə bundan da söz açmışdı. Cənab İlham Əliyevin nə söylədiyini yada salmaqla, Nersisyan də daxil olmaqla, Qarabağdakı bütün separatçıların aqibətlərini düşünək: "Ona görə ki, biz haqlıyıq və ona görə ki, biz mövqeyimizdən kənara bir addım belə atmırıq. Ona görə bu gün nə müstəqillikdən, nə muxtariyyətdən, nə başqa bir şeydən heç kim artıq söhbət açmır. Sadəcə olaraq, bizə gələn son mesajlar belədir ki, bəs orada dırnaqarası rəhbərliyin aqibəti necə olacaq? Onlara amnistiya düşürmü, düşmürmü? Mən isə deyirəm ki, buna baxmaq lazımdır. Birincisi, biz oraya heyət göndərmişdik. Mənim nümayəndəm gedib onlarla birinci görüş keçirib və ondan sonra onları dəvət etmişik Bakıya ki, gəlin danışaq. Onlar bundan imtina etdilər. Bundan sonra ikinci dəfə biz onları dəvət etmişik Bakıya. Yəni, Qarabağda yaşayan erməni azlığının nümayəndələrini. Ondan da imtina etdilər. Daha üçüncü dəvət olmayacaq. Ya özləri boyunlarını büküb gələcəklər, ya da ki, indi hadisələr başqa cür inkişaf edəcək. Ona görə onlara ancaq o halda amnistiya düşə bilər ki, özləri könüllü olaraq bütün saxta vəzifələrini kənara qoyub Azərbaycan vətəndaşlığı üçün müraciət etsinlər. Ona da biz hələ baxacağıq. Mənim sözüm qətidir, bunu hər kəs bilir, həm Azərbaycanda, həm dünyada, o cümlədən, Ermənistanda. Nəyi deyiriksə, onu da edirik. Bir dənə də olsun sözümüz, necə deyərlər, havada qalmayıb, bu söz də havada qalmayacaq. Əgər mən deyirəmsə ki, amnistiyaya baxmaq olar, bu fürsəti də qaçırmasınlar. Onlar bir çox fürsətləri qaçırıblar, bir çox fürsətləri və hər dəfə, necə deyərlər, gərək onların başından vuraydıq ki, özlərinə gəlsinlər".

***Ə.CAHANGİROĞLU, "Xalq qəzeti"***

# 49 il əvvəl bu gün

*(əvvəli 1-ci səhifədə)*

Heydər Əliyev buna qədər görülmüş işlərin respublikanın imkanlarına heç də uyğun gəlmədiyini bildirərək qeyd etmişdi ki, məhz bu səbəbdən bədən tərbiyəsi və idmanı daha da inkişaf etdirmək tədbirləri məsələsini partiya fəalları yığıncağının müzakirəsinə çıxarmaq zərurəti yaranmışdır.

Hadisələrin sonrakı gedişi, yığıncağın qəbul etdiyi qərarların təxirəsalınmaz şəkildə həyata keçirilməsi göstərdi ki, vəziyyətin yaxşılaşdırılması işində ciddi dönüş yaranmağa başlayır. Bununla da idman ictimaiyyətimiz əmin oldu ki, həmin yüksək səviyyəli tədbir vaxtında atılmış addımdır. Bu isə belə bir qənaətə gəlməyə əsas verirdi ki, partiya fəalları yığıncağı tarixin səhifələrinə Azərbaycanda idmanın inkişafına çoxdan ehtiyac duyulan, bu mühüm işə güclü təkan verən toplantı kimi daxil olmuşdur.

Məhz həmin gündən sonra respublikamızın bütün bədən tərbiyəsi və idman təşkilatlarının öz işlərini yenidən, günün tələbləri səviyyəsində qurub, fəaliyyətlərini canlandırmaları, respublika rəhbərinin qeyd etdiyi bütün sahələrdə işin yüksək keyfiyyətlə yerinə yetirilməsi üçün qüvvə və bacarıqlarını səfərbərliyə almaları yığıncağın müəyyənləşdirdiyi istiqamətlərdə mühüm məqamlar idi.

Fiziki hazırlığı yüksəltməkdə, sağlamlığı möhkəmləndirməkdə, nəcib keyfiyyətlərə yiyələnməkdə gənclərin yaxın köməkçisi olan bədən tərbiyəsi və idmanın müstəsna əhəmiyyətini qeyd edən Heydər Əliyev məşğələlərin müntəzəmliyini və kütləvi hal almasının vacibliyini ön plana çəkib bildirirdi ki, ümumittifaq yarışlarında və beynəlxalq turnirlərdə yüksək nəticələr əldə etməyə qadir olan idman ustalarını yalnız bunun əsasında hazırlamaq mümkündür.

Azərbaycan rəhbəri fəallar yığıncağındakı nitqində təkcə Bakıya ümüd bəsləməyib, digər şəhər və rayonlarda da bədən tərbiyəsi və idman hərəkatının problemlərinə, bu hərəkatın inkişaf etdirilməsinə diqqəti artırmaq zərurətini xüsusi vurğulamış, bunsuz sabit uğurlar qazanmağın mümkün olmadığını nəzərə çatdırmışdı.

Heydər Əliyev nitqində məktəb idmanı, qadınların fəal bədən tərbiyəsi və idman məşğələlərinə cəlb edilməsi, məşğələlər üçün lazımi şərait yaradılması, bu məqsədlə sadə idman meydanları ilə yanaşı, iri bazalar inşa edilməsi vacibliyi üzərində dayanmış, beləliklə də, bədən tərbiyəsi və idmanın bütün sahələrini əhatə etmişdi.

Heydər Əliyevin respublikaya rəhbərliyinin beşinci ilində göstərdiyi təşəbbüs tezliklə müsbət dəyişikliklərə, yaxşı nəticələrə yol açan çox inamlı addım idi. Əgər statistikaya müraciət edib, fəallar yığıncağından sonra nə qədər idman meydançası, salonu yaradıldığını, yerlərdə neçə-neçə şahmat məktəbi və digər idman qurğuları açıldığını öyrənmək istəsək, kifayət qədər sanballı rəqəmlər görərik.

Hazırda Azərbaycanda sayı 50-yə çatan müasir Olimpiya İdman Kompleksinin, demək olar, bütün şəhər və rayonlarımızda şahmat məktəblərinin fəaliyyət göstərməsi, digər idman qurğularının inşası əhaliyə asudə vaxtını səmərəli keçirmək, yaranmış imkanlardan geniş istifadə etmək, bədən tərbiyəsi və idman məşğələlərini həyat tərzinə çevirmək, ən yaxşı idmançılara isə ustalıqlarını və nəticələrini getdikcə artırıb, beynəlxalq yarışlarda ölkəmizin şərəfini layiqincə qorumaq imkanı verir.

Qırx doqquz il əvvəl baş tutmuş tarixi yığıncaqdan cəmi iki il sonra, 1976-cı ildə Azərbaycan idmanının üç görkəmli yetirməsi, sonralar voleybol əfsanəsinə çevrilən İnna Rıskal, həndbol ustaları Rəfiqə Şabanova və Lyudmila Şubinanın SSRİ yığma komandaları heyətində Kanadanın Monreal şəhərində keçirilmiş XXI Yay Olimpiya Oyunlarından respublikamıza medallarla qayıtmaları xalqımıza böyük şöhrət gətirən nailiyyət idi. Olimpiada qəhrəmanlarımız Bakıya qayıtdıqdan sonra Heydər Əliyevin onları qəbul edib, Şabanova və Şubinanın olimpiya çempionluğunu, Rıskalın gümüş mükafatını yüksək qiymətləndirməsi bütün idman ictimaiyyətimizin ürəyincə oldu. Zarafat deyildi, dünyanın ən möhtəşəm idman bayramından respublikamıza birdən-birə 2 qızıl və 1 gümüş medal gətirilmişdi!

Rıskal, Şabanova və Şubinanın Monreal zəfərindən sonra respublikamızda qızların voleybol və həndbola, elə idmanın digər növlərinə də marağı daha da artdı, beynəlxalq yarışlarda yüksək nəticələrə nail ola biləcək yeni istedadlar meydana çıxdı, Avropa və dünya çempionatlarında, Olimpiya oyunlarında fəxri kürsüdə medal və təbrikləri qəbul edənlər sırasında qadın təmsilçilərimiz də alqışlandılar.

Ötən əsrin ikinci yarısında, xüsusən də əsrin son iyirmi beş ilində Azərbaycanda idmanın inkişafında və uğurlarında böyük xidmətləri ilə yadda qalmış qadınlar az olmamışdır: coşğun idman həyatı hələ 1930-cu illərdən başlamış və fəaliyyətini Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda (indiki akademiyada) müəllim kimi başa vurmuş Zeynəb Rzayeva, yüngül atletikada dünya rekordçusu, 1964-cü il SSRİ çempionatının qızıl medalçısı Ziba Ələsgərova, sambo üzrə dəfələrlə dünya çempionu Zülfiyyə Hüseynova, voleybol ustaları İnna Rıskal, Vera Lantratova, Alla Həsənova, Azərbaycan şahmat məktəbinin məşhur yetirmələri Aynur Sofiyeva, Firuzə Vəlixanlı, İlahə Qədimova, xokkeyçi Zeynəb Nuriyeva, olimpiya çempionu, stend atıcısı Zenfira Meftahətdinova, olimpiya mükafatçısı, güllə atıcısı İradə Aşumova, respublikamızda ilk qadın idman jurnalisti, bir çox il ərzində "İdman" – "Sport" qəzetlərinin əməkdaşı olmuş, sonra da fəaliyyətini "Bakinski raboçi"də davam etdirmiş Xədicə Orduxanova və bir çox başqaları Azərbaycanın idman həyatında yüksək fəallıq göstərmişlər.

İyirminci əsrin səksəninci illərinin əvvəllərinə təsadüf etmiş Qazax–Bakı marşrutu üzrə atçılıq yürüşü də heyrətamiz hadisə idi. Onun şahidi kimi deyə bilərəm ki, qeyri-adi yürüş izlədik. Tədbirin təşkilatçısı, Əməkdar məşqçi, respublikada atçılıq idmanının, bəlkə də, ən fəal təbliğatçısı olmuş Fikrət Hüseynovun təşəbbüsü və yüksək təşkilatçılıq bacarığı yaxşı nəticə vermişdi. Marşrutun keçdiyi hər yerdə – Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gəncə, Qasım İsmayılov (indi Goranboy), İsmayıllı, Göyçay, Şamaxı və digər rayonlarda insanlar çaparları gül-çiçəklə, alqışlarla qarşılayır, qədim ənənələrimizi yaşatdıqlarına görə onlara minnətdarlıqlarını bildirirdilər. Respublikanın idman həyatında tarixi yürüş uğurla başa çatmışdı. Təşkilatçılardan böyük zəhmət, iştirakçılardan isə möhkəm iradə, dözümlülük, fədakarlıq tələb edən bu yürüşün keçirilib-keçirilməməsi üçün uzun müddət düşünmək, hər şeyi ciddi şəkildə götür-qoy etmək lazım gəlmişdi. Respublika partiya fəalları yığıncağının qarşıya qoyduğu vəzifələr idman təşkilatlarımızı böyük işlərə səfərbər etmişdi və həyata keçirilən tədbirlər öz bəhrəsini verirdi.

Heydər Əliyevin bədən tərbiyəsi və idmana daimi qayğısı Azərbaycanda sağlam gənc nəsil yetişməsi və mahir ustalar hazırlanması işinə güclü təkan verdi. Ümummilli liderin respublikamıza rəhbərliyinin ikinci dövründə, təxminən 1990-cı illərin ikinci yarısında söylədiyi bir fikir isə idman ictimaiyyətimizi daha da ruhlandırdı: " Azərbaycan Prezidenti kimi, şəxsən, mən söz vermişəm və indi də bunu təsdiq edirəm ki, idmana xüsusi qayğını öz üzərimə götürmüşəm və əmin ola bilərsiniz ki, bu qayğını daim hiss edəcəksiniz ".

Bu gün müstəqil dövlət olan Azərbaycanın dünya birliyinin bərabərhüquqlu üzvü kimi beynəlxalq miqyasda ölkəmizin imkanlarını və qüdrətini inamla nümayiş etdirməsi, ümumdünya idmançılar ailəsində layiqli yer tutması Heydər Əliyevin müdrik siyasəti və yorulmaz fəaliyyəti sayəsində mümkün olmuşdur. Dünya respublikamızı bədən tərbiyəsi və idmanın dövlətin daimi qayğısı ilə əhatə olunduğu, olimpiya idman kompleksləri tikintisinin geniş vüsət aldığı, idman və olimpiya hərəkatımızın başqalarına nümunə göstərildiyi bir ölkə kimi tanıyır. Bu, təsadüfi deyil. Respublika partiya fəalları yığıncağında bədən tərbiyəsi və idmanın daim diqqət mərkəzində saxlanılması zərurətini xüsusi vurğulayan ümummilli lider ömrünün sonunadək idmançılarımızın ən yaxın dostu oldu. Onun rəhbərliyi ilə yarım əsr əvvəl Azərbaycanda bədən tərbiyəsi və idmanın sürətli inkişafına dəqiq istiqamət verilməsi bu sahədə zəngin ənənələr yaranmasına geniş imkanlar açdı.



İndi ölkəmizin bütün guşələrində, o cümlədən, erməni işğalından azad edilmiş ərazilərimizdə yarışlar bir-birini əvəz edir. Bu yaxınlarda finişə çatmış Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən "Əziz Şuşa" beynəlxalq velosiped yürüşü də belə tədbirlərdən biri idi. Yarışın bütün iştirakçıları, o cümlədən, İtaliya, Belçika, Rumıniya, Niderland, Qazaxıstan təmsilçiləri öz ölkələrinə yüksək təşkilatçılıq səviyyəsində keçirilən yürüş və respublikamızda onlara göstərilən qonaqpərvərlik haqqında xoş xatirələrlə qayıtmışlar.

Yarım əsr əvvəl Azərbaycanın rəhbəri Heydər Əliyevin müdrik təşəbbüsü ilə keçirilmiş və respublikada idmanın sürətli inkişafına güclü təkan vermiş partiya fəalları yığıncağı idman tariximizdə unudulmaz hadisədir. Ulu öndərin 100 illik yubileyini geniş qeyd etdiyimiz 2023-cü ildə 1974-cü ildən başlayan uğurlarla zəngin yolu xatırlamağımız da görkəmli şəxsiyyətin Azərbaycan üçün gördüyü böyük işlərə hörmət və ehtiramımızın ifadəsidir.

Həmin sürətli inkişaf bu gün də inamla davam etdirilir. Estafet etibarlı əllərdədir. Dövlət başçımız, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin də bədən tərbiyəsi və idman məşğələlərinə böyük sevgisi hamıya, o cümlədən, beynəlxalq aləmə yaxşı məlumdur.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

**Azərbaycan Respublikası Dövlət Neft Fondunda (ARDNF) ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə Ulu öndərin əziz xatirəsi yad edilib.**

## ARDNF-də Ümummilli liderin anadan olmasının 100 illiyi qeyd edilib



Sonra çıxış edən ARDNF-nin İcraçı direktoru İsrafil Məmmədov bugünkü müstəqil, qüdrətli və demokratik Azərbaycan Respublikasının dahi lideri Heydər Əliyevin şah əsəri olduğunu qeyd edib, Azərbaycan xalqının müasir dövlətçilik tarixinin formalaşmasında, inkişafında Ulu öndərin misilsiz rolundan və xidmətlərindən söz açıb. İcraçı direktor bildirib ki, ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş strategiya ölkə iqtisadiyyatının inkişafına, mövcud resursların səmərəli istifadəsinə, dünya iqtisadiyyatına inteqrasiyaya və nəticə etibarilə vətəndaşların rifah halının yüksəldilməsinə xidmət edib. İsrafil Məmmədov əlavə edib ki, neft və qazın satışından əldə edilən valyuta daxilolmalarının toplanması və səmərəli idarə edilməsi məqsədilə Prezident İlham Əliyevin təklifi ilə 1999-cu ildə ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş Dövlət Neft Fondu bu milli inkişaf strategiyasını dəstəkləyərək, xalqımızın bugünkü və gələcək nəsillərinə xidmət edəcək.

Tədbirə, həmçinin müstəqil Azərbaycanın ilk Baş naziri və sabiq xarici işlər naziri Həsən Həsənov qonaq qismində dəvət edilib. ARDNF-nin İcraçı direktorunun müşaviri Nərgiz Nəsrullayeva-Müdüroğlu ilə birgə müsahibə formatında baş tutan söhbətdə Həsən Həsənov Ulu öndərin xidmətləri barədə çıxış edib, dahi şəxsiyyət haqqında fikir və xatirələrini bölüşüb. Həsən Həsənov ümummilli liderin xalqımızın milli kimliyinin və düşüncəsinin formalaşmasında əvəzsiz rolunu xüsusilə vurğulayıb.

## “Heydər Əliyev və Azərbaycan təbiəti”

**Azərbaycan Milli Elmlər Akademiyası, Elm və Təhsil Nazirliyi və ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunan “Heydər Əliyev və Azərbaycan təbiəti” mövzusunda beynəlxalq konfrans öz işinə başlayıb.**



Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda təşkil olunan tədbirdən öncə iştirakçılar ulu öndər Heydər Əliyevə həsr olunan sərgi ilə tanış olublar. Daha sonra “Heydər Əliyev və Azərbaycan təbiəti” mövzusunda videoçarx nümayiş etdirilib.

Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Ümummilli liderin təbiət sahəsinin inkişafına hər zaman böyük önəm verdiyini bildirib. Akademik İsa Həbibbəyli qeyd edib ki, bu gün Azərbaycanın bir çox regionlarının dilbər guşələrə çevrilməsinin, yaşıllıq sahələrinin artmasının əsas səbəbi Ulu öndərin həm sovet hakimiyyəti illərində, həm də müstəqillik illərində yaşıllaşdırma hərəkatına geniş yer ayırması ilə bağlıdır.

1970-ci illərdə molekulyar biologiya istiqamətinin yeni yaranmaqda olduğunu söyləyən AMEA rəhbəri məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda xarici ölkə alimlərinin iştirakı ilə bu istiqamətə həsr olunmuş beynəlxalq konfransın keçirildiyini və respublikamızda molekulyar biologiya istiqamətinin qısa zamanda inkişaf etməyə başladığını deyib.

Alim diqqətə çatdırıb ki, Ümummilli liderin dünya elminin nailiyyətlərini Azərbaycana gətirmək, Azərbaycanda kənd təsərrüfatı, əkinçilik ənənələrini bərpa etmək istiqamətində atdığı addımlar, verdiyi tapşıqlar bu sahələrin inkişafında mühüm rol oynayıb.

Çıxışının sonunda akademik İsa Həbibbəyli Ulu öndərimizin müdrik siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin təbiətə dövlət qayğısını, biomüxtəlifliyin qorunmasını daim diqqət mərkəzində saxladığını söyləyib, dövlət başçısına bu istiqamətdə həyata keçirdiyi məqsədyönlü siyasətə görə Azərbaycan alimləri adından minnətdarlığını bildirib.

Konfransda çıxış edən ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva, kənd təsərrüfatı nazirinin müavini, texnika elmləri doktoru, professor Elçin Zeynalov, Elm və Təhsil Nazirliyinin nümayəndəsi Samir Həmidov, Bakı Dövlət Universitetinin Botanika və bitki fiziologiyası kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Elşad Qurbanov, Vəhşi Təbiəti Mühafizə Fondunun Azərbaycan ofisinin rəhbəri Elşad Əsgərov, Kembric şəhərində yerləşən Tibbi Tədqiqatlar Şurasının Molekulyar Biologiya İnstitutunun Hesablama struktur biologiyası qrupunun rəhbəri, ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun Hesablama struktur biologiyası beynəlxalq laboratoriyasının müdiri, professor Qərib Mürşüdov Azərbaycanın ətraf mühitin qorunması, ekoloji və bioloji təhlükəsizliyin təmin edilməsi də daxil olmaqla bütün istiqamətlərdə Ümummilli liderin əsasını qoyduğu və Prezident İlham Əliyevin uğurla davam və inkişaf etdirdiyi siyasi kursu tam dəstəklədiklərini bildiriblər.

Daha sonda çıxış edən AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova ölkəmizdə molekulyar biologiya elminin inkişafı istiqamətində görülən işlərdən danışıb. O, Ulu öndərin rəhbərliyi dövründə gənc kadrların bu istiqamətdə təhsil almaq üçün dünyanın aparıcı universitetlərinə göndərildiyini xatırladıb. Akademik İradə Hüseynova bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin molekulyar biologiya sahəsi üzrə dövlət proqramları qəbul etdiyini, bu istiqamətdə artıq bakalavr hazırlığının həyata keçirildiyini vurğulayıb.

Konfrans işini bölmə iclasları ilə davam etdirib. İclaslarda mövzu ətrafında məruzələr dinlənilib, müzakirələr aparılıb.

***Qabil YUSİFOĞLU,***
***“Xalq qəzeti”***

# Paşinyanın “günah keçisi”

## Baş nazir açdı sandığı, tökdü pambığı

**Ermənistanın baş naziri Nikol Paşinyan ölkənin 44 günlük müharibə şəraitinin öyrənilməsi üzrə istintaq komissiyasının iclasındakı çıxışında özündən əvvəlki Ermənistan iqtidarını, xüsusən də ikinci prezident Robert Koçaryanı sərt tənqid edib. Əslində, Nikolun ittihamlarına diqqət yetirəndə, onun Qarabağın Azərbaycana məxsusluğunu bildirən bəyanatlarının səmimiyyətdən uzaqlığını görmək mümkündür. Tam aydın olur ki, Paşinyan yalnız Azərbaycanın gücü ilə hesablaşdığından belə deyir. Bu barədə yazının sonunda bildirəcəyik. Hələlik isə baş nazirin iclasda nə dediklərinə diqqət yetirək.**

Bəli, Paşinyan bildirib ki, Ermənistanın ikinci prezidenti Robert Koçaryan hakimiyyətinin ilk günlərindən Azərbaycanla bağlı qapılar arxasında danışıqlar aparıb və bu danışıqlarda Qarabağın Azərbaycanın tərkibindəki statusunu məqbul hesab edib. N.Paşinyanın sözlərinə görə, Ermənistan hakimiyyətinin danışıqlar prosesindəki bu mövqeyi geniş əhali üçün əlçatmaz olan sənədlərdə əksini tapıb. İctimai bəyanatlar və dövlət təbliğatı səviyyəsində isə tamam fərqli məsələlər gündəmə gətirilib. Həmin dövrdə Ermənistan telekanalları Qarabağın və yeddi rayonun vahid xəritəsini göstərməyə başlayıb. Oxşar xəritələr ictimai yerlərdə, hətta dövlət qurumlarında da asılıb. “Bu, yeddi rayonun Azərbaycana qaytarılmaması variantının nəzərdə tutulmadığı şəraitdə baş verib”, – deyən baş nazir əlavə edib ki, ümumən danışıqların heç bir mərhələsində Qarabağa aidiyyatı olmayan rayonların Azərbaycana qaytarılmaması kimi məqam yer almayıb.

N.Paşinyan bildirib ki, Azərbaycanla Ermənistan arasında danışıqlar gedə-gedə yeddi rayonun erməni toponimləri dövriyyəyə buraxılıb. Füzuli Varanda, Ağdam Akna, Qubadlı Sanasar, Zəngilan Kövsəkan, Cəbrayıl Mehakavan, Kəlbəcər Karvaçar, Laçın Kaştağ adlandırılıb. “Beləliklə, birinci prezident Levon Ter-Petrosyanın ifadəsi ilə “ələ keçirilən” və keçmiş xarici işlər naziri Vardan Oskanyanın dili ilə “işğal edilmiş” ərazilər (bunlar onların açıq şəkildə ifadə edilmiş formalarıdır – Paşinyan) “azad edilmiş” ərazilər kimi vətən sayılmağa başlanıb”, – deyən baş nazir bir daha vurğulayıb ki, bütün bunlar yalnız televiziya ekranlarında baş verib. Danışıqlar isə Azərbaycan toponimlərindən istifadə olunmaqda davam edib, vətən elan edilən əraziləri alaq otları basıb, bəzi hallarda generallar hərbi qulluqçuların əməyindən istifadə edərək, oraya buğda əkiblər.

N.Paşinyan Ermənistanda hakimiyyət nümayəndələrinin bəyan etdikləri və Qarabağın Azərbaycanın ərazi bütövlüyü ilə guya, heç bir əlaqəsinin olmadığına, ərazinin 1991-ci ildə referendum yolu ilə Azərbaycan SSR-dən ayrıldığına və müstəqillik qazandığına dair fikirlərə də münasibət bildirib. Deyib ki, ölkəsinin o zamankı iqtidarı Qarabağın statusu ilə bağlı referendumun keçirilməsini nəzərdə tutan Madrid prinsipləri ilə razılaşdığı üçün 1991-ci il referendumunun nəticələrinin əhəmiyyəti və legitimliyi şübhə altına düşüb. Paşinyan əvvəllər olduğu kimi, yenə də təkrarlayıb ki, Ermənistan hakimiyyəti vaxtilə sözügedən prinsipləri qəbul etməklə, Qarabağın Azərbaycanın bir hissəsi olması ilə razılaşıb.



Baş nazir Paşinyan Ermənistanın ikinci prezidenti Koçaryanı Qarabağı danışıqlarda iştirak imkanından məhrum etməkdə də günahlandırıb. “Koçaryan Qarabağı istənilən müstəqillikdən məhrum etdi və Qarabağ xalqının iradəsini pozdu. Üstəlik, o, bölgəni beynəlxalq səviyyədə tanınma statusundan da məhrum etdi”, – deyən Nikol onu da bildirib ki, nəticədə Qarabağ Rusiya, ABŞ, Fransa, Azərbaycan və Ermənistanla eyni masada təmsilçilikdən uzaq düşüb: “Bu, Qarabağın beynəlxalq subyektiv olmasının sonu idi”.

Paşinyan Koçaryanı 1998-ci il prezident seçkilərində saxtakarlıqla hakimiyyətə yiyələnməkdə və qeyri-legitim olaraq dövlət başçısı postunu tutmaqda da ittiham edib. Çünki həmin vaxt qüvvədə olan qanunvericiliyə görə, onun prezidentliyə namizədliyini irəli sürmək hüququ yox idi. Ən əsası isə Nikolun sözlərinə görə, ikinci prezident Qarabağın beynəlxalq səviyyədə tanınma və legitimlik əldə etmək şanslarını dünya ictimaiyyətinin Ermənistanda hakimiyyətin qəsb edilməsinə göz yumması üçün qurban verib.

Əvvəlcə bildirdik ki, Paşinyanın 44 günlük müharibə şəraitinin öyrənilməsi üzrə istintaq komissiyasının iclasında səsləndirdikləri, onun Azərbaycanın gücü ilə hesablaşmasının nəticəsidir. Bu məqamı heç də əbəs yerə vurğulamadıq. Çünki Nikol hazırda 44 günlük müharibəyə görə sanki “günah keçisi” axtarışındadır. Və o keçi qismində ikinci prezident R.Koçaryanın timsalında özündən əvvəlki iqtidara yüklənmiş durumdadır. Əlbəttə, əli Azərbaycan xalqının qanına batmış Koçaryan da, ondan sonrakı prezident Serj Sarkisyan da cinayətkardır, bunlar öz yerində.

Nikolun dünənki çıxışındakı qeyri-səmimilik isə bundadır ki, o, Qarabağın yalnız əvvəlki hakimiyyətin səhvi səbəbindən, belə demək mümkünsə, əldən çıxdığı düşüncəsindədir. Yəni, Paşinyan üçün bölgənin əbədi və əzəli Azərbaycan torpağı olması məntiqi yaddır. Deməli, o, Azərbaycanın gücü qarşısında acizdir və dünənki çıxışı da, əslində, aciz liderin cılız manifestindən başqa bir şey deyil.

Axı, “Qarabağ Ermənistandır –nöqtə” bəyanatını verən, “yeni ərazilər uğrunda yeni müharibə” şüarını irəli sürən nə Koçaryan idi, nə də Sarkisyan. Bunu Paşinyan etmişdi. Baş nazirin hazırda söylədiklərindən belə nəticə doğur ki, o, hakimiyyətə yiyələnəndə də indi dilə gətirdiyi qənaətə gələrək, görüb ki, Qarabağın, o cümlədən, digər Azərbaycan torpaqlarının Ermənistana məxsusluğu ilə bağlı şans qalmayıb. Buna görə özünün inqilabi demokratiyanın qladiatoru kimi zənn edib, koçaryanların və sarkisyanların tülkülüklə dalana dirədikləri danışıqlar prosesinə kökündən zərbə vurub. Nəticədə Ermənistan üçün böyük rüsvayçılıqla bitmiş müharibə qaçılmaza çevrilib.

Söhbət “günah keçisi”ndən düşmüşkən, sonda onu da vurğulayaq ki, Paşinyan 44 günlük müharibə şəraitinin öyrənilməsi üzrə istintaq komissiyasının iclasının qapalı yox, açıq şəkildə keçirilməsini istəyib. Yəni, özü bütün suallara açıq cavab verməyi vacib sayıb. Bu da təsadüfi deyil. Nikol yaxşı başa düşür ki, Qarabağ da daxil olmaqla, Azərbaycanın 86,6 min kvadratkilometr ərazidə suverliyini tanıması ona qarşı ciddi təzyiqlər doğurub. Buna görə çalışır ki, müharibə və Qarabağ danışıqları ilə bağlı bütün detalları açıqlasın və həmin təzyiqləri özündən uzaqlaşdırsın. Beləliklə də hakimiyyətini saxlamaq üçün mənəvi immunitet qazansın. Bunu bacaracaqmı? Əlahəzrət zaman göstərəcək. Hələlik isə Nikol keçmişdə eşələnməyində olsun. Nəzərə alaq ki, eşələnmək üçün yaxşı şərait də var. Çünki 44 günlük müharibə şəraitinin öyrənilməsi üzrə istintaq komissiyası iclasını iyulun 27-də davam etdirəcək.

***R.ƏVƏZ, “Xalq qəzeti”***

# “Markusun əzabları”, yaxud “sirli missiya”

(əvvəli 3-cü səhifədə)

### “Müharibədən zərər görən” erməni kəndləri

Ritter müsahibəsində məqsədlərinin “müharibədən zərər görmüş kəndlərdə” patrul xidməti həyata keçirmək, orada yaşayan insanların sağlamlığı, əhval-ruhiyyəsi və s. ilə bağlı qeydləri Brüsselə təqdim etməkdən ibarət olduğunu bildirib. Missiya rəhbəri bu yerdə “müharibədən zərər görmüş kəndlər” ifadəsini işlətməklə yenə yalana əl atıb. Xatırladaq ki, missiya Azərbaycan–Ermənistan sərhədində reallaşsa da, Ritter və komandası Ermənistan ərazisindədir və sərhəddəki vəziyyətlə yanaşı, erməni kəndlərində yaşayan sakinlərlə bağlı araşdırma aparır. 44 günlük Vətən müharibəsi isə ancaq Azərbaycan ərazisində gedib. Bu isə o deməkdir ki, müharibə Ermənistanın heç bir yaşayış məntəqəsini əhatə etməyib. Belə olan halda erməni kəndlərinin müharibədən zərər görməsi mümkün deyil. Deməli, erməni kəndlilərini “müharibə qurbanı” kimi təqdim etməyə, erməni dəyirmanına su tökməyə ehtiyac yoxdur.

Markus Ritterin Azərbaycanla sərhəddəki erməni kəndlərini “qurbanlıq qoyun” kimi təqdim etmək cəhdi Aİ-nin Ermənistandakı missiyasının obyektivlikdən uzaq olduğunu, qərəzli mahiyyət daşıdığını göstərir. Bu fakt bir daha onu göstərir ki, Fransanın moderatorluğu ilə gerçəkləşən bu missiya məlum bəyanat və açıqlamalarla beynəlxalq ictimaiyyəti aldatmaq, onlarda əsl reallıqlar haqqında fərqli təəssürat formalaşdırmaqla məşğuldur.



### Sərhədimizi pusanların “nəzakət jesti”

M.Ritter müsahibəsində missiyanın ermənipərəst mahiyyətini ört-basdır etmək üçün Ermənistanla olduğu kimi, rəsmi Bakı ilə də təmaslara malik olduqlarını bildirib. O, qeyd edib ki, sərhəddə keçirilən patrul xidməti ilə bağlı Azərbaycan tərəfi məlumatlandırılır, onlara qabaqcadan lazımi bilgi verilir. Ritter vurğulayıb ki, bu məlumatlandırma “təhlükəli vəziyyətlərin qarşısını almaq və inam yaratmaq” üçündür.

Xatırladaq ki, Aİ Ermənistanın Azərbaycanla sərhəd ərazilərinə uzunmüddətli missiya göndərəndə bu barədə rəsmi Bakını məlumatlandırmayıb. Bununla bağlı Bakıdan hər hansı razılıq tələb olunmayıb. Yəni missiya Azərbaycan sərhədində Bakının razılığı və icazəsi olmadan məskunlaşıb. Hansı ki, Aİ-nin məlum missiyasının Azərbaycana etdiyi ilk ən böyük nəzakətsizlik elə, bu, olub. İndi belə olan halda missiyanın patrul fəaliyyəti ilə bağlı Bakını məlumatlandırması, bunu Azərbaycana hörmət və ehtiram əlaməti kimi təqdim etməsi gülünc səslənir.

Təhlükəsizliyə gəlincə, rəsmi Bakının məlumatlandırılması, sadəcə olaraq, missiya üzvlərinin təhlükəsizliyinin təmininə hesablanıb. Markus Ritter də yaxşı başa düşür ki, sərhəddə hər hansı aktivlik sərgiləmək üçün hökmən Azərbaycan tərəfinin razılığı alınmalıdır. Belə bir razılıq olmadan hansısa monitorinq aparmaq mümkün deyil. Bu baxımdan, missiya patrul fəaliyyəti ilə bağlı Azərbaycanı məlumatlandırmağa məcburdur və bunu rəsmi Bakıya “nəzakət jesti” kimi təqdim etməyə ehtiyac yoxdur.

Ümumiyyətlə, Markusun müsahibədəki hər bir cümləsindən onun keçirdiyi yalan və həqiqət arasında çırpıntısını hiss etmək mümkündür. Açıq-aydın hiss olunur ki, missiya rəhbəri səsləndirdiyi fikirlərə ictimai inamın olmadığını, bu fikirlərin hətta himayəsində dayandıqları ermənilər tərəfindən belə birmənalı qarşılanmadığını bilir, bunu sövq-təbii hiss edir. O, rəhbərlik etdiyi missiyanın əsl status və mahiyyətinin rəsmi statusundan əhəmiyyətli dərəcədə fərqləndiyinin hamıya məlum olduğunu, bu gerçəkliyi təmtəraqlı cümlələr, gözəl ifadələrlə pərdələməyin mümkünsüzlüyünü anlayır.

Missiyanın uğur qazanmasının yeganə yolu onun rəsmi Bakı ilə normal münasibətlər qurması, Azərbaycana qarşı səmimi, qərəzsiz mövqe sərgiləməsidir. Belə olarsa, Markus Ritter də yalan danışmaq, buna görə əzab çəkmək və ictimaiyyəti missiyanın gərəkliliyinə inadırmaq üçün and-aman etmək məcburiyyətində qalmaz.

***Seymur ƏLİYEV***

# Vardanyan “kartı” yenidən dövriyyədə

## Beynəlxalq dələduzun “istifadə müddəti” bitmək bilmir

**Post-müharibə dövründə Azərbaycanın qarşısında dayanan əsas məsələlərdən biri də Qarabağ iqtisadi rayonunda yaşayan erməni azlığını reinteqrasiyasıdır. Qeyd edək ki, Ermənistan tərəfi Qarabağda – Rusiya sülhməramlılarının müvəqqəti məsuliyyəti altında olan ərazidə 120 min nəfərin yaşadığını iddia edir. Real statistika isə Xankəndidə yaşayan ermənilərin sayının 11-12 mindən çox olmadığını deməyə əsas verir.**

Seçici siyahıları üzrə hesablamalar apararaq, müharibədən sonra qayıdan ermənilərin sayını tutuşduraraq, Xankəndi şəhəri də daxil olmaqla, bütövlükdə, Qarabağda yaşayan ermənilərin sayının 22-24 min aralığında olduğunu söyləmək mümkündür. Nəzərə almaq lazımdır ki, Qarabağdan erməni əhalinin köç etməsinə Laçında sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması da öz təsirini göstərib. Bu yaxınlarda yayılan bir videoda erməni sakin Qarabağdan Ermənistana birdəfəlik getdiyini bildirdi.

Azərbaycan dövləti vətəndaşı hesab etdiyi etnik ermənilərinin reinteqrasiyası ilə bağlı ortaya siyasi iradə qoyub. Bu günlərdə Xarici İşlər Nazirliyinin “Twitter” hesabında etdiyi paylaşımda bu barədə bildirilib: “Azərbaycan Qarabağ bölgəsinin etnik erməni sakinlərini Azərbaycanın siyasi, hüquqi, sosial-iqtisadi mühitinə reinteqrasiya etmək əzmindədir. Azərbaycan Konstitusiyası, tərəfdar çıxdığımız beynəlxalq sənədlər, milli qanunvericiliyimiz buna zəmin yaradır”.

*

Rəsmi Bakı reinteqrasiyanı bəyan etməklə kifayətlənmir. Həm də mövcud istiqamətdə real praktik addımlar atır. Milli Məclisin deputatı Ramin Məmmədov Qarabağda yaşayan erməni sakinlərlə təmaslar üzrə məsul şəxs kimi müəyyən olunub. Martın 1-də Xocalıda ilkin təmaslar aparılıb. Təəssüf ki, sonra erməni sakinlərin nümayəndələrinin arzuolunmaz açıqlamalarının şahidi olduq. Lakin Azərbaycan bu təmasları davam etdirməkdə israrlı olduğunu nümayiş etdirib. Azərbaycan Prezidentinin Administrasiyası Qarabağ ermənilər ilə müzakirələr aparmaq üçün onları iki dəfə rəsmi şəkildə Bakıya dəvət edib. Ancaq bu dəvətdən imtina ediblər. Mayın 28-də Laçın şəhərinə qayıdan əhali ilə görüş zamanı Prezident İlham Əliyev bu məqama da toxunub. Dövlətimizin başçısı deyib: “Ona görə bu gün nə müstəqillikdən, nə muxtariyyətdən, nə başqa bir şeydən heç kim artıq söhbət açmır. Sadəcə olaraq, bizə gələn son mesajlar belədir ki, bəs orada dırnaqarası rəhbərliyin aqibəti necə olacaq? Onlara amnistiya düşürmü, düşmürmü? Mən isə deyirəm ki, buna baxmaq lazımdır. Birincisi, biz oraya heyət göndərmişdik. Mənim nümayəndəm gedib onlarla birinci görüş keçirib və ondan sonra onları dəvət etmişik Bakıya ki, gəlin danışaq. Onlar bundan imtina etdilər. Bundan sonra ikinci dəfə biz onları dəvət etmişik Bakıya. Yəni, Qarabağda yaşayan erməni azlığının nümayəndələrini. Ondan da imtina etdilər. Daha üçüncü dəvət olmayacaq. Ya özləri boyunlarını büküb gələcəklər, ya da ki, indi hadisələr başqa cür inkişaf edəcək...”



*

Qarabağda yaşayan ermənilərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası yolunda ən böyük əngəllərdən biri Ruben Vardanyandır. Moskvadan Qarabağa çox aydın gündəliklə göndərilmiş Rubenin ötən il sentyabrın 1-də Rusiya vətəndaşlığından imtina etdiyi məlumdur. O, noyabrın 4-dən qondarma rejimdə “dövlət naziri” vəzifəsinin icrasına başlayıb. Ancaq cəmi 3 ay 20 gün “vəzifədə” qala bilib. Azərbaycanın təkidli tələbindən sonra istefaya göndərilib. Buna baxmayaraq, Qarabağda qalmağa, burada destruktiv rol oynamağa, etnik ermənilərin reinteqrasiyası prosesinin qarşısını almağa davam edir. Yarıtmaz əməllərini “Artsaxın təhlükəsizlik və inkişaf cəbhəsi” adlı qondarma qurumun vasitəsilə reallaşdırmağa çalışır. Yayılan ən son məlumata görə, sabiq “dövlət naziri” mitinq hazırlıqlarına başlayıb. Onun təşəbbüsü ilə rəhbərlik etdiyi qurama təşkilatın şura üzvləri Qarabağın rayonlarına səfər planlayıblar: “Məqsəd Qarabağda yaşayan hayları mövcud böhran vəziyyəti haqqında məlumatlandırmaq və onlara çağırış etməkdir. Səfərlərdə Ruben Vardanyan da iştirak edəcək. Onun başçılıq etdiyi hərəkatın son məqsədi əhalini ayağa qaldırmaqdır ki, bu da özünü böyük ehtimalla mitinqlər şəklində göstərəcək”.

*

R.Vardanyanın pozucu rol oynadığını, reinteqrasiya prosesinin qarşısını aldığını, əngəllər törətdiyini Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev də bildirib. O, “Azadlıq” radiosunun “İzahla” proqramında İrəvandakı Qafqaz İnstitutunun direktoru Aleksandr İskəndəryanla müzakirə zamanı deyib: “Bizim tanıdığımız (Qarabağda-S.H.) bəzi qeyri-rəsmi liderlər var. Bəlkə də çox adam bilmir. Amma bizim Arayik Arutyunyanla da, oradakı bəzi başqa adamlarla da ünsiyyətimiz olub. Bəzi texniki məsələlərdə hətta müsbət nəticələrə də gəlmişik. Amma, təəssüf ki, Ruben Vardanyan gələndən sonra proses dayandı. Vardanyan Qarabağa gəldi ki, prosesləri pozsun. O, danışıqlara mənfi təsir etdi. İndi Vardanyan rəsmi olaraq gedib. Lakin hələ də Qarabağdadır və danışıqlara mane olmağa, relsdən çıxarmağa çalışır”.

Jurnalistin “Bu, necə baş verir? Vardanyan necə təsir edə bilir?” sualına cavab olaraq Fərid Şəfiyev qeyd edib ki, onu dəstəkləyən Rusiya sülhməramlılarıdır: “Vardanyan Qarabağ erməniləri ilə danışıqları dayandırmağa nail oldu. Mənim əlimdə danışıqların baş tutmamasının səbəbkarının Rusiya sülhməramlıları olduğuna dair əsaslı fakt yoxdur. Amma görünən odur ki, baş verən budur. Bəli, bu sirr deyil ki, Rusiya məsələnin uzunmüddətli həllində maraqlı deyil. Onlar məsələnin həllini təxirə salmaq, bizə təklif etdikləri razılaşma layihəsində Qarabağ məsələsinin həllini gələcəyə saxlamaq istəyirlər. Amma bizim Ermənistan Respublikası ilə razılaşdırdığımız sazişdə bunu həll etmək nəzərdə tutulur”.

Göründüyü kimi, R.Vardanyanın oynadığı pozucu rol artıq Azərbaycanda daha yüksək tribunalardan və daha intensiv səslənir. O, Qarabağ torpağında qalmaqla öz maraqlarını həyata keçirir, bundan isə etnik ermənilər ziyan çəkir. Erməni xalqı onun qanını zəli kimi soran Qarabağ klanından 5 il öncə azad olduğu kimi Xankəndi sakinləri də bu dələduzdan canlarını qurtarmalıdırlar.

Onu da qeyd edək ki, R.Vardanyanın qaranlıq keçmişi onun bu günlərdə Ukrayna tərəfindən axtarışa verilməsinə gətirib çıxarıb. Kiyevin sanksiya tətbiq edilən şəxslərin siyahısına daxil etdiyi Vardanyan “dərhal saxlanılaraq Ukrayna və NATO ölkələrinin hüquq-mühafizə orqanlarına təhvil verilməli” şəxs kimi qeyd edilib. Bu faktın özü Vardanyanın beynəlxalq maxinator olmasının göstəricisdir. Ancaq Ruben kimiləri Azərbaycanı qarşıya qoyduğu məqsədlərinə nail olmaq yolundan döndərə bilməzlər. Onlar bizi yalnız gecikdirə bilərlər. Gec, ya tez olmasından asılı olmayaraq, ölkəmiz Qarabağ ermənilərinin reinteqrasiyası ilə bağlı bütün məqsədlərinə nail olacaq.

***Səxavət HƏMİD, “Xalq qəzeti”***

### Ekspert rəyi



**İlyas HÜSEYNOV, politoloq**

– Ruben Vardanyanın regiona ötən ilki gəlişi və bundan sonrakı fəaliyyəti barədə müxtəlif mülahizələr irəli sürülür. Aydındır ki, Vardanyan bir layihədir. Onun təlimatçıları var. Vətənpərvərliklə bağlı çıxışları, saxta qurumda qondarma vəzifə tutması və müxtəlif çağırışları da özünün fikri deyil. Bu, birmənalıdır. Onun Ukrayna tərəfindən axtarışa verilməsi də qlobal təhlükəsizliyə nə dərəcədə təhlükə törətdiyini üzə çıxarır. Gözlənilirdi ki, “istefa”dan sonra Qarabağı tərk edəcək. Lakin təlimatçıları onu hələ ki, Qarabağda görməyi arzulayırlar.

Vardanyan çirkli pulların yuyulmasında, müxtəlif fırıldaqlarda, iqtisadi cinayətlərdə, digər tərəfdən həm də ofşor hesabların idarəçiliyində ad çıxarıb. Ona qarşı Azərbaycan tərəfindən görülən tədbirlər bizim təbii sərvətlərimizin qanunsuz istismarı ilə bağlı idi. Rəsmi Bakı “Dəmirli” və “Qızılbulaq” yataqlarında həyata keçirilən hasilat nəticəsində əldə olunan gəlirin Vardanyanın cibinə daxil olmasını, separatçılığın güclənməsi zəncirini aşkarlamışdı. Bu gün də onun Qarabağda qalması bölgə üçün təhlükədən xəbər verir və separatçılığın güclənməsinə xidmət edir, etnik ermənilərin reinteqrasiyasına qarşı müqavimət rolunu oynayır. Azərbaycan Prezidenti Administrasiyasının dialoqla bağlı təkliflərini qəbul etməməyi təbliğ edən, bu görüşlərdən boyun qaçırmaq, blokadada olduqları iddialarını yayan da elə Ruben Vardanyan və onun arxasında dayanan qüvvələrdir.

# Azərbaycan qlobal enerji dialoqlarında fəal rol oynayır

**Prezident İlham Əliyevlə Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi Haysam Əl-Qaysı arasında keçirilən görüşdə Azərbaycanla OPEC+ ölkələri arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi, respublikamızın adıçəkilən formatla uğurlu əlaqələr qurduğu vurğulanıb. Eyni zamanda, hazırda qlobal neft bazarında OPEC+ çərçivəsində fəaliyyətə toxunulub, indiyədək bu bazarda sabitliyin əldə edilməsinin məhz bu formatda reallaşdırılan layihələr nəticəsində mümkün olduğu diqqətə çatdırılıb.**




Görüşdə bütün bunlarla bərabər, hazırda “fossil” yanacaqlar sahəsində mövcud olan məsələlər, həmçinin gələcəkdə bu sahəyə investisiyaların ayrılmasının zəruriliyi barədə ətraflı danışılıb. Bu fikirlə bağlı qeyd edək ki, Azərbaycan hazırda dünyada təkcə ənənəvi deyil, alternativ enerji imkanları ilə də tanınır. Respublikamız təhlükəsiz enerji təchizatına olan tələbatın ödənilməsinə yardım etməkdədir. Bura isə Cənub Qaz Dəhlizi daxil olmaqla, Orta Dəhlizin inkişafı və enerji çevikliyini gücləndirən enerjinin şaxələndirilməsinin artırılması daxildir.

Söhbət zamanı dünyada “yaşıl enerji” sahəsində əldə edilən uğurlarla yanaşı, ənənəvi yanacağın oynadığı vacib rol da xatırladılıb. Ənənəvi enerji sahəsində ətraf mühitə zərərin azaldılması baxımından yeni texnologiyaların tətbiqinin xüsusi əhəmiyyət daşıdığı bildirilib.

Bu məqamda onu da deyək ki, OPEC-in baş katibi respublikamıza səfəri çərçivəsində energetika naziri Pərviz Şahbazovla da görüşüb. Görüşdə OPEC ilə Azərbaycanın “Əməkdaşlıq Bəyannaməsi” çərçivəsində əməkdaşlığı, ölkəmizin qlobal neft bazarının tənzimlənməsində iştirakı, həmçinin tələb-təklif dinamikası ilə bağlı hazırkı vəziyyət və inkişaf tendensiyaları ilə bağlı məsələlər müzakirə edilib.

Xatırladaq ki, OPEC üzv və qeyri-üzv ölkələrin nazirlərinin Vyanada keçirilən 35-ci iclasında “Əməkdaşlıq Bəyannaməsi” ölkələrinin 2024-cü il üçün gündəlik ümumi xam neft hasilatının səviyyəsini tənzimləyən qərar qəbul olunub. Razılaşmaya uyğun olaraq gələn il gündəlik xam neft hasilatı OPEC+ üzrə 40,46 milyon barel, Azərbaycan üçün 551 min barel həcmində müəyyənləşdirilib.

Görüşdə OPEC+ formatı təşəbbüsünün irəli sürülməsi və həyata keçirilməsində Azərbaycan Prezidenti İlham Əliyevin tarixi rolu yüksək qiymətləndirilib. Baş katib Haysam Əl-Qaysı deyib: “Prezident İlham Əliyevin enerji təhlükəsizliyi, neft-qaz sənayesinin inkişafı, investisiyalar haqqında çox aydın baxışları birgə fəaliyyətimiz üçün yeni imkanlar açır. Azərbaycanla eyni mövqeyi bölüşməyimizdən məmnunuq”.

Bildirilib ki, OPEC+ çərçivəsində əməkdaşlığın məqsədi iqtisadi inkişaf üçün dünyanı lazım olan enerji ilə təmin etməkdir. Bu isə bütün enerji növlərindən istifadə ilə mümkün ola bilər.

Görüşdə vurğulanıb ki, karbon emissiyalarının azaldılması ilə neft-qaz sektorunun inkişafı dayanıqlı enerji təhlükəsizliyi üçün vacibdir. Bu yanaşma əsasında Azərbaycan, OPEC, digər ölkə və təşkilatların iştirakı ilə daha geniş platformada əməkdaşlığa ehtiyac var və neft bazarının sabitləşdirilməsi ilə bağlı səylər bu istiqamətdə də inkişaf etdirilməlidir.

Söhbət zamanı Azərbaycanın OPEC Katibliyi ilə əlaqələrinin dərinləşdirilməsi, OPEC+ formatında əməkdaşlığın təşkilata üzv ölkələrlə Azərbaycanın “yaşıl enerji” sahəsində tərəfdaşlığına verdiyi töhfələrdən də bəhs edilib.

Burada onu da vurğulaya bilərik ki, ölkəmiz OPEC-ə üzv olmasa da, OPEC+ formatında bu təşkilatla sıx əlaqələri var. Əməkdaşlıqda əsas məqsəd isə dünya neft bazarında tələb və təklifin uzlaşmasına nail olmaqdır. Respublikamız bu bazarın əsas iştirakçılarından biri kimi qlobal səviyyədə nəzərə çarpan proseslərə müdaxilə edir, neftin qiymətinə təsir göstərən amillərin aradan qaldırılması, tələb-təklif balansının bərpasına yönəlmiş tədbirlərin görülməsi üçün beynəlxalq enerji dialoqlarında fəallıq göstərir.

Yeri gəlmişkən, OPEC neft ixrac edən ölkələr tərəfindən neftin qiymətinin tənzimlənməsi məqsədi ilə 1960-cı ildə Bağdadda keçirilən konfransda yaradılıb. Əvvəlcə İran, İraq, Küveyt, Səudiyyə Ərəbistanı və Venesuela təşkilata daxil olub. Bu 5 ölkəyə sonradan Qətər, İndoneziya, Liviya, Birləşmiş Ərəb Əmirlikləri, Əlcəzair, Nigeriya, Ekvador, Qabon, Anqola və Ekvatorial Qvineya da qoşulub.

Təşkilatın qərargahı 1965-ci ildən Avstriyanın paytaxtı Vyana şəhərində yerləşir. Hazırda OPEC-in 13 üzvü var. Qeyri-OPEC ölkələri (Azərbaycan, Bəhreyn, Bruney, Qazaxıstan, Malayziya, Meksika, Oman, Rusiya, Sudan, Cənubi Sudan) təşkilatla OPEC+ formatında sıx əməkdaşlıq edir. OPEC+ əməkdaşlığının əsas məqsədi dünya neft bazarında tələb və təklifin uzlaşmasına nail olmaqdır.

Azərbaycanın OPEC-lə əməkdaşlığı təşkilatın iclaslarında müşahidəçi statusunda iştirakı ilə aktivləşib. Dünya enerji bazarında neftin qiymətinin tənzimlənməsi məqsədilə 2016-cı il aprelin 17-də Qətərin paytaxtı Dohada OPEC-ə üzv və qeyri-OPEC neft hasil edən ölkələrin təmsilçilərinin toplantısı olub. Doha sammitində neft ixrac edən ölkələrin OPEC təşkilatının əksər üzvləri, habelə Azərbaycan və Rusiyanın nümayəndələri də iştirak ediblər.

Respublikamızın OPEC+ ilə əməkdaşlığı qarşılıqlı fayda üzərində qurulub. Azərbaycan bu qurumla əlaqələrə başladığı ilk gündən etibarən mövcud platforma çərçivəsində razılaşmanın ən fəal üzvlərindən biri kimi tanınıb. Ölkəmiz bütün iclas və görüşlərdə yaxından iştirak edib.

OPEC+un hasilatın tənzimlənməsi ilə əlaqədar qərarlar da ölkəmiz tərəfindən yüksək səviyyədə icra olunur. Belə ki, adıçəkilən qurum tənzimləmə proseslərinə başlayandan sonra bazarda doğrudan da neftin qiymətləri 15–20 dollardan 100–120 dollara qədər qalxıb, hazırda isə 70–80 dollar intervalında saxlanılması nəzərdə tutulub. Ümumiyyətlə, Azərbaycan OPEC+ ölkələri arasında mühüm neft ixracatçısı kimi bu təşkilatın bütün qərarlarını daim dəstəkləyib.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***

## Ekspert rəyi



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

OPEK+ formatı 2016-cı ildə bir çox neft ixrac edən ölkənin neft bazarında qiymtlərin sabitliyini reallaşdırmaq üçün əldə olunan razılıq əsasında həyata keçirilən əməkdaşlıqdır. 2020-ci ilin aprel ayına olan məlumata əsasən, OPEK+ formatına 10 ölkə–Azərbaycan, Bəhreyn, Bruney, Qazaxstan, Malaziya, Meksika, Oman, Rusiya, Sudan, Cənubi Sudan daxildir.

Respublikamız bu qeyri- rəsmi formatda Rusiya, Qazaxstan, Meksika kimi nəhəng neft ixrac edən ölkələrlə eyni sırada əməkdaşlıq edir. Dünya enerji bazarında qiymət sabitliyinin təmin edilməsində bu təşkilatın həlledici rolu var.

Ötən il sentyabrın 5-də OPEC+ iclasında neft hasilatının sutkalıq 2 milyon barrel ixtisarı qərarı qəbul edildi ki, bu da neft bazarında neftin qiymətinin kəskin aşağı düşməsinin qarşısını almaq məqsədi daşıyırdı. Bu razılaşmanın 2023-cü ilin dekabrına kimi uzadılması planlaşdrılırdı. Lakin 2022-ci ilin iyul ayında ABŞ prezidenti C.Bayden Yaxın Şərqə turnesi çərçivəsində dünya neft hasilatının lider ölkəsi olan Səudiyyə Ərəbistanın neft hasilatını artırmasına ümid etsə də, bunun əksi baş verdi. OPEK ölkələri tərəfindən hasilat ixtisar olundu. Cari ilin aprel ayında isə OPEK+ yenidən hasilatın sutkalıq 1,65 milyon barrel ixtisarı haqqında qərar qəbul etdi.

Onu da qeyd edim ki, 2022-ci ildən başlayaraq Ukrayna –Rusiya müharibəsi neftin qiymətinin yüksəlməsində əsas drayver rolu oynayır. Dünya neft hasilatının yarısından çoxuna nəzarət edən OPEK təşkilatı da hasilatı ixtisar etməklə qiymətlərin yüksəlməsinə rəvac verə bilir. Bütün bu qərarlar təbii ki ABŞ-ın maraqlarına cavab vermir və buna görə Səudiyyə Ərəbistanı, hətta sanksiya tətbiqi ilə hədələnir. Çünki hasilatın ixtisarı neftin qiymətini yüksəltməklə Qərb ölkələrində inflyasiya kimi ciddi problemlərə yol açır.

**İşğaldan azad olunmuş torpaqlarımızın dirçəldilməsi, bu ərazilərdə həyatın əvvəlki məcrasına qaytarılması strategiyasında sənayeləşmə siyasəti mühüm yer tutur. Artıq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yerli və xarici investisiyalar hesabına sənaye parklarının yaradılması prosesi getdikcə sürətlənir. Hazırda həmin ərazilərin iqtisadi potensialının hərəkətə gətirilməsi üçün lazımi infrastrukturun yaradılması sürətlə davam etdirilir.**

# Şərqi Zəngəzurun iqtisadi potensialı hərəkətə gətirilir

Cəbrayıl rayonunda yerləşən “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında təqdirəlayiq işlər görülür, bölgədə iqtisadi fəallığın təməli qoyulur. Xatırladaq ki, “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 oktyabr 2021-ci il tarixli fərmanı ilə yaradılıb. Prezident fərmanında qeyd olunduğu kimi, Şərqi Zəngəzur iqtisadi rayonunun Arazboyu ərazisinin əsasən düzənlik relyefə və bölgənin cənub istiqamətində giriş qapısı mövqeyinə malik olması adıçəkilən sənaye zonasının fəaliyyəti üçün əlverişli şəraiti təmin edir.



Eyni zamanda, parkın logistik imkanlar baxımından əlverişli ərazidə yaradılması investorların diqqətini cəlb edən əsas amillərdən biridir. “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşməsi də onun uğurlu fəaliyyəti üçün zəmin yaradır. Belə ki, parkın ərazisindən həmin magistral yollara birbaşa giriş-çıxışın təmin edilməsi Zəngəzur dəhlizi vasitəsilə Azərbaycandan Türkiyəyə və əks istiqamətə, eləcə də, Rusiyaya yüklərin daşınmasına imkan verəcək.

200 hektar ərazini əhatə edən parkın prioritet istiqamətləri kimi logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin təşkili müəyyənləşdirilib. Bütün bu amillər həm yerli, həm də xarici iş adamlarının marağına səbəb olub. Bunun nəticəsidir ki, ötən müddətdə burada iş görmək arzusunda olan 5 sahibkarlıq subyekti rezident, 1-i isə qeyri-rezident kimi qeydiyyatdan keçib. İndiyədək sənaye parkının rezidenti olmaq istəyən sahibkarlar tərəfindən investisiya dəyəri 32,7 milyon manatdan çox olan layihələr təqdim olunub. Bu layihələrin reallaşdırılması ilə “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında 420 nəfərdən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur.

Bu il iyunun 17-də “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında “Avto Lizinq Azərbaycan” MMC-nin açılışı olub. Açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev və ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov iştirak edərək parkın ərazisində yaradılmış şəraitlə tanış olublar.

Qeyd edək ki, Rusiya və Azərbaycan birgə müəssisəsi olan “Avto Lizinq Azərbaycan” MMC tərəfindən “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının 3 hektar ərazisində texniki servis mərkəzi yaradılıb. Mərkəz yük avtomobilləri və kənd təsərrüfatı texnikalarına xidmət göstərilməsi sahəsində hab rolunu oynayacaq. Burada işğaldan azad edilmiş ərazilərimizdə istifadə olunan 1500-dək nəqliyyat vasitəsinə, həmçinin yüklərin daşınmasını həyata keçirəcək tranzit avtomobillərə və digər texnikalara peşəkar xidmət göstəriləcək.

Servis mərkəzində texniki xidmət bloku, təmir emalatxanası, gözləmə zalı, tədris otağı, anbar, portal tipli avtoyuma məntəqəsi və xidməti otaqlar yaradılıb. Texniki təmir emalatxanasında mühərriklərin və digər aqreqatların, elektrik avadanlıqlarının, pnevmatik və hidravlik qurğuların təmiri sahələri, daxiliyanma mühərriklərinin yuyulması məntəqəsi fəaliyyət göstərəcək. Bütövlükdə isə ümumi investisiya həcmi 10,2 milyon manat olan müəssisənin inşasına artıq 9,4 milyon manatdan çox vəsait xərclənib.

Hazırda ölkəmizdəki digər sənaye parklarında olduğu kimi, “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında da sahibkarlar üçün əlverişli investisiya mühiti formalaşdırılır. Belə ki, parkın rezidentləri dövlət vəsaiti hesabına qaz, işıq, su, kanalizasiya, daxili avtomobil və dəmir yolları, fiber-optik və s. hazır infrastrukturla təmin edilir. Bununla yanaşı, parkın rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə bir sıra vergilərdən, o cümlədən istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı əlavə dəyər vergisindən, eləcə də gömrük rüsumlarından azad olunurlar.

Yeri gəlmişkən, bu il mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında “Avto Lizinq Azərbaycan” MMC-nin tikintisi ilə tanış olmaqla yanaşı, “Holcim Azərbaycan” ASC-nin, “Az-Tex-Import” MMC-nin, “Improtex Qarabağ Sənaye Kompleksi” MMC-nin də təmələrini qoyub.

Xatırladaq ki, sənaye parkının 5 hektar ərazisində “Holcim Azərbaycan” ASC tərəfindən müasir texnologiyalar əsasında əmtəə beton və quru yapışdırıcı istehsalı üzrə zavod inşa olunacaq. Bununla yanaşı, ərazidə sement satışı üçün terminal da qurulacaq. Ümumi investisiya dəyəri 3,74 milyon manat olan müəssisədə Avropanın qabaqcıl texnologiyalarından istifadə ediləcək.

Parkın digər rezidenti “Az-Tex-Import” MMC tərəfindən 2 hektar ərazidə investisiya həcmi 3,8 milyon manatdan çox olan yük avtomobillərinə texniki servis xidmətlərinin göstərilməsi layihəsi həyata keçiriləcək. Layihə çərçivəsində yük avtomobillərinə texniki servis xidmətlərinin göstərilməsi və daha sonrakı mərhələdə 5 tona qədər yüngül tonnajlı yük avtomobillərinin yığımı nəzərdə tutulur. İtaliya texnologiyasından istifadə ediləcək müəssisədə istehsal olunan məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldiləcək.

“İmprotex Qarabağ Sənaye Kompleksi” MMC tərəfindən isə “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının 5 hektarlıq ərazisində dəyəri 7,4 milyon manat olan layihə çərçivəsində mərhələli şəkildə xüsusi təyinatlı texnika və metal məmulatların istehsalı nəzərdə tutulur. Müəssisədə ildə 100 ədəd mexaniki minatəmizləyən, 100 ədəd yanğınsöndürən və 300 ədəd tentli yarımqoşqu istehsal olunacaq. İstehsal edilən məhsulların daxili bazarda satılması ilə yanaşı, Xəzəryanı və Şərqi Avropa ölkələrinə ixracı da planlaşdırılır.

Göründüyü kimi, “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında reallaşdırılacaq layihələr bölgənin potensialının ölkə iqtisadiyyatına reinteqrasiyasına və yerli istehsalın inkişafına böyük təkan verəcək. Eyni zamanda, parkın ərazisində çoxsaylı iş yerləri açılacaq ki, bu da ölkə üzrə məşğulluq səviyyəsinin yüksəlməsinə əlavə imkanlar yaradacaq.

***Mirbağır YAQUBZADƏ,***
***“Xalq qəzeti”***

# 5 ayda ölkəmizdən 284 milyon dollarlıq neft məhsulları ixrac edilib



**2023-cü ilin yanvar–may aylarında Azərbaycandan 479 min tondan çox neft məhsulları ixrac olunub. Bu barədə Dövlət Gömrük Komitəsindən məlumat verilib.**

Komitənin məlumatında o da qeyd olunur ki, neft bununla yanaşı, xaricə bitumlu süxurlardan alınmış neft və neft məhsulları–tərkibində neft və ya neft məhsullarının miqdarı 70 kütlə faiz və ya daha artıq olan məhsullar göndərilib. İxrac olunan məhsulların dəyəri isə 284 milyon ABŞ dollarından çox olub.

Xatırladaq ki, ötən ilin müvafiq aylarında Azərbaycandan 245,2 min ton neft məhsulları ixrac edilib. Həmin məhsulların dəyəri 143,4 milyon dollar olub.

***“Xalq qəzeti”***



# Aqrar sektorda 5 ayda 3 milyard manatlıqdan çox dəyər yaradılıb

**Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2023-cü ilin yanvar–may ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 3 milyard 116 milyon manat təşkil edib.**

Bu məbləğin 2 milyard 372,3 milyon manatı heyvandarlıq, 743,7 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 5,2 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,5 faiz, bitkiçilik məhsulları üzrə 10,9 faiz artıb.

Cari ilin yanvar–may aylarında 341,8 min hektar sahədə və ya 2022-ci ilin eyni dövrü ilə müqayisədə yazlıq bitkilərin səpini 10,7 faiz az aparılıb.

***“Xalq qəzeti”***

# İndiyədək 300 tondan çox barama təhvil verilib

**Respublikada barama istehsalı mövsümü başa çatmaq üzrədir. Bu il Azərbaycanın 41 rayonunda barama tədarük olunur. İndiyədək kümçülər tədarük məntəqələrinə 328 ton barama təhvil veriblər.**

Artıq bəzi rayonlarda barama tədarükü başa çatıb. 2023-cü ildə respublika üzrə ən çox təbii ipək xammalı Zərdab rayonunda tədarük olunub. Zərdablı kümçülər tədarük məntəqələrinə 52,865 ton barama təhvil veriblər. Ağcabədi (34,326 ton), Zaqatala (27,865 ton), Balakən (27,855 ton), Bərdə (20,982 ton), Tərtər (14,475 ton), Füzuli (10,361 ton), Lənkəran (9,818 ton), Sabirabad (9,287 ton), Ağdam (9,157 ton) və Yevlax (8,425 ton) ən çox barama tədarük edən rayonlardır.

Kümçülərlə imzalanan müqaviləyə əsasən, istehsal olunmuş barama müvafiq qurum tərəfindən 5 manata təhvil alınacaq, dövlət isə istehsal olunan hər kiloqram baramaya görə kümçülərə 6 manat subsidiya ödəyəcək.

***“Xalq qəzeti”***

# Qərbi Azərbaycan: Zəngəzur xəyanəti

**Ölkəmizin ərazi bütövlüyü uğrunda Vətən müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müdrik və qətiyyətli sərkərdəliyi ilə 30 ilə yaxın işğal altında olan torpaqlarımız, nəhayət, hərbi yolla, Silahlı Qüvvələrimizin misilsiz rəşadəti ilə azad edildi. Azərbaycanın işğalçı Ermənistan üzərində şanlı qələbəsi Cənubi Qafqaz regionunda tamamilə yeni reallıq yaratdı.**

İlk növbədə, xəyanətkar qonşu 200 ildən artıq bir zamanda xalqımızın başına gətirdiklərinin əvəzini artıqlaması ilə aldı. Azğın düşmən olan Ermənistana və onun havadarlarına göstərildi ki, öz taleyinə sahib çıxmış, güclü dövlətə çevrilmiş Azərbaycan ondan dəfələrlə güclüdür və torpaqlarının bir qarışını da ona güzəştə getməz. İkincisi, Qarabağ və Zəngəzurun düşməndən azad edilməsi əzəli türk yurdu olmuş Qərbi Azərbaycandan zaman-zaman hiylə ilə çıxarılmış, zor gücünə qovulmuş soydaşlarımızın indiki nəsillərinin ata-baba torpaqlarına qaytarılması zərurətini də gündəmə gətirdi.

Tarixin çox da dərininə getmədən bildirək ki, xalqımız XX əsr boyunca indi Ermənistan adlanan Qərbi Azərbaycanın 23 rayonunun 261 yaşayış məntəqəsinin işğal olunmasını, 2 milyona yaxın soydaşımızın öz vətənindən zorla köçürülməsini də unuda və yadlara bağışlaya bilməz. Qərbi Azərbaycan İcmasının bəyanatında deyildiyi kimi: "Ermənistan tərəfinin bizə qarşı törətdiyi böyük müsibətləri tarixi yaddaşımızda saxlamaqla bərabər, qəbul edirik ki, sülh və inkişafın təmin edilməsinin yolu dialoq və barışıqdan keçir".

Müstəqil Azərbaycanın memarı, ümummilli lider Heydər Əliyev illər öncə Qarabağın işğaldan azad ediləcəyinə əminliyini qətiyyətlə bildirməklə yanaşı, xalqımızı növbəti hədəf uğrunda mübarizəyə yönləndirirdi: "Bundan sonra da elə əsərlər yaranmalıdır ki, o əsərlər Ermənistanda yerləşən həmin torpaqların Azərbaycana məxsus olmasını daim, ardıcıl surətdə sübut etsin. Biz bunu etməliyik. Biz gələcək nəsillər üçün yol açmalıyıq". Ulu öndər Heydər Əliyevin tövsiyə və vəsiyyətlərini qədirbilən Azərbaycan xalqı ardıcıl həyata keçirir və artıq Qərbi Azərbaycan uğrunda ədalətli, dinc savaşa da start verib.

Xatırladaq ki, Qərbi Azərbaycanın böyük bir parçası olan Zəngəzur mahalı 7 rayondan ibarət olub. Onun 4-ü: Mığrı, Qafan, Gorus, Qarakilsə (Sisiyan) Ermənistan ərazisində, 3-ü: Zəngilan, Qubadlı, Laçın isə Azərbaycan ərazisində yerləşir. Zəngəzurun ümumi sahəsi 7 min 892 kvadratkilometr olub. 2020-ci il Vətən müharibəsində Zəngilan, Qubadlı, Laçın rayonları erməni işğalından azad edilib. Zəngəzurun 4 min 505,5 kvadratkilometr sahəni əhatə edən Mığrı, Qafan, Gorus, Qarakilsə (Sisiyan) rayonları – Qərbi Zəngəzur 100 ildən artıqdır ki, erməni işğalı altındadır.

Azərbaycan Prezidentinin 7 iyul 2021-ci il tarixli fərmanı ilə ölkəmizin iqtisadi rayonlarının yeni bölgüsü təsdiq edilmişdir. İndiki 14 iqtisadi rayondan biri də Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları daxil olmaqla, yaradılmış Şərqi Zəngəzur iqtisadi rayonudur. Şərqi Zəngəzur iqtisadi rayonunun ümumi sahəsi isə 7 min 450 kvadratkilometrdir.

1886-cı ildə Gəncə (Yelizavetpol) quberniyasının Zəngəzur qəzasındakı 326 kənddən 154-ü azərbaycanlı (45,7 faiz faiz), 91-i kürd, (27,8 faiz), yalnız 81-i erməni kəndi (24,8 faiz) olub. Həmin ermənilər isə Rusiyanın ölkəmizin şimalını işğal etməsindən sonra İran və Türkiyədən bura köçürülənlər olmuşdur. Həqiqətən, XIX əsrin əvvəllərinə kimi Zəngəzurda erməni adında nəinki bir tayfa, ailə, hətta bir adam da yaşamayıb.





Zəngəzur adındakı "zəngi" leksik vahidi tədqiqatçılara görə, türk tayfa adıdır. Türkdilli respublikalarda və Azərbaycanın bir çox yer adlarında bu oğuz-türk tayfasının izləri yaşayır: Zəngiçay, Zəngitəpə, Zəngərik, Zəngişamlı, Zəngənə, Zəngilan, Zəngəran, Zəngişalı, Zəngidərə , Zəngibasar, Zəngilər, Zəncan və s. Mahmud Kaşğari, Rəşidəddin, Əbdülqazi, A. Bakıxanov kimi tarixçilərin əsərlərində və bir çox digər yazılı mənbələrdə 24 oğuz tayfasından biri olan "zəngilər"in adı keçir. Zəngi tayfaları Azərbaycan Atabəylər, Səfəvilər hakimiyyətlərinin əsas sütunlarından biri olub. Ziya Bünyadovun "Azərbaycan Atabəylər dövləti" kitabında Xəlifə ilə Mosulun çox nüfuzlu atabəyi olmuş Zəngi arasında münasibətlərdən söz açılır: "Xəlifə özünün bütün planlarının yerinə yetirilməsini Zəngiyə həvalə etdi... Xəlifənin müttəfiqləri arasında atabəy Zənginin iştirakı və nüfuzu müttəfiq əmirlərin belə addım atmasına yol vermədi, sultan Zəngini Farsa və onun nahiyələrinə hakim təyin etdi".

Zəngəzur ərazisindəki adların da bir çoxunda sur-zur-zor ifadələri daşlaşıb qalıb. "Zor" sözü Qafqaz və Anadolu türklərinin dilində çox yaxşı, böyük, gözəl mənasında da gen-bol işlənməkdədir: zor yer, zor kişi, zor adam və s. Zəngəzur sözünün sonundakı "zur" türk dilində "dərə", "yarğan" mənasını da daşıyır. Zəngəzurun digər bölgələri Laçın, Mığrı adlarında da türk tayfalarının izi qalıb. Mığrı rayonunun Nüvədi kəndindəki "Qarqar yazıları" öz qədimliyi, mükəmməlliyi, ümumtürk tarixi üçün əhəmiyyəti ilə "Orxon-Yenisey" abidələrindən geridə qalmır.

Qərbi Zəngəzurun Ermənistana birləşdirildiyi dövrdə sovet Azərbaycanının rəhbərliyində də ermənilər hökm sahibi idilər. Nəriman Nərimanovun yazdığı kimi, real idarəetmə Mirzoyanların əlində idi. Bolşevik Rusiyası Azərbaycanın sovet hökuməti ilə və tezliklə qurulması gözlənilən Ermənistan sovet hökuməti ilə ikitərəfli sazişlər hazırlayırdı. Azərbaycan sovet hökuməti bu sazişdə ərazi bütövlüyü məsələsinin təmin olunmasına da ümid bəsləyirdi. Erməni kommunistləri də Zəngəzur, Naxçıvan və Qarabağ məsələsinin öz xeyirlərinə həllini gözləyirdilər.

O vaxt təzə sona çatmış I Dünya müharibəsindən sonra ən ağır zərbələrdən biri də Azərbaycana dəydi. 1920-ci il noyabrın 29-da Ermənistanda (İrəvanda) sovet hakimiyyətinin qurulduğu elan olunandan bir gün sonra, Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan K(b)P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərar ilə həll olunub. Bu birgə iclasın qəbul etdiyi "tarixi" qərara aydınlıq gətirmək üçün orada iştirak edənlərin tərkibinə baxmaq lazım gəlir: Q.Orconikidze, Sarkis (S.Ter-Danielyan), Y.Stasova, Q.Kaminski, N.Nərimanov, Ə.Qarayev, M.Hüseynov. Bu bədnam və faciəli qərar Azərbaycan xalqına qarşı misilsiz bir xəyanət idi.

Ümummilli lider Heydər Əliyev bu xəyanətlə bağlı demişdir: "XX əsrin 20-ci illərində sovet hakimiyyəti təzə qurulan zaman Qafqazda respublikanın sərhədləri yaranarkən Azərbaycana qarşı ədalətsizlik edilibdir. Azərbaycanın qədim torpaqları olan Zəngəzur mahalı və başqaları Ermənistana verilibdir. Bununla əlaqədar Zəngəzurun Araz çayı sahilində olan, qədim Azərbaycan torpağı olan Mığrı rayonu da Ermənistana verilibdir. Beləliklə, böyük Azərbaycan ilə onun ayrılmaz hissəsi olan Naxçıvan arasında coğrafi nöqteyi-nəzərdən müəyyən çətinliklər yaranıbdır".

**(Ardı var)**

***İsmayıl ƏLİYEV,***
***Bakı Dövlət Universitetinin kafedra müdiri, professor***

# Ermənistan azərbaycanlıların öz yurduna qayıtmasına imkan vermir

**Qərbi Azərbaycan İcmasının BMT başda olmaqla, beynəlxalq qurumlara ünvanladığı bəyanatlarda tarixi vətənindən zorla qovulmuş soydaşlarımızın öz yurdlarına qayıtmaq haqqının tanınmasına çağırışlar əksini tapıb. İcmanın beynəlxalq ictimaiyyətə ünvanlanmış növbəti bəyanatında isə azərbaycanlı qaçqınların Qərbi Azərbaycana qayıdışını tezləşdirmək üçün Ermənistana ciddi təzyiq göstərməyin zəruriliyi ifadə olunub:**

–Məlum olduğu kimi, Ermənistan hökuməti bu ölkədən qovduğu azərbaycanlıların qayıtmasına imkan vermir və onların mədəni irsini dağıtmaqda davam edir. Ermənistan azərbaycanlıların öz evlərinə qayıtmasına hazırlıq məqsədilə BMT-nin missiyasını və Azərbaycan mədəni irsinin vəziyyətinin qiymətləndirilməsi üçün UNESCO-nun faktaraşdırıcı missiyasını qəbul etməkdən imtina edir. Bundan əlavə, Ermənistan hökuməti Qərbi Azərbaycan İcmasının dialoq çağırışlarına cavab vermir.



Müraciətdə daha sonra bildirilib ki, bu azmış kimi, Ermənistan Azərbaycanın daxili işlərinə qarışmaqda davam edir. Bu ölkənin Xarici İşlər Nazirliyi bu gün Azərbaycana hansısa missiyanın göndərilməsinə dair çağırış etmiş və Azərbaycanı etnik təmizləmə aparmaq niyyətində olmaqda ittiham etmişdir:

–Beynəlxalq hüququn prinsiplərinə, o cümlədən ərazi bütövlüyü prinsipinə hörmətlə yanaşdığını dəfələrlə bəyan etmiş İcmamızın dialoq çağırışına cavab verməyən və öz ərazisində bir nəfər də olsun azərbaycanlı qoymamış Ermənistan hökumətinin Azərbaycan tərəfinin etnik təmizləmə niyyətində olması kimi absurd iddia irəli sürməsi və insan hüquqlarından danışması ən mənfur riyakarlıqdır. Bütün bunlar Ermənistanın Azərbaycanafob siyasətini və Azərbaycana qarşı ərazi iddiasını bariz şəkildə göstərir.



Qərbi Azərbaycan İcması Ermənistan hökumətindən beynəlxalq hüquqa və insan haqlarına zidd siyasətindən əl çəkməyi, qovduğu azərbaycanlıların beynəlxalq verifikasiya və zəmanət mexanizmləri çərçivəsində öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıtmalarına şərait yaratmağı, bu məqsədlə BMT və UNESCO-nun missiyalarını qəbul etməyi tələb edir.

İcma dünya ictimaiyyətini Ermənistanı beynəlxalq hüquqa zidd davranışlardan, o cümlədən bizim qayıdış hüququmuza əngəl törətməkdən və Azərbaycana qarşı ərazi iddiasından çəkindirmək üçün bu ölkəyə ciddi təzyiqlər etməyə çağırır.

***

**Qərbi Azərbaycan İcmasının Gənclər Birliyinin sədr müavini, Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan nümayəndə heyətinin üzvü, AŞPA-nın İnsan Hüquqları üzrə alt-komitəsinin sədri Kamal Cəfərovun Qərbi Azərbaycan mövzusu ilə bağlı irəli sürdüyü yazılı bəyannamə Assambleya üzvlərinin yetərli sayda dəstəyini əldə edərək AŞPA-nın rəsmi sənədi kimi dərc olunub.**

Qərbi Azərbaycan İcmasından redaksiyamıza verilən məlumatda bildirilir ki, 10 dövlətdən (Almaniya, Avstriya, Azərbaycan, İtaliya, Latviya, Niderland, Polşa, Ruminiya, Türkiyə Ukrayna) olan, AŞPA-nın 3 siyasi qrupu təmsil edən 31 üzvünün imzaladığı yazılı bəyannamə Avropa Şurası və beynəlxalq ictimaiyyəti Ermənistandan qovulmuş azərbaycanlıların geri qayıtmaq hüququnu dəstəkləməyə və AŞPA məruzəçilərini bu məsələni öz gündəliyinə daxil etməyə çağırır.

Sənəddə Ermənistan hökumətindən öz doğma torpaqlarından qovulmuş azərbaycanlıların ləyaqətli şəkildə geri qayıdışının təmin edilməsi, onların təhlükəsizliyinin zəmanət altına alınması, beynəlxalq missiyaların bu prosesə kömək qismində göndərilməsinə razılıq verməsi tələb olunur.

***"Xalq qəzeti"***

# "Yaraşır libasın gül əndamına"

## *Aşıq Ələsgər yaradıcılığında qadın geyim mədəniyyəti*

**I Yazı**

**Xalqın tarixi ilə möhkəm bağlı olan geyimlər onun mədəniyyətini öyrənmək üçün qiymətli mənbələrdən biridir. Geyimlər, maddi mədəniyyətin bütün başqa ünsürlərindən daha çox xalqın milli xüsusiyyətlərini əks etdirməklə yanaşı, sabit etnik əlamətlər sırasına daxildir.**

Məhz bu nöqteyi-nəzərdən Azərbaycanın mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr bəxş edən, xalqımıza öz sazı və sözü ilə 80 ildən artıq ləyaqətlə xidmət edən Dədə Ələsgərin yaradıcılığını Qərbi Azərbaycanın qadın geyim mədəniyyəti nöqteyi-nəzərindən zəngin etnoqrafik mənbə hesab etmək olar. Öncə qeyd edək ki, ölkəmizin digər bölgələrində olduğu kimi, Azərbaycanın Qərb zonasında da XIX yüzil və XX yüzilin əvvəllərində əhalinin geyim materialı kimi, əsasən yerli ustalar tərəfindən kustar üsulla üfiqi toxuculuq dəzgahlarında- kərəkdə toxunmuş qılıcı şaldan, müxtəlif növlü və müxtəlif rəngli ipəkdən, nazik yun və pambıq parçalardan, həmçinin aşılanmış gön və dəridən istifadə edirdilər.

Lakin, əhalinin varlı təbəqəsinin geyimi əsas etibarı ilə ipək tafta, darayı, qanovuz, atlas, alaca, xara və s. parçalardan ibarət idi ki, bunların da çoxu satınalma yolu ilə əldə edilirdi. Aşığın yaradıcılığının böyük bir qismi doğulub boya-başa çatdığı Göyçə mahalının gözəllərinin tərifindən ibarətdir. Onun qəhrəmanları xəyalında yaratdığı obraz deyil, real həyatda-aşıq məclislərində və xalqın toy-düyünlərində, bulaq başında gördüyü sadə kəndli qızlarıdır. Aşıq Ələsgər təriflədiyi qız-gəlinin zahiri gözəlliklərini, milli geyim və bəzəklərini elə məharətlə təsvir edir ki, gözlərimiz önündə XIX-XX əsrin əvvəlləri Qərbi Azərbaycan qadınlarının milli geyimləri, həmçinin geyimlərin rəngləri və geyimlərə vurulan dekorativ bəzəklər, onların timsalında bütün Azərbaycan qadınlarının geyimləri haqqında mükəmməl, aydın təsəvvür yaranır.

Dədə Ələsgərin yaradıcılığında təsvir edilən Qərbi Azərbaycan qadınlarının geyim növlərinin əksəriyyəti atlas, ipək, qanovuz, darayı, xara, alaca, mahud, zərxara parçalardan ibarət olmuşdur. Rəng çalarlarına gəldikdə isə Qərbi Azərbaycan qadınlarının geyimlərində rəngarəng olaraq al, yaşıl, sarı və s. rəng çalarları üstünlük təşkil edirdi. Aşıq deyir: "Mənim yarım yaşıl geyib incidir", yaxud "xub yaraşır əndamına, geyinibdir sarı gözəl", yaxud da "geyinib əndamına, əbru ətlaz, alı gözəl".

Qərbi Azərbaycan qadınlarının geyimlərində al, yaşıl, sarı və s. çalarlar üstünlük təşkil etdiyi halda, Bakı geyimlərinin rəng seçimində ən çox bənövşəyi rəng çalarlarından, həmçinin açıq qəhvəyi, solğun xardal rəngi, ağ, tünd mavi rənglər, Qarabağ geyimlərində üst tuman və üst çiyin geyimi ya eyni ya da uyğun rənglərdə, köynək isə tuman və arxalığın rənginə nisbətən açıq və parlaq rənglər, Naxçıvan geyimlərində innabı, yaşıl, gümüşü rənglərdən istifadə edirdilər. Ümumiyyətlə, bölgələr üzrə müqayisələr apardıqda belə qənaətə gəlmək olur ki, geyimlər bölgənin təbiəti və iqlim xüsusiyyətlərinə uyğun gəlirdi.

XIX əsrin sonu–XX əsrin əvvəllərində Azərbaycanın ayrı-ayrı tarixi etnoqrafik bölgələrində geyimlərdə lokal-məhəlli xüsusiyyətlər, bölgəyə məxsus detallar müəyyən dərəcədə özünü göstərsə də, tipoloji cəhətdən ümumazərbaycan səciyyəsi daşıyırdı. Azərbaycanın bütün bölgələrində olduğu kimi, Qərbi Azərbaycanda da geyim dəsti alt və üst geyimlərinə bölünürdü. Qadın alt paltarları alt köynəyi (müxtəlif bölgələrdə ona "can köynəyi" və "ət köynəyi" də deyirdilər), cütbalaq (enli şalvar) və darbalaqdan (dizlikdən) ibarət olmuşdur.

O zaman Qərbi Azərbaycan qadınlarının köynəkləri ilə Qarabağ qadınlarının köynəkləri eynilik təşkil edirdi. Həmin bölgənin qadınları alt geyim dəsti olan dizlikdən geniş şəkildə istifadə etmişlər. Aşığın "Qırmızı" qoşmasında darbalaq-dizlik belə təsvir edilir: "Mərnuz dizlik geyib, çəpgəni ətlaz". Onu da qeyd edək ki, Qərbi Azərbaycan qadınlarının dizlikləri ilə Naxçıvan qadınlarının dizlikləri eynilik təşkil edirdi. Hər iki mahalın qadınlarının geydikləri dizliklər topuğa qədər uzun olub, topuqda büzülürdü. Bakı ərazisinin qadınları da darbalaq geyim növündən istifadə edirdilər. Abşeron qadınlarının darbalaq-dizlik geydiklərini vaxtilə buraya səyahət edən S.Q. Omerlinin də yazılarında rast gəlinir.

Azərbaycanın bütün bölgələrində olduğu kimi, Qərbi Azərbaycanda da qadın geyimlərinə üst köynəyi, çəpkən, çərkəzi, ləbbadə, nimtənə, küləcə, çalma, arxalıq, ləçək, örpək, şal, kəlağayı, başmaq, corab, kəmər və müxtəlif bəzək növləri daxil idi. Bu geyim tiplərinin əsas elementlərindən biri üst köynəyi idi. Qadın üst köynəkləri bölgələr üzrə müəyyən fərqli xüsusiyyətlərə malik olsa da, ümumi səciyəvi xarakterə malik idi.

Azərbaycan qadınları geyimin estetik gözəlliyinə xüsusi diqqət verirdilər. Onlar üst köynəkləri ilə yanaşı, digər geyimlərin sinəsini, tikişlərin kənarlarını, yaxa və qolçaqlarını, ətəklərini xüsusi bəzək elementlərindən olan tikmələr, çaxma və asma metal bəzəklər, cürbəcür baftalar, şahpəsəndlər, zəncirələr, muncuqlar, piləklərlə və s. ilə bəzəyirdilər.



Bu cür bəzək elementlərini Aşıq Ələsgər belə təsvir edir: "Güləbətin qıyı tər sinə üstə, nə gözəl yaraşır qız köynəyinə", yaxud "əynində zər güləcə, ətəyində zər baftası". Aşıq üst köynəyini tərif edərkən köynəyin yaxasının "güləbətin" tikmələrlə bəzədildiyini göz önünə gətirir. Güləbətin tikmə Azərbaycanda ən qədim tikmə növlərindən biri olaraq Şəki, Şamaxı, Şuşa, Naxçıvanla yanaşı, Qərbi Azərbaycanda da inkişaf etmişdir. Aşıq "zərbafta" deyərkən küləcənin ətəklərinin güləbətinli – zərli saplarla ipək parçadan toxunmuş zər baftası-qaytanı təsvir edilir. Bafta-güləbətin ipək sapla toxunmuş qaytandır.

Aşıq Ələsgər Səhnabanunu tərif edərkən deyir: "Zərgər gül doğrasın zərin tiladan, əlindən gəldikcə düz köynəyinə",- deməklə pilək tikmə növünü təsvir edir. Pilək tikmə növündən Azərbaycanın əksər bölgələrində, o cümlədən Qərbi Azərbaycan bölgəsində də istifadə olunurdu. Onu da qeyd edək ki, pilək və pərək zərənduz tikmə növü zərgərlik sənəti ilə üzvi surətdə bağlı olmuşdur. Bəzən tikmə bilavasitə məmulat üzərinə müəyyən qayda ilə tikilib bəndlənir, bəzən isə ayrıca ensiz parça zolağının üzərinə bəndləndikdən sonra üst geyimlərin qollarına və ya ətəklərinə bəndlənirdi.

Aşıq öz qəhrəmanlarını tərif edərkən onların geyindikləri qadın üst geyimlərindən olan, "küləcə", "mintənə", "çəpkən", "don", "alaca", "alı" və digərlərinin də adlarını sadalayır. Aşıq "Mələk" müxəmməsində deyir: "Geyinib əndamına əbru ətlaz, alı gözəl, xara don, zərin nimtənə, başındakı şalı gözəl." Aşığın tərif etdiyi gözəlin geyindiyi paltar atlasdandır və al rənglidir. Bu da təbiidir, çünki, ipək parça toxuculuğu olan şərbaflıq XIX əsrdə Azərbaycanda ən yüksək inkişaf mərhələsinə çatmışdır. Onu da qeyd edək ki, 1861-ci ildə Nuxada fəaliyyətə başlayan fabrikdə 1200-1400 pud ipək məhsulu istehsal olunurdu. Bundan əlavə, Nuxa qəzasında 33, Qarabağda 19, Ordubadda 2 fabrik xarakterli ipəkçilik müəssisəsi var idi. Bu dövrdə ipək parça növlərindən olan "məni aldatdı", "alışdım-yandım", "gecə-gündüz", "şəmsi-qəmər", "darayı, "xara" və s. qadınlar tərəfindən daha çox bəyənilirdi.

***Aytəkin QƏHRƏMANOVA,***
***AMEA Naxçıvan Bölməsi, tarix üzrə fəlsəfə doktoru***

*Türk dünyasından qonaqlarımız*

# Bir bütövün parçası – Kərkük

## *Müsahibimiz böyük Azərbaycan sevdalısı Şəmsəddin Kuzəçidir*

**Ruhumuzun, könlümüzün işıqlı guşələrində qərar tutmuş yurdlardan biri də hər zaman bizə doğma olan İraq–Kərkük elləridir. Bu barədə düşünəndə öncə Nəsimi və Füzulini xatırlayırıq. Sonra digər aydınlarımız yada düşür. Çağdaş iraqlı soydaşlarımızdan biri də Dünya İletişimçiləri Birliyinin qurucusu və rəhbəri, İraq–Türkman Jurnalistləri Cəmiyyətinin sədri, "Kərkük" qəzetinin sahibi və baş redaktoru Şəmsəddin Kuzəçidir.**



Bakıya hər gəlişi ilə buradakı çoxsaylı dostlarını sevindirən Şəmsəddin Kuzəçinin indiyədək nəşr olunmuş 66 kitabının 10-u Azərbaycanda işıq üzü görüb. Həmin nəşrlərdən 3-nü – bu il çıxmış "Azərbaycan məqalələri" (I), özünün haqqında yazılan oçerklərdən ibarət "Azərbaycan sevdalısı" və "İraqın mətbuat tarixi" kitablarını görüşümüz zamanı dəyərli qonağımız bizə hədiyyə etdi.

**Həmkarım Tahir Aydınoğlu ilə bərabər söhbət etdiyimiz Şəmsəddin bəyə ilk sualımız iraqlı soydaşlarımızın tarixi, ilkin ədəbi örnəkləri barədə oldu. Cavabında bildirdi ki, ümummilli lider Heydər Əliyev Quzey və Güney azərbaycanlıları ilə İraq türkmanlarını bir bütövün parçaları hesab edirdi.**

– Biz də İraq azərbaycanlıları olaraq özümüzü həmin bütövün içində görür, ədəbiyyatımızı, mədəniyyətimizi yaşatmaq, yaymaq amalına xidmət edirik, - deyə həmsöhbətimiz sözünə davam etdi. – Daha sıx qaynayıb-qarışmalı və böyük Turana doğru yürüməliyik. Bizim soyumuz, kökümüz, dilimiz, mahnılarımız, bayatılarımız eynidir. Hicri tarixi ilə 54-cü, miladi tarixi ilə 674-cü illərdə Orta Asiyadan, Azərbaycandan köç etmişik. Kökümüz bura bağlıdır. Heç bir şifahi dil fərqimiz yoxdur, ləhcələrmiz, şivələrmiz tam eynidir. Yazı dilimiz isə Türkiyə türkcəsidir. Ona görə ki, Osmanlı İmperatorluğu 400 ilə qədər, 1534–1918-ci illərdə bizi idarə edib. İstər-istəməz neçə-neçə nəslin dili Türkiyə türkcəsi olub. Amma şifahi nitqimiz azərbaycancadır. Evdə, məktəbdə, iş yerlərində Azərbaycan şivəsində danışırıq. Bu bizim üçün fəxrdir.

**Azərbaycan klassik ədəbiyyatının əsas sütunlarından söz düşüncə Şəmsəddin bəy ilk olaraq İmadəddin Nəsiminin adını çəkdi.**

– Hürufi şeyxi Nəsimi Bağdadın 12 kilometrliyində yerləşən Nəsim kəndində də, Suriyanın Hələb şəhərində də yaşayıb. Ərəb-türkman ədəbiyyatının ilk yazılı nümunələri məhz Nəsiminin adı ilə başlayır. Ondan sonra Məhəmməd Füzuli gəlir. Kərkükdə babası ilə birlikdə yaşayıb. Kərkük qalasında indi də evi qalır. Babası dövlət məmuru kimi Kərbəlaya göndəriləndə Füzuli də köçərək uzun müddət orada qalıb. Hər gün həzrəti Hüseynin türbəsinə gedirmiş. Bildiyiniz kimi, öləndə də vəsiyyət edib ki, onu həzrəti Hüseynin məzarının ayağında dəfn etsinlər. Füzulinin məzarı hazırda Kərbəladadır.

**– Yeri gəlmişkən, indi Füzulinin məzarı nə vəziyyətdədir?**

– Məzarı ziyarət olunur. Təəssüf ki, Səddamın hakimiyyəti dönəmində Füzulinin məzarını bağçaya daşıdılar. Oradakı lövhədə yazılıb ki, Füzuli burada uyuyur. Məzarının yerində isə caddə tikdilər. Həzrəti Hüseynin məzarının iç divarındakı xatirə lövhəsi isə qalır. İmamı ziyarət edənlər öncə Füzulinin lövhəsini görürlər. Ancaq istərdik ki, Kərbəlada Füzulinin heykəli qoyulsun, Füzuli Mədəniyyət Evi olsun. Gümanımız Azərbaycanadır.

**Söhbətin bu yerində Tahir bəy Azərbaycanın xaricdəki soydaşlarımızla bağlı bütün məsələlərə həssas yanaşdığını xatırlatdı:**

– Ötən ilin noyabrında Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə Prezident İlham Əliyev dünyanı titrədən bir bəyanat verərək bildirdi ki, 50 milyonluq Azərbaycan türkünün taleyi bizim üçün önəmlidir. Onların dilinin, milli varlığının qorunmasının rəsmi təəssübkeşi Azərbaycandır.

**Görüş zamanı unudulmaz soydaşımız, kərküklü Sinan Səidin də adı xatırlandı. Şəmsəddin bəy dedi:**

– Bu günlərdə Bakıda iştirak etdiyim Türk Dünyası Ədəbiyyat və Kitab Festivalında gənclər məndən "Sinan Səid kimdir?" – deyə soruşdular. Cavab verdim ki, Sinan bəy alim-pedaqoq, tərcüməçi, jurnalist və publisist olub. Bağdad radiosunda çalışıb. Sinan Səid 1959–1970-ci illərdə Azərbaycanda yaşayıb. Burada aspiranturada oxuyub, bir azərbaycanlı xanımla evlənib, 2 övladı olub. Azərbaycan Radiosunun ərəb dilində verilişlərinin aparıcısı olub. "Ninnə yarım", yaxud "Evlərinin önü yonca", "Hər gün axşam olu dallam" və "Qızıl üzük, yaşıl qaşı" adlı mahnıları Nərminə Məmmədova ilə birgə oxuyub.

Amma ondan bir qədər əvvəl Rəsul Rza, Bəxtiyar Vahabzadə və Qasım Qasımzadə İraqa gediblər. Qəzənfər Paşayevin bu barədə maraqlı qeydləri var: "Oradan qayıdanda Rəsul Rza bir kitab gətirmişdi. Nazim Hikmət deyirdi ki, R.Rzanın əlində bir kitab vardı, sanki, ürəyini gəzdirirdi. Əta Tərzibaşının "Kərkük xoyrat və maniləri" kitabı idi. Ondan sonra Rəsul müəllim "Uzaq ellərin yaxın töhfələri" adlı doktorluq dissertasiyasına bərabər bir əsər yazdı. O, İraqda da çap olundu. Sonra Azərbaycanda sərbəst şeirin əsasını qoyan Rəsul Rza İraq-türkman xoyratlarının təsiri ilə folklora qayıtdı. 1964-cü ildə onun "Aşıq Yanıqlının bayatıları" kitabı çıxdı. Bundan sonra, 1980-ci ildə "Yaralı Kərkükün xoyrat və maniləri" çıxdı. Burada görün, kərkük xoyratlarından istifadə edərək Rəsul Rza nə yazmışdır:

**Bağdaddan karvan gəlir,**
**Dərdli, pərişan gəlir.**
**Kimlər qurban kəsilib**
**Sularım al-qan gəlir?**

Budur xoyratların təsiri".

**Şəmsəddin Kuzəçi əlavə olaraq dedi:**

– 1969-cu ildə Bağdadda çap olunan "Qardaşlıq" jurnalında 6 ay "Uzaq ellərin yaxın töhfələri" məqaləsi çap olunub. Sonrakı dönəmlərdə Əbdüllətif Bəndəroğlu və Mustafa Ziya oraya gedən qonaqları qarşılayan, bütün əziyyəti öz çiyinlərində daşıyan adamlar idi. Bəndəroğlu İraqın Mədəniyyət Nazirliyində çalışıb, Azərbaycan haqqında 10-dan artıq kitab çap edilib. Bunlardan biri Qəzənfər Paşayevin 1995-ci ildə çap olunan "İraq-türkman folkloru" kitabıdır. Həmçinin, 1996-cı ildə "Altı il Dəclə Fərat sahillərində" kitabı öz tərcüməsində ərəb dilində nəşr olunub.

Bu gün həmin əsərləri gənclər üçün yenidən "cücərtmək" lazımdır. Gənclərin yeni toxumlar əkməsi vacibdir. Vaxtilə böyük ədiblərimiz Kərkük ədəbiyyatına, mədəniyyətinə, folkloruna böyük xidmətlər göstəriblər. Biz onlardan ilham alaraq yola davam edirik.

**Söhbətin bu yerində mən xatırlatdım ki, Şəmsəddin Kuzəçi özü də gözəl şairdir və bir şeirindən misal çəkdim... Qonağımız təşəkkür edərək dedi:**

– Bizdə İraq ədəbiyyatlarının bir neçə qurumu, məsələn, Yazarlar Birliyinin türkman ofisi var və 300-ə yaxın üzvü birləşdirir. Hər kəs – ərəbcə də, türkmanca da yazanlar üzv olub qeydiyyatdan keçirlər. İraq səviyyəsində müxtəlif tədbirlər icra edirlər. Ayda bir dəfə Bağdada gəlib-gedirlər, Füzuli adına türkcə şeir festivalları keçirilir. Kərkükdə isə ədəbiyyatımız yalnız 2003-cü ildən sonra bir az rahat nəfəs aldı. Ona qədər məfkurəçi şeirlər, milli xoyratlar yazır, gizli mesajlar verirdik. Fikrimizi açıq söyləyə bilmirdik. Məsələn, 1993-cü ildə bir toyda 3 şeir oxudum və məni 3 ay nəzarətdə saxladılar. Belə misralar vardı:

**Kul qalxdı, izi qaldı,**
**Yazılmış yazı qaldı.**
**Əl qaldırın Allaha,**
**Zalımın azı qaldı.**

Deyirdilər ki, bu şeir siyasidir, Səddam Hüseyn nəzərdə tutulur və s. 2003-cü ilə qədər belə çətinliyimiz olurdu, sonra isə hər şey dəyişdi. Rahat istədiyimizi yaza bilirik. İraq-türkman ədəbiyyatları birliyi var. Müxtəlif dərgi və jurnallar çıxmağa başladı. Bu yolda Azərbaycan və Türkiyə Türk dünyasının öndər ölkələridir. Bir zəncirin önəmli baş halqaları bu iki ölkədir.

Bizim də ədəbiyyatımız zəngindir, önəmli yazarlarımız var. Amma yazdıqlarımızı müəyyən qədər Azərbaycan, Türkiyə, Balkanlar, Kosova bilsə də, qırğız, qazax elləri xəbərsizdir. Türk ölkələrinin niyə ortaq dili olmasın ki? Bizim də ədəbiyyatımızda Çingiz Aytmatov kimi yazarlarımız olub. Ustad Əta Tərzibaşı, Əbdüllətif Bəndəroğlu güclü əsərlər qoyublar ortalığa. Çağdaşlarımız arasında Salah Növrəs, Nəsim Əlbir kimi şairlər, yazarlar var. Lakin biz ərəb əlifbasında yazmışıq deyə, çoxları tanımır. Gənclər bu yöndə daha çox çalışmalıdırlar. Azərbaycanda mənimlə işbirliyi edən Əkbər Qoşalı, Rəsmiyyə Sabir, Elçin İsgəndərzadə, Şəlalə Ana və digərləri var. Ümidim odur ki, bizdən sonra gələn nəsillər də Kərkükü tanıyıb sevəcəklər.

Mən gələcək nəsillər üçün kitablarımı Türkiyə türkcəsində, eləcə də Azərbaycan türkcəsində yazmışam. Qoy, öz dillərində oxuya bilsinlər. Görsünlər ki, İraq türkmanları da ulu öndərin dediyi bütünün parçalarıdır. Yeri gəlmişkən, "İraq mətbuat tarixi" kitabım ərəbcə, türkcə, ingiliscə və azərbaycanca olmaqla – 4 dildə çap edilib. Azərbaycan dilinə gənc qəzet yazarı Əfsanə Qıpçaq tərcümə edib, sizin qəzetin baş redaktoru Əflatun Amaşov kitaba ön söz yazıb. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsi bu kitabımı ingilis dilinə tərcümə etdi.

Söhbət zamanı o da qeyd olundu ki, məsafə uzaqlığı ürəkləri ayrı sala bilməz. Azərbaycanla İraq arasında Türkiyə, İran, Suriya var. Qonağımız dedi ki, bu ölkələrin üzərindən əlaqələri daha da genişləndirmək olar. Yeri gəlmişkən, Bakıda Kərkük Mədəniyyəti Mərkəzi yaradılsa, yaxşı olar. Bir zaman Nizami Gəncəvi Muzeyində İraq Ədəbiyyatı Mədəniyyəti Muzeyinin zalı açılmışdı, amma təəssüf ki, sonra nədənsə bağlandı. Bakıdakı parkların birinə Kərkük adı verilə, mədəniyyət mərkəzləri Kərküklə bağlı kitablar çap etdirə, seminarlar keçirə bilər.

Kərküklü tələbələrin Azərbaycanda magistraturada, doktoranturada təhsil almaları ortaq mədəniyyətimizə töhfə verəcək. Həmin tələbələr həm də İraq türkmanlarının təmsilçiləri kimi öz ədəbiyyatlarını, mədəniyyətlərini təmsil edəcəklər. 2000-ci ildə Şəmsəddin Kuzəçi ilə bərabər, 15 nəfər kərküklü AYB-yə fəxri üzv qəbul olunub. Deməli, əlaqələrin güclənməsi baxımından Azərbaycan Yazıçılar Birliyinin, diaspor qurumlarının, mətbuatın da üzərinə çox iş düşür. Kərkükdə onlarla qəzet çıxır, amma oradan hələ heç bir jurnalist Şuşanı ziyarətə dəvət edilməyib...

Nəhayət, qeyd edək ki, bu sıradan umacaqların olması təbiidir. Çünki məram soydaşları daimi olaraq bir araya gətirməkdir.

***Əli NƏCƏFXANLI, "Xalq qəzeti"***

*"Muğam aləmi" VI Beynəlxalq Musiqi Festivalı*

# Azərbaycanda Şərq muğamı təntənəsi

**Artıq, dörd gündür ki, şəhərimizin müxtəlif yerlərində "Muğam aləmi" VI Beynəlxalq Musiqi Festivalı adı altında tədbirlər keçirilir. Heydər Əliyev Fondunun, Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin, Azərbaycan Milli Konservatoriyasının dəstəyi ilə təşkil olunan festival qədim və zəngin muğam sənəti, peşəkar muğam ənənələrini özündə yaşadır. Festival bəşər tarixində əsrarəngiz gözəlliyə malik incəsənət növü olan muğamı Azərbaycan xalqının qiymətli sərvətlərindən biri kimi dünya ictimaiyyətinə təqdim edir. Festivalın təşkilində əsas məqsəd musiqi irsimizi yaşatmaqdan, xalqımızın ənənəvi musiqi sənətininin dünya musiqi xəzinəsində əvəzolunmaz yeri olduğunu bir daha sübuta yetirməkdən ibarətdir.**



Festivalın açılış mərasiminə Heydər Əliyev Sarayında "Alim Qasımov və onun qonaqları" adlı konsertlə start verildi. Dövlət və hökumət rəsmilərinin, tanınmış elm və mədəniyyət xadimlərinin, eləcə də muğamsevərlərin iştirak etdiyi tədbirdə Xalq artisti Alim Qasımov, Əməkdar artist Fərqanə Qasımova, Əfqan rübabı və Hind sarodunun dünya şöhrətli ifaçısı Daud Xan Sadozai, xoreoqraf, muğamla rəqs hərəkətlərini sistemləşdirən Saşar Zərif və Türkiyənin xalq musiqi sənətçisi Senem Akdemir muğamı müasir musiqi janrları ilə sintez edərək möhtəşəm ifa sərgilədilər. Festivalın birinci günü Milli Konservatoriyada Xalq artisti Ənvər Sadıqov və Əməkdar artist Emil Əfrasiyabın da konsertləri keçirildi.

Festivalın ikinci günündə isə Beynəlxalq Muğam Mərkəzi, Milli Konservatoriya və Daş Salnamə Muzeyində Azərbaycandan Əməkdar artist Elçin Şirinov və bir sıra muğam ifaçılarının, Əfqanıstandan Daud Xan Sadozai və İrandan Mahan Mirarabın konsertləri təşkil olundu. İyunun 19-da, həmçinin festival çərçivəsində Beynəlxalq Muğam Müsabiqəsi start götürdü.

Müsabiqənin ilkin mərhələsində ölkəmizi instrumental ifaçılıq kateqoriyası üzrə 5, xanəndəlik kateqoriyası üzrə isə 4 ifaçı təmsil etdi. Xanəndəlik kateqoriyasında Mirəli Sarızadə, Xəyal Hüseynov, Zümrüd Məmmədova, Daşqın Kürçaylı, instrumental ifaçılıq kateqoriyasında isə Vaqif Təhməzov, Cahandar Mikayılov, Bayraməli Əliyev və Soltan Nadirov musiqi nömrələri ilə çıxış etdilər.

Müsabiqədə Azərbaycanla yanaşı, İran, İsrail, Özbəkistan və Türkiyədən ümumilikdə 22 ifaçı iştirak etdi. Birinci yer uğrunda instrumental ifaçılıq kateqoriyası üzrə 12, xanəndəlik kateqoriyası üzrə isə 10 ifaçı mübarizə aparırdı.

İnstrumental ifaçılıq kateqoriyasında qalib olan 6 iştirakçı – Bayraməli Əliyev, Sultan Nadirov, Vaqif Təhməzov (Azərbaycan), Zilola Ruziyeva, Jahongir Otamurodov, Shoxijohan Yoriev (Özbəkistan), xanəndəlik kateqoriyasında isə 5 iştirakçı – Daşqın Kürçaylı, Zümrüd Məmmədova (Azərbaycan), Mohiçehra Şahmurotova, Ramziddin Ergashev, Dostmurod Negmurodov (Özbəkistan) öz ifalarını təqdim etdilər.

İyunun 19-da keçirilən müsabiqənin birinci turunun növbəti mərhələsində isə instrumental ifaçılıq kateqoriyası üzrə daha 6 iştirakçının, xanəndəlik üzrə isə 5 ifaçının dinləmələri təşkil edildi. Qeyd edək ki, dinləmələrdən sonra iyunun 21-də ikinci tura keçən ifaçılar arasından qaliblər seçiləcək.

İyunun 20-də Bakıda VI "Muğam aləmi" Beynəlxalq Musiqi Festivalı çərçivəsində keçirilmiş Elmi simpoziumun açılışı oldu. Tədbirdə Azərbaycan mütəxəssisləri ilə yanaşı, ABŞ, Böyük Britaniya, Fransa, Hindistan, İsrail, Kanada, Qazaxıstan, Özbəkistan, Tacikistan, Türkiyə və Yaponiyadan alimlər iştirak edirdilər.

Simpoziumun rəsmi açılış mərasimində vurğulandı ki, muğam qədim ayinlərdən qaynaqlanaraq, əsrlər boyu davam edən tədrici inkişaf və təkamül prosesindən keçərək, yetkinləşib, formalaşıb və kamilləşib. Klassik ədəbiyyat nümunələri ilə üzvi surətdə vəhdət təşkil edərək sintetik sənət növü kimi meydana çıxan muğamların Azərbaycan musiqisinin inkişafında rolu böyükdür.

Çıxışlarda həmçinin, diqqətə çatdırıldı ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyətinin nəticəsi olaraq keçirilən muğam müsabiqələri sayəsində artıq ölkəmizdə muğam ustadları ilə yanaşı, gənc muğam ifaçıları nəsli də yetişir. Muğamın UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilməsində Mehriban Əliyevanın əvəzsiz xidmətlərindən danışıldı, həmçinin Beynəlxalq Muğam Mərkəzinin istifadəyə verilməsinin muğam sənətinin inkişafında böyük rolunun olduğu bildirildi.

"Muğam aləmi" VI Beynəlxalq Musiqi Festivalı çərçivəsində keçirilən Elmi simpozium "Çağdaş muğam ifaçılığı: ənənə ilə müasirlik arasında", "Azərbaycan muğamının tədqiqi problemləri" və "Yeni tədqiqatlar və tədqiqat metodları" sessiyaları ilə davam etdi.

Onu da bildirək ki, simpozium iyunun 22-dək davam edəcək.

***Fidan HÜQUQQIZI, "Xalq qəzeti"***

# Mədəniyyət naziri Özbəkistanda

**Azərbaycanın mədəniyyət naziri Adil Kərimli Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universitetinə də Füzuli adına Azərbaycan Mədəniyyət və Təhsil Mərkəzi ilə tanış olub. Mərkəz Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə yaradılıb.**



Füzuli Mərkəzində Azərbaycana dair kiçik kitabxana, stendlər, sərgilər təşkil olunub və daimi olaraq Özbəkistanda Azərbaycan mədəniyyətini, ədəbiyyatı, elm, təhsilini təbliğ edir.

Mərkəzin rəhbəri, dosent Gülbahar Aşurova bu mədəni ocağın fəaliyyəti haqqında qonaqlara məlumat verib. Mərkəzin nəzdindəki "Füzuli dilbəndləri" dərnəyinin iştirakçıları və gənclərlə səmimi söhbət olub. Dərnəyin üzvləri Azərbaycan-Özbəkistan dostluğuna dair şeirlər səsləndiriblər. Görüşdə gələcəkdə yeni layihələr əsasında Azərbaycanla əməkdaşlığın gücləndirilməsinə dair təkliflər səsləndirilib.

Sonra qonaqlar universitetin beynəlxalq şöbəsinə gedib, ali məktəbin fəaliyyəti və nailiyyətləri ilə yaxından tanış olublar. Bildirilib ki, Azərbaycan-Özbəkistan dövlət başçıları İlham Əliyev və Şavkat Mirziyoyevin uğurlu siyasəti nəticəsində ölkələrimiz arasında dostluq və əməkdaşlıq yüksək səviyyəyə çatdırılıb, mədəniyyət və digər sahələrdə münasibətlər durmadan inkişaf edir.

Görüşdə Azərbaycan və özbək xalqlarının əbədi dostluğunun gələcəkdə daha da inkişaf edəcəyinə əminlik ifadə edilib.

***Qulu KƏNGƏRLİ***

**Daşkənd**

# Müdafiə Nazirliyi: Qarşı tərəfin yaydığı məlumatı qəti surətdə təkzib edirik

**İyunun 20-si saat 00:20-də Azərbaycan Ordusunun bölmələri tərəfindən guya Ermənistan silahlı qüvvələrinin Qaraiman yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərinin müxtəlif çaplı atıcı silahlardan atəşə tutulması barədə yayılan məlumat bu ölkənin müdafiə nazirliyinin növbəti yalanıdır, həqiqətə uyğun deyil.**

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

"Qarşı tərəfin yaydığı bu məlumatı qəti surətdə təkzib edirik", – məlumatda qeyd edilib.

***

İyunun 20-si saat 16:30-dan 17:25-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini fasilələrlə atıcı silahlardan atəşə tutub.

Bu barədə qəzetimizə Müdafiə Nazirliyindən bildirilib.

Bundan başqa, saat 20:10 radələrində Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Şuşa rayonu istiqamətində yerləşən mövqeləri də atəşə tutulub.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***

# Türk Dövlətləri Təşkilatı qardaş xalqları daha da yaxınlaşdırır

## Ötən il birlik üzrə ÜDM 1 trilyon 383 milyard dollara çatıb

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) Türk Dövlətləri Təşkilatının (TDT) katibliyi ilə birlikdə "Türk iqtisadi icmalı"nın 2023-cü ilin ilk sayını səkkiz dildə təqdim edib. Budəfəki statistik bülletendə cari ilin yanvar-mart aylarının əsas iqtisadi göstəriciləri öz əksini tapıb.**



İcmalın birinci bölməsində TDT-nin üzv və müşahidəçi ölkələrinə dair ümumi baxış təqdim olunub, onların ərazi, əhali, ümumi daxili məhsul (ÜDM) və ticarət dövriyyəsi üzrə ümumiləşdirilmiş göstəriciləri və dünyadakı payı diqqətə çatdırılıb. Həmçinin türk ölkələrinin ÜDM artımlarının müqayisəsi aparılıb. Eyni zamanda, türk dünyasından keçən mövcud və planlaşdırılan nəqliyyat dəhlizləri əks etdirilib.

İcmalın ümumi baxış statistikasında göstərilib ki, 2021-ci il üzrə türk dövlətlərində ÜDM 1 trilyon 383 milyard ABŞ dolları, ticarət dövriyyəsi isə 8 milyard 55,7 milyon ABŞ dolları təşkil edib. Cari ilin ilk rübündə Özbəkistan iqtisadiyyatı 5,5 faiz, Qazaxıstan iqtisadiyyatı 4,9 faiz, Qırğızıstan iqtisadiyyatı 4,6 faiz, Türkiyə iqtisadiyyatı 4 faiz, Azərbaycan iqtisadiyyatı isə 0,4 faiz böyüyüb.

TDT-də müşahidəçi qismində təmsil olunan Macarıstanda isə hesabat dövründə 0,9 faiz iqtisadi geriləmə qeydə alınıb. Dövlət büdcəsinin gəlirlərinin artımı baxımından ən yaxşı göstərici 75,1 faizlə Türkiyə olub. Türkiyənin dövlət büdcəsinin gəlirləri 2023-cü ilin ilk rübündə 53 milyard 811,7 milyon ABŞ dolları olub.

Xarici ticarətdə ən yüksək saldoya Qazaxıstan (ticarət balansı 4 milyard 757,7 milyon ABŞ dolları) və Azərbaycan (ticarət balansı 4 milyard 209,5 milyon ABŞ dolları) malik olub.

2023-ci ilin ilk rübü ərzində TDT-nin üzv ölkələrinin hər birində əsas kapitala yönələn vəsaitlərdə artım müşahidə edilib.

Qeyd edək ki, icmalın ikinci bölməsində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan və Macarıstanın 2023-cü ilin ilk rübü üzrə, Şimali Kipr Türk Respublikasının isə 2021-ci il üzrə əsas makroiqtisadi göstəriciləri müqayisəli şəkildə təqdim olunub.

"Türk iqtisadi icmalı"nın budəfəki sayında ilk dəfə olaraq türk dünyasından keçən Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri də göstərilib. Nəqliyyat dəhlizlərinin arteriyalar üzrə şaxələndirilməsi Avrasiya regionunda nəqliyyat daşımalarında türk dünyasının mövcud potensialından xəbər verir.

Sonda xatırladaq ki, Azərbaycanın TDT-nin üzv və müşahidəçi dövlətlərlə genişlənən əlaqələri müvafiq strateji tərəfdaşlıq haqqında bəyannamələr əsasında həyata keçirilir. İkitərəfli kontekstdə möhkəmlənən bu əməkdaşlıq sonda vahid mərkəzdə birləşərək vahid gücə çevrilir. Bütün bunların təməlində isə Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla şəxsi təşəbbüsləri və qətiyyəti dayanır.

Təşkilatda təmsil olunan ölkələr arasında həm çoxtərəfli, həm də ikitərəfli formatlarda əməkdaşlıq əlaqələri qurulub. İndiyədək vaxtaşırı iqtisadi münasibətlər çərçivəsində bu birliyə üzv dövlətlərin müvafiq qurumlarının yüksək səviyyəli rəsmiləri arasında çoxsaylı görüşlər keçirilib, bir neçə biznes forum gerçəkləşdirilib. Bu görüşlər və biznes forumlarda quruma üzv dövlətlərin iqtisadi imkanları, əməkdaşlıq sahələri təqdim olunub. O cümlədən, investisiya mühitinin yaxşılaşdırılması, iqtisadiyyatın şaxələndirilməsi və sahibkarlıq üzrə işçi qruplarının yaradılması haqqında qəbul edilən qərarlar müsbət nəticələrlə diqqət çəkib.

*V.BAYRAMOV, "Xalq qəzeti"*

# Rusiya neft hasilatını niyə azaltmır?

**Ukrayna ilə müharibədən sonra Qərbin neft embarqosu ilə üzləşən, "qara qızıl"ı bu ilin yanvar-fevral aylarında 48 dollara satmağa məcbur olan Rusiya martdan etibarən gündəlik hasilatı 500 min barel azaldacağını bildirib. Bununla bərabər, rəsmi Moskva həmin vaxtdan başlayaraq, həm də hasilat göstəricilərini açıqlamayıb.**



Onu da qeyd edək ki, elə Rusiyanın təklifi ilə OPEK+ razılaşmasının digər üzvləri– Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri, həmçinin digər ölkələr tərəfindən də gündəlik hasilatın 1,66 milyon barel azaldılacağı elan edilib. Lakin tərəfdaşları hasilatı və ona uyğun ixracı azaltdığı təqdirdə, Rusiya hasilatı elan etdiyinin yarısı qədər aşağı salıb.

Rusiyanın neft satışını izləyən beynəlxalq şirkətlər sonrakı aylarda azalmanın olmadığını müəyyənləşdiriblər. "Refinitiv Oil Research" beynəlxalq şirkətin məlumatına əsasən, may ayında Rusiyanın Çinə boru kəməri və dənizlə neft çatdırılması gündəlik 2 milyon barelə qədər artıb. Apreldə isə bu göstərici 1,74 milyon barel təşkil edib. Hindistana ixrac isə apreldəki gündəlik 1,68 milyon bareldən mayda 1,97 milyon barelə çatıb. Beləliklə, Rusiya may ayında da Çinə neft satışında OPEK+ razılaşması çərçivəsində Səudiyyə Ərəbistanını geridə qoyub. Sonuncu ölkənin Çinə neft satışı apreldəki gündəlik 2,07 milyon bareldən mayda 1,95 milyon barelə düşüb.

Beynəlxalq Enerji Agentliyi də məlumatlarında Rusiyanın hasilatı azaltmaq öhdəliyinə əməl etmədiyini bildirib. Təşkilatın hesabatında bu ilin aprelində Rusiyanın gündəlik neft və neft məhsulları ixracının Ukrayna müharibəsinin başlandığı vaxtdan indiyədək ən yüksək səviyyəyə–8,3 milyon barelə çatdığını vurğulayıb.

Hələ bir il bundan əvvəl OPEC-in Baş katibi Məhəmməd Barkindo OPEC+ Texniki Komitəsinin iclasında bildirmişdi ki, Rusiya sutkada 7 milyon barel həcmində neft və neft məhsulları ixrac edir, dünyada bu həcmləri əvəz etmək üçün isə sərbəst güclər yoxdur. Baş katib daha sonra vurğulamışdı ki, sutkada həmin göstəricidən çox həcmdə olan Rusiya neftinin və neft məhsullarının ixracı başqa yerdən "götürülə bilməz", sərbəst güclər sadəcə "gözə dəymir". Sanksiyalara görə, onun potensial itkisini və ya könüllü şəkildə qoyulan məhdudiyyətləri enerji bazarının mütləq "hiss edəcəyi" gözlənilir. M.Barkindo, həmçinin bildirmişdi ki, Rusiya və Ukrayna arasındakı müharibə pandemiya ilə bağlı qlobal bazardakı qeyri-müəyyənlikləri getdikcə gücləndirir.

Burada bir məqamı da xatırlatmaq yerinə düşərdi. Belə ki, Rusiya–Ukrayna müharibəsindən hələ bir neçə il əvvəl OPEC+ ölkələri tərəfindən neft hasilatının azaldılması ABŞ üçün əlverişli mövqe yaratsa da, bu vəziyyət Rusiyanın neft sənayesinin inkişafı üçün strateji təhlükəyə gətirib çıxarmışdı. O zaman "Rosneft" şirkətinin rəhbəri İqor Seçinin Rusiya Prezidenti Vladimir Putinə yazdığı məktubda ölkə neftinin dünya bazarındakı payının 1990-cı ildəki 16,3 faizdən 2018-ci ildə 12 faizədək azaldığını qeyd edərək, istehlakçıların Rusiya neftindən digərlərinə yönəldildiklərini və bunun Rusiya şirkətlərinin bazar payının geri qaytarılmayacaq dərəcədə azalmasına səbəb ola biləcəyini bildirmişdi.

Onu da qeyd edək ki, OPEC+ üzv ölkələrin 2024-cü ildən hasilatı sutkada daha 1,4 milyon barel azaltmaq qərarından sonra dünya bazarında neftin qiyməti artır.

"Kommersant" nəşrinin son məlumatlarına əsasən, "Brent" markalı neftin avqust fyuçerslərinin qiyməti Moskva vaxtı ilə saat 8:50-ə 1,18 faiz artaraq 77,03 dollar/barel, "West Texas Intermediate" markalı neftin iyul fyuçersləri 1,16 faiz bahalaşaraq 72,57 dollar/barel təşkil edib.

Bu il iyunun 4-də OPEC rəsmi olaraq elan edib ki, OPEC+ 2024-cü ildən etibarən ümumi neft hasilatını gündəlik 40,46 milyon barelə uyğunlaşdırmağa razılaşıb. Müqavilənin özü 2025-ci ilə qədər uzadılıb.

Rusiyanın rəsmi kvotası sutkada 650 min barel azalaraq 9,8 milyon barelə enəcək. Nəticədə gələn il Rusiya Federasiyasında real hasilat 2022-ci ildəki təqribən 9,9 milyon barelə qarşı sutkada 9,3 milyon barelə qədər azalmalıdır.

Yeri gəlmişkən, Rusiya artıq mart ayından etibarən neft hasilatını sutkada 500 min barel azaldacağını bildirib. Son həftələrdə isə Rusiyanın xam neft ixracı məlumatları heç bir ixtisarı əks etdirmir. OPEC+ müttəfiqləri tərəfindən onun bu uyğunsuzluğundan getdikcə daha çox məyus olduqları bildirilir.

Rusiyanın dəniz yolu ilə xam neft ixracı yüksək qalmaqda davam edir. Son vaxtların orta göstəriciləri isə daşınmaların artdığını göstərir.

Xatırladaq ki, Rusiya xam neft tədarükləri 2022-ci ilin sonundakı səviyyədən sutkada 1,4 milyon barel çoxdur. Ekspertlər bildirirlər ki, bu, Almaniya və Polşanın boru kəməri ilə Rusiya xam neftinin idxalını dayandırması və ya neft emalı zavodunun məhsuldarlığının aşağı olması ilə əlaqədar ola bilər.

Az bir müddət bundan əvvəl OPEC+ istehsalçıları cari ixtisarı 2024-cü ilin sonuna qədər saxlamaq qərarına gəliblər. OPEC təşkilatının ən böyük istehsalçısı və dünyanın ən böyük xam neft ixracatçısı Səudiyyə Ərəbistanı isə gələn ay hasilatı könüllü olaraq sutkada 1 milyon barel azaldıb.

Bununla belə, son həftələrdə Rusiya xam neftinin ixracı ilə bağlı məlumatlar heç bir azalmanı əks etdirmir, əksinə, Rusiyanın dəniz yolu ilə xam neft ixracı artmaqdadır.

Onu da qeyd edək ki, yuxarıda vurğulandığı kimi, Rusiya neft hasilatının səviyyəsi barədə hesabat verməyi artıq dayandırıb. Bazar və analitiklər Rusiya tədarükünün miqdarı ilə bağlı Çin və Hindistandakı gəmilərin izlənməsi məlumatlarına, ticarət mənbələrinə və idxal statistikasına etibar etməli olurlar.

*"Xalq qəzeti"*

**Ukrayna münaqişəsi başlanandan ABŞ və Çin arasında soyumaqda olan diplomatik münasibətlərin normallaşacağına ümidlər vəd edən görüş baş tutdu. Məhz Ukraynada xüsusi hərbi əməliyyatlara baş vuran Rusiyaya fərqli münasibətləri səbəbindən iki supergücün mövqeyində yumşalmaya doğru atılacaq addımları Qərbdə olduğu kimi, Şərqdə də gözləyənlər az deyildi. Deyəsən, qarşılıqlı anlaşmaya yönəlik cəhdlər fayda verməyə, ikitərəfli münasibətlərdə yaranan buzlar əriməyə başlayır. İki ölkənin rəsmiləri iki gün ərzində keçirilən danışıqlardan ciddi qərarların qəbulunu gözləməsələr də, təmasların əsas məqsədinin iki ölkə arasındakı "yüksək hərarətli siyasi münasibətlərin" yumşaldılması və sabitliyin bərpası olduğunu qeyd ediblər.**

ÇXR Xarici İşlər Nazirliyinin sözçüsü Hua Cunying ABŞ rəsmilərinin səfərindən məmnun olduqlarını və bu səfərin İndoneziyada keçirilən G20 Sammitində bir araya gələn ABŞ Prezidenti Co Bayden və Çinin dövlət başçısı Si Cinpin tərəfindən razılaşdırıldığını bildirib. Çin diplomatının sözlərindən bu nəticə hasil olur özünə, öz gücünə söykənən özünəinama malik olduqlarını və hamının yaxşı yaşamağa haqqı çatdığını qeyd edib: "İki ölkənin ümumi maraqlarına xüsusi əhəmiyyət vermək vacibdir. Tərəflərdən birinin əldə etdiyi uğurlar digər tərəf üçün təhdid deyil, əksinə, yaxşı şansdır. Cənab Dövlət katibi, ümid edirəm ki, bu

# "Buzları əritməyə" yönəlik 2 gün

## *ABŞ Dövlət katibi Antoni Blinkenin Pekinə rəsmi səfəri son 5 ildə Birləşmiş Ştatlar baş diplomatının Çinə ilk gedişi idi*



ki, A.Blinkenin bu səfərini iki supergüc arasında münasibətləri yaxşılaşdırmaq istiqamətində razılaşmanın ilk addımı saymaq olar.

* * *

Əslində, A.Blinkenin Pekinə səfəri cari ilin fevral ayına planlaşdırılmışdı və bu barədə rəsmi açıqlama da verilmişdi. Amma Çinə aid olduğu deyilən casus şarının Birləşmiş Ştatların hava məkanına daxil olmasından sonra səfər təxirə salınmışdı. Pekinə ikigünlük səfəri çərçivəsində A.Blinken öncə Çinin xarici işlər naziri Qin Qanq, daha sonra Çin Kommunist Partiyası (ÇKP) Mərkəzi Komitəsinin xarici əlaqələr komissiyası ofisinin direktoru Vanq Yi ilə görüşüb. İyunun 19-da günün ikinci yarısında ÇXR Sədri Si Cinpin ABŞ Dövlət katibinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Zamanın dəyişdiyini, dünyaya yeni Çin-Amerika münasibətlərinin lazım olduğunu yüksək qonağın diqqətinə çatdıran Si Cinpin bəşəriyyətin gələcək perspektivlərinin və taleyinin Pekin və Vaşinqtonun bir-biri ilə uzlaşmasının düzgün yolunu tapmalarından asılı olduğunu vurğulayıb. Çin lideri hər iki ölkənin qarşılıqlı tərəqqisi və birgə çiçəklənməsi naminə planetin geniş ərazisinin kifayət etdiyini söyləyərək, çinlilərin də amerikalılar kimi fərdi ləyaqət hissinə, səfərinizin sayəsində siz Çin və Amerika arasında münasibətlərin sabitləşməsinə daha müsbət töhfənizi verəcəksiniz".

Birləşmiş Ştatların Çinlə münasibətlərinə daim məsuliyyətlə yanaşdığını bəyan edən Antoni Blinken bu səfərin prezident Co Baydenin təşəbbüsü ilə baş tutduğunu Si Cinpinin diqqətinə çatdırıb: "Cənab Prezident məndən Pekinə getməyimi xahiş eləmişdi. Çünki o hesab edir ki, ABŞ və Çinin üzərində bizim münasibətlərimizin idarə olunmasına görə öhdəlik və məsuliyyət var. Bu, həm Birləşmiş Ştatların və Çinin, həm də bütün dünyanın marağındadır. İki gün ərzində bizim xarici işlər naziri Qin Qanq, xarici əlaqələr komissiyası ofisinin direktoru Vanq Yi ilə səmərəli görüşlərimiz oldu. Biz ikitərəfli və qlobal məsələlərin geniş dairəsini müzakirə etdik. Sizinlə bundan sonrakı fəaliyyətimizi müzakirə etməyi imkanını isə yüksək qiymətləndirirəm".

Yüksək səviyyəli Pekin dialoqu ilə bağlı Çin və ABŞ mediasının şərhlərinə əsasən deyə bilərik ki, bu görüş ilin sonuna qədər iki supergüc liderləri arasında sammitin keçirilməsinə yaxşı təməl rolunu oynaya bilər.

**P.S.** ABŞ-dan Çinə sonuncu diplomatik səfər 2018-ci ildə keçmiş dövlət katibi Mayk Pompeo tərəfindən olub.

*İ.HƏSƏNQALA, "Xalq qəzeti"*

# Ukraynanın 263 hücumunun qarşısı alınıb

**Ukrayna Silahlı Qüvvələri Rusiyanın xüsusi hərbi əməliyyat zonasında iyunun 4-dən bəri 263 hücum həyata keçirib. Bu barədə Rusiya Federasiyasının müdafiə naziri Sergey Şoyqu bəyan edib.**



Onun sözlərinə görə, RF hərbçiləri bunun qarşısını mətanətlə alıb və Ukrayna məqsədinə çata bilməyib. Ancaq Kiyev Donetsk, Cənubi Donetsk və Zaporojye istiqamətində hücumları davam etdirir: "Bu zaman Kiyev rejimi çox sayda Qərb silahlarından və NATO mütəxəssisləri tərəfindən hazırlanmış elit birləşmələrdən istifadə edir".

Nazir deyib ki, Ukrayna "HIMARS" və "Storm Shadow" raketləri ilə Krımı və Rusiyanın digər regionlarını vurmağı planlaşdırır. Onun fikrincə, bu raketlərin istifadəsi ABŞ və Böyük Britaniyanın münaqişəyə tammiqyaslı qoşulması deməkdir və Ukrayna ərazisindəki qərar qəbulu mərkəzlərinə zərbə vurulmasına səbəb olacaq.

# Bayden Putinin nüvə silahından istifadə edə biləcəyindən ehtiyatlanır

**ABŞ Prezidenti Co Bayden Rusiyanın taktiki nüvə silahından istifadə təhlükəsini "real" adlandırıb.**



ABŞ Prezidenti Kaliforniyada çıxışı zamanı deyib: "Təxminən 2 il əvvəl burada olarkən və Kolorado çayının qurumasından narahat olduğumu deyəndə hamı mənə dəli kimi baxırdı. Putinin taktiki nüvə silahından istifadə edə biləcəyindən narahat olduğumu deyəndə də mənə o cür baxırlar. Bu, realdır". Daha əvvəl Ağ ev rəhbəri Rusiyanın Belarusda bu cür silahlar yerləşdirməsini pisləyib və Putinin bəyanatını tamamilə məsuliyyətsizlik adlandırıb.

Xatırladaq ki, bundan əvvəl Rusiya Prezidenti Vladimir Putin Rusiya Federasiyasının nüvə silahlarının Belarus ərazisində yerləşdirilməsinə başlandığını elan etmişdi: "Bunda qeyri-adi heç nə yoxdur. ABŞ onilliklərdir ki, bunu edir. Onlar uzun müddətdir ki, öz taktiki nüvə silahlarını Avropadakı müttəfiq ölkələrinin, NATO ölkələrinin ərazilərində yerləşdirirlər. 6 dövlətdə Almaniya Federativ Respublikası, Türkiyə, Hollandiya, Belçika, İtaliya və Yunanıstanda nüvə silahı yerləşdirilib. Bəli indi Yunanıstanda yoxdur, amma anbar var. Belarusla razılaşdıq ki, biz də eyni şeyi edəcəyik. Biz bunu nüvə silahının yayılmaması ilə bağlı beynəlxalq öhdəliklərimizi pozmadan edəcəyik".

*"Xalq qəzeti"*

# Boris Conson parlamentə icazəsiz daxil ola bilməyəcək

**Britaniyanın keçmiş baş naziri Boris Conson koronavirus pandemiyası zamanı şənliklər keçirilməsi ilə bağlı yalan danışdığına görə İntizam Komitəsi tərəfindən tənqid olunub. Britaniya Parlamenti İntizam Komitəsinin bu tənqid hesabatını təsdiqləyib.**



Siyasətçini ittiham edən komitə üzvlərinin yekun rəyini 354 deputat dəstəkləyib, yalnız 7 deputat qərarın əleyhinə çıxıb. Ciddi siyasi pozuntuya görə intizam cəzası olaraq Boris Conson sabiq deputat kimi parlament binasına icazəsiz daxil olmaq hüququndan məhrum edilib. Çoxları səsvermənı rəmzi hesab etsə də, digərləri onu parlamentə etimadı bərpa etmək istiqamətində mühüm addım kimi qiymətləndirib.

Xatırladaq ki, Boris Conson hələ komissiyanın gəldiyi nəticə dərc edilənə qədər parlament üzvlüyündən istefa vermişdi.

*"Xalq qəzeti"*

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 130 (30246) 21 iyun 2023-cü il, çərşənbə
veb-sayt: www.xalqqazeti.az



İdman xəbərləri

## Avropa çempionatı – 3 medal

**Avropa Şahmat İttifaqının təşəbbüsü ilə Polşada keçirilən III Avropa Oyunlarına dəstək məqsədi daşıyan cütlüklərin blits üzrə Avropa çempionatı təşkil olunub.**



Şəhriyar Məmmədyarovla Günay Məmmədzadədən ibarət Azərbaycan millisi yarışda 3 medal qazanıb. Belə ki, şahmatçılarımız qrup mərhələsində Niderlanda məğlub olub, ardınca İsrail komandası ilə heç-heçə edib, Polşa, Rumıniya, Ukrayna və İspaniyaya qalib gəlib. Son turda komandamız Ermənistanla heç-heçə oynayıb.

Qrupda ilk dördlükdə qərarlaşan şahmat duetimiz pley-offa yüksəlib. Daimi sistemlə keçirilən yarışın yekununda Günay Məmmədzadə gümüş, Şəhriyar Məmmədyarov isə bürünc medal qazanıb.

Yekun sıralamada komandamız turnir cədvəlində üçüncü yeri tutaraq daha bir mükafata – bürünc medala layiq görülüb.

## Xüsusi olimpiyaçılarımızın ilk uğurları

**Almaniyanın paytaxtı Berlində Ümumdünya Xüsusi Yay Olimpiya Oyunlarında komandamız ilk medallarını qazanıb. Bürünc medalları yığmamızın aktivinə pouerliftinq üzrə 59 kiloqram çəki dərəcəsində mübarizə aparan Samir Eminov yazdırıb.**



İdmançımız ağırlığı yerindən qaldırmada, ağırlığı çiyinə alaraq oturub durmada və uzanaraq ağırlığı sinəyə alaraq qaldırmada bürünc medallar qazanıb. Təmsilçimiz üç hərəkətin cəmində də bürünc medala layiq görülüb.

Qeyd edək ki, yarışda Azərbaycan Xüsusi Olimpiya Komitəsinin komandası 13 idman növü üzrə mübarizə aparır. Oyunlar iyunun 25-dək davam edəcək.

## "Avro-2024"ün rəsmi maskotu

**2024-cü ildə Almaniyada keçiriləcək futbol üzrə Avropa çempionatının rəsmi maskotu təqdim edilib.**

Növbəti iki həftə ərzində UEFA-nın saytında yeni maskotun adı azarkeşlərin səsverməsi nəticəsində müəyyənləşəcək. "Avro-2024" gələn il iyunun 14-dən iyulun 14-dək Almaniyanın 10 şəhərində təşkil olunacaq.




***Leyla SABİRQIZI, "Xalq qəzeti"***



## "Varlı qadın" Bakıda

**Mingəçevir Dövlət Dram Teatrının yaradıcı heyəti Bakıda qastrol səfərində olub.**

"Aktyor Evi"ndə yazıçı-dramaturq Əli Əmirlinin "Varlı qadın" pyesi əsasında hazırlanan eyniadlı tamaşa nümayiş etdirilib.

"Varlı qadın" pyesi Tacikistanda V. Mayakovski adına Dövlət Rus Dram Teatrında və Vohidov adına Tacikstan Dövlət Gənclər Teatrında tamaşaya hazırlanmışdır. Vohidov teatrının tacik dilində hazırlanmış tamaşası Almaatıda keçirilmiş Yaxın Şərq ölkələrinin II Beynəlxalq Teatr festivalında iki nominasiya üzrə mükafata və qızıl medala layiq görülmüşdür. Elə həmin festivalda digər teatrların diqqətini cəlb edən "Varlı qadın" Qırğızıstanın paytaxtında A.Umuraliyev adına Bişkek Şəhər Dram Teatrında rus və qırğız dillərində tamaşaya qoyulmuşdur.

Rəngarəng tərtibatlı və geyimli, cəlbedici rejissor işi, baxımlı aktyor oyunu ilə seçilən səhnə əsəri auditoriya tərəfindən böyük rəğbətlə qarşılanıb.

Tamaşanın rejissoru Xalq artisti Valeh Kərimovdur.

***"Xalq qəzeti"***

## "Google Maps" Yerin 3D mənzərəsini təqdim edir

**"Google Maps" veb xəritə tətbiqi Sidneyin Liman körpüsü, Praqa qalası və Berlin teleqülləsi kimi çox məşhur 500 əsas turizm məkanının və dünyanın müxtəlif şəhərlərindəki görməli yerlərin fotoreal 3D görüntülərini təqdim edir.**

İndiyədək, bu formatda olan mənzərələri yalnız Los-Anceles, Nyu-York, San-Fransisko, London və Tokio kimi bir neçə şəhərdə görmək mümkün idi. "Google Maps" immersiv görünüş xüsusiyyətini iyunun sonuna qədər Amsterdam, Dublin, Florensiya və Venesiya kimi digər Avropa şəhərlərinə də aid edəcəyini bildirib.

Tətbiqdən istifadə zamanı, mənzərənin ətrafında dövrə vurmaq, kameranın görünüşünü fırladıb sərbəst şəkildə böyütmək və ya kiçiltmək mümkün olacaq.

Bu yenilik eyni zamanda, müxtəlif günlər üçün nəzərdə tutulmuş hava haqqında məlumatdan əvvəlcədən xəbərdar olmağa və günün müxtəlif vaxtlarında mənzərənin necə görün-



düyündən, həmin vaxt yerin nə qədər izdihamlı olduğundan xəbərdar olmağa imkan verəcək.

***Fidan SALMANOVA, "Xalq qəzeti"***

## "Yaşayan adalar"

**İrlandiyada sahibsiz adalarda yaşamaq istəyən gənclərin hər birinə 84 min avro məbləğində təzminat ödəniləcək. "Yaşayan adalar" adlandırılan bu proqrama 23 ada daxildir.**

Məlumata görə, ödənişlər boş və sahibsiz evləri təmir edib, orada yaşamaq istəyən şəxslər üçün nəzərdə tutulub. Belə evlərin sahibləri bərpa xərclərini ödəmək üçün də subsidiyalar ala biləcəklər. Məbləğ evlərin vəziyyətindən asılı olaraq 60–84 min avro arasında dəyişir.

"Yaşayan adalar" proqramı ada icmaları üçün infrastrukturu yaxşılaşdırmaq məqsədi daşıyır. Qeyd edək ki, İrlandiyada ev sahibi olmaq orada yaşamaq hüququnu tam təmin etmir.

***H. FİDAN, "Xalq qəzeti"***

Proqnoz

## Güclü külək əsəcək, bölgələrdə leysan yağacaq, dolu düşəcək



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyunun 21-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz mülayim şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 17-22°, gündüz 24-29° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 759 mm civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 45-55 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu:Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 21-22° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 23-24° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 17-22°, gündüz 30-35°, dağlarda gecə 7-12°, gündüz 15-20° isti olacaq.

***Q.QASIMOV, "Xalq qəzeti"***

Maraq dünyamız

## Ay Yerdən uzaqlaşırmı?

**Ay tədricən planetimizdən uzaqlaşır. Düzdür, bu, çox aşağı sürətlə baş verir – ildə 38 millimetr. Viskonsin–Madison və Kolumbiya universitetlərinin tədqiqatçıları 1,5 milyard il əvvəl Yer gününün təxminən 18 saat davam etdiyini hesablayıblar.**



O zaman Ay Yerə indikindən 44 min kilometr daha yaxın olub. Astrofiziklərin fikrincə, artan məsafə planetin öz oxu ətrafında fırlanmasına, eyni zamanda iqlimə və günün uzunluğuna təsir edib. Bir neçə milyard ildən sonra Ayın orbiti təxminən iki dəfə artacaq və gün 870 saat uzanacaq. Ekspertlərin proqnozlarına görə, zaman keçdikcə onlar bir-birindən uzaqlaşmayacaq və peyk yenidən Yerə doğru hərəkət etməyə başlayacaq,

## Limonda şəkər çiyələkdən çoxdur



**Sarı turş sitrus meyvələrində, məsələn limonda çiyələkdən daha çox şəkər var. Bu heyrətamiz fakt müxtəlif ölkələrin alimləri tərəfindən aparılan araşdırmalarda dəfələrlə sübuta yetirilib.**

Həqiqətən də, buna inanmaq çətindir, çünki insanların çoxu həmişə bunun əksini düşünüb. Turş sitrus meyvələrində qlükoza, təxminən, yetmiş, çiyələkdə isə yalnız 40 faizdir. Burada belə bir sual yaranır: niyə limon turş dad verir? İzah edilir ki, bu, limon turşusunun dominantlıq təşkil etməsinə görədir.

***L.AZAD, "Xalq qəzeti"***

*Sağlamlıq guşəsi*

## Ağcaqanad da qadınları çox "sevir"

**Havalar istiləşdikcə ağcaqanadların sayı çoxalır. Bu da hamı üçün əsl narahatlığa çevrilir. Araşdırmalara görə, B qan qrupu olan insanları ağcaqanadların sancması ehtimalı aşağıdır, lakin bu, digər qan qrupları üçün o qədər də yaxşı xəbər deyil.**



Mütəxəssislərin sözlərinə görə, bəzi insanlar kimi, ağcaqanadlar da isti havanı sevirlər. Birinci qan qrupundan olanlar üçün bu, xatalı ola bilər.

Ağcaqanadlar da müəyyən qan qruplarına üstünlük verirlər. Ən çox O(I), sonra A(II) qan qrupunu xoşlayır, B(III) qan qrupunu isə daha az sevirlər. Tədqiqat da bunu təsdiqləyir: O (I) qan qrupu qansoranların sevimlisidir.

Tədqiqat qrupu müxtəlif qan qruplarından 64 nəfəri araşdıraraq Asiya pələngi ağcaqanadlarının kimlərə hücum etdiyini öyrənib. Nəticədə, O(I) qan qrupu uçan həşəratların ən çox hücum etdiyi hədəf olub. Dişləmə üçün başqa bir risk cins amili ola bilər. Ağcaqanadlar daha çox qadınları dişləyir.

## Pomidor barədə nələri bilmirik?

**Pomidor bir çox sağlamlıq probleminin qarşısını almağa kömək edir, ürək-damar sisteminin işini normallaşdırır. Pomidorda olan çoxlu kalium, xolin, likopen, beta-karotin, lutein və zeaksantin qan damarlarının divarlarını gücləndirməyə, "pis" xolesterinin səviyyəsini və qan laxtalanma riskini azaltmağa kömək edir. Bundan əlavə, pomidor sevənlər bir qayda olaraq, təzyiqlə bağlı problem yaşamırlar.**



Pomidorun aşağı kalorili olması maddələr mübadiləsi üçün son dərəcə faydalıdır. Müntəzəm istifadə köp və qəbizliyi aradan qaldırır, görmə qabiliyyətini artırır.

Kanada alimləri müəyyən ediblər ki, gündə 3 pomidor yeyən insan, onu sevməyəndən orta hesabla 5 il sonra yaşla bağlı ilk dəyişikliyi hiss edir.

B vitaminləri ilə zəngin olduğu üçün çiy yeyiləndə qanda qlükozanı azaldır.

Pomidor qanda sərbəst radikalları neytrallaşdıran və xərçəng riskini azaldan antioksidantlarla və vitaminlərlə zəngindir. Xüsusilə, prostat, mədə və kolorektal xərçəngin qarşısının alınmasında təsirlidir.

Tərkibində fosfor, maqnezium, kalium və kalsium olduğundan sümüyü gücləndirir, osteoporozun qarşısını alır.

***Z.HÜSEYNLİ, "Xalq qəzeti"***

## ALLAH RƏHMƏT ELƏSİN

"Azərsu" ASC-nin kollektivi "Sukanal" Elmi-Tədqiqat və Layihə İnstitutunun direktor müavini Rəşail İsmayılova atası

**ABDULHÜSEYN İSMAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi rayonundan Rafil Hüseynov ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimova anası

**HƏMAYİL QARAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5171
SİFARİŞ 1556
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00